# المختصر المفيد للمؤذن والإمام والخطيب وأحكام المساجد

# Müəzzin, imam, xətib və Məscid əhkamları üçün faydalı qısa məlumat

# Müəzzin, imam, xətib və Məscid əhkamları üçün faydalı qısa məlumat

İslami Məzmun Xidmətləri Cəmiyyətinin Müxtəlif Dillər üzrə Elmi Komitəsi

# Müəzzin, imam, xətib və məscid əhkamları üçün faydalı bir xülasə

İslami Məzmun Xidmətləri Cəmiyyətinin Müxtəlif Dillər üzrə Elmi Komitəsi

Həqiqətən, həmd Allaha məxsusdur. Biz Ona həmd edirik, Ondan yardım diləyirik, Ondan bağışlanma diləyirik. Nəfislərimizin şərindən və əməllərimizin pisliyindən Allaha sığınırıq. Allah kimi doğru yola yönəldərsə, onu azdıran olmaz. Kimi də zəlalətdə tək başına buraxarsa, ona hidayət verən olmaz. Mən şəhadət verirəm ki, Allah-dan başqa ibadətə layiq haqq məbud yoxdur. O Təkdir və Onun heç bir şəri-ki yoxdur. Şəhadət verirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Allahın salavatı və salamı onun, əhlinin, səhabələrinin və gözəl tərzdə onların ar-dın-ca gedən-lərin üzərinə olsun.

Daha sonra: İnsanlar öz hallarını islah edəcək şeylərə daima ehtiyac duyduqları üçün, şəriət də bunu təmin edən hökmlər gətirmişdir. Bunlara namaz üçün azan və iqamə, camaata imamlıq, cümə xütbəsi və məscidlərin hökmləri daxildir. Buna görə də məscid müəzzininin, imamın və cümə xətibinin məsuliyyəti çox böyükdür. Bu səbəbdən biz: "(Müəzzin, İmam, Xətib və Məscid Hökmləri

üçün Faydalı Müxtəsər)" adlı kitabı hazırlamağa və onu bir neçə dilə tərcümə etməyə səy göstərdik.

## Birinci fəsil: Azan və iqamə əhkamları

Azan İslamın və müsəlmanların şüarıdır, belə ki, o, hər gün və hər gecə beş dəfə oxunur. Alimlər öz kitablarında azanın məsələlərinə, sünnələrinə, hökmlərinə, müstəhəblərinə və onu batil edən amillərə xüsusi diqqət yetirmişlər. Bütün bunlar isə sırf bu ibadətin əhəmiyyəti və şərəfinə görədir[1].

### Birinci bölmə: Azan və iqamənin tərifi

Azanın şəriət baxımından mənası: Müəyyən, xüsusi və şəriətdə buyurulan sözlər ilə namazın vaxtının girməsini bildirməkdir[2].

İqamənin şəriət baxımından mənası: Şəriətdə varid olan xüsusi sözlər ilə namaz qılmaq üçün ayağa qalxmağı bildirməkdir[3].

### İkinci bölmə: Azan və iqamənin hökmü

Əzan və iqamə Kitab, Sünnə və İcma ilə məşrudur (şəriətə müvafiqdir):

Kitabdan dəlil: Uca Allah buyurur:

﴿وَإِذَا نَادَيْتُمْ إِلَى ٱلصَّلَوٰةِ ٱتَّخَذُوهَا هُزُوًا وَلَعِبًاۚ ذَٰلِكَ بِأَنَّهُمْ قَوْمٌ لَّا يَعْقِلُونَ58﴾

"Namaza çağırdığınız zaman onlar onu məsxərəyə qoyub oyun-oyuncaq sayarlar. Bu,

---

[1] Bax: "Fəthul-Munim şərh Səhih Müslim" (2/460).

[2] Bax: "əl-Muğni" İbn Qudamə, (1/292), Muxtar əs-Sihah, (səh: 16, A-Z-N maddəsi), "əl-Əzan vəl-İqamə" əl-Qahtani, (səh: 5).

[3] Bax: Kəşşaf əl-Qina, (1/230).

onların düşüncəsiz bir toplum olmalarına görədir". (Maidə 5 surəsi, ayə 58).

Sünnəyə gəlincə, azan və iqamənin icazəli olmasına bir çox hədislər dəlalət etmişdir. Onlardan bəziləri aşağıdakılardır:

İbn Ömərdən, Allah onların hər ikisindən də razı olsun, belə dediyi rəvayət edilir: "Müsəlmanlar Mədinəyə gəldikləri zaman toplaşar və namaz vaxtını təxmin edərdilər. Çünki namaza çağırış edilmirdi. Bir gün bu barədə danışdılar. Onlardan bəziləri: "Nəsranilərin zəngi kimi bir zəng təyin edin"– dedilər. Bəziləri isə: "Xeyr, yəhudilərin şeypuru kimi bir şeypur olsun"– dedilər. Bu zaman Ömər dedi: "Bəs namaza çağırmaq üçün bir nəfər göndərsəniz olmazmı?" Bunun üzərinə Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, dedi:

«يَا بِلَالُ، قُمْ فَنَادِ بِالصَّلَاةِ».

«Ey Bilal! Qalx, namaz üçün azan ver»[1].

İcmadan olan dəlil: Ümmət, beş vaxt fərz namazları üçün azan və iqamənin caiz olması barədə yekdil rəydədir:

İmam İbn Qudamə əl-Məqdisi demişdir: "Ümmət, azanın beş fərz namaz üçün buyurulduğuna dair icma etmişdir"[2].

---

1 Hədisi Buxari: (604) və Müslim: (377) rəvayət etmişdir.
2 əl-Muğni: (1/293).

Azan və iqamə, kişilər üçün həm səfərdə, həm də daimi yaşayış yerində olarkən beş vaxt namaz üçün fərzi-kifayədir. Çünki Malik bin Huveyris, radiyallahu anhu, rəvayət edir ki, peyğəmbər, sallallahu əleyhi va səlləm, onlara belə buyurmuşdur:

«فَإِذَا حَضَرَتِ الصَّلَاةُ فَلْيُؤَذِّنْ لَكُمْ أَحَدُكُمْ، وَلْيَؤُمَّكُمْ أَكْبَرُكُمْ»

«Namaz vaxtı yetişdiyi zaman, qoy sizdən biriniz azan versin və sizin ən yaşlı olanınız sizə namaz qıldırsın».[1].

Çünki azan və iqamə İslamın zahiri şüarlarından biridir və onları heç bir zaman tərk etmək olmaz.

Qadın istər tək namaz qılsın, istərsə də qadınlara imamlıq etsin, azan və iqamə verməsi şəriətə uyğun deyil[2].

## Üçüncü bölmə: Azan və iqamənin fəziləti

Azanın və müəzzinlərin fəziləti barədə bir çox rəvayətlər varid olmuşdur. Bunlardan bəziləri aşağıdakı fəzilətlərdir:

Müəzzin Allaha tərəf çağıranlardandır və o, insanların ən gözəl söz söyləyənidir. Uca Allah buyurmuşdur:

﴿وَمَنۡ أَحۡسَنُ قَوۡلٗا مِّمَّن دَعَآ إِلَى ٱللَّهِ وَعَمِلَ صَٰلِحٗا وَقَالَ إِنَّنِي مِنَ ٱلۡمُسۡلِمِينَ33﴾

"Allaha tərəf çağıran, saleh əməl edən və: “Mən müsəlmanlardanam!”– deyən kəsdən daha gözəl

[1] Hədisi Buxari: (628) və Müslim: (674) rəvayət etmişdir.
[2] Şərh əl-Umdə, İbn Teymiyyə - Namaz kitabı (səh: 101).

söz söyləyən kim ola bilər?!". (Fussilət 41 surəsi, ayə 33).

Müəzzinlər Qiyamət günü insanların ən uzun boyunlu olanları olacaqdır. Muaviyə, radiyallahu anhu, demişdir: Mən Allahın rəsulunun, salləllahu aleyhi va səlləm, belə buyurduğunu eşitdim:

«المُؤَذِّنُونَ أَطْوَلُ النَّاسِ أَعْنَاقًا يَوْمَ القِيَامَةِ»

«Müəzzinlər, Qiyamət günü insanların ən uzun boyunlu olanları olacaqdır».[1].

Azan və iqamə şeytanı qovur. Əbu Hureyrədən, radiyallahu anhu, rəvayət olunur ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

«إِذَا نُودِيَ لِلصَّلَاةِ أَدْبَرَ الشَّيْطَانُ لَهُ ضُرَاطٌ، حَتَّى لَا يَسْمَعَ التَّأْذِينَ، فَإِذَا قُضِيَ التَّأْذِينُ أَقْبَلَ، حَتَّى إِذَا ثُوِّبَ بِالصَّلَاةِ -أَيْ: أُقِيمَتِ الصَّلَاةُ- أَدْبَرَ، حَتَّى إِذَا قُضِيَ التَّثْوِيبُ أَقْبَلَ، حَتَّى يَخْطُرَ -أَيْ: يُوَسْوِسُ- بَيْنَ الْمَرْءِ وَنَفْسِهِ، يَقُولُ لَهُ: اذْكُرْ كَذَا وَاذْكُرْ كَذَا، لِمَا لَمْ يَكُنْ يَذْكُرُ مِنْ قَبْلُ، حَتَّى يَظَلَّ الرَّجُلُ مَا يَدْرِي كَمْ صَلَّى»

«Namaz üçün azan oxunduqda, şeytan azanı eşitməsin deyə, yel buraxaraq üz döndərib qaçar. Azan bitdikdə isə geri qayıdar. Namaz üçün iqamə verildikdə - yəni namaza qalxdıqda - yenə üz döndərib qaçar. İqamə bitdikdə isə geri qayıdar və insanla nəfsi arasına girib vəsvəsə verməyə başlayar. Ona: "Filan şeyi xatırla, filan şeyi xatırla" – deyərək, əvvəllər heç ağlına gəlməyən şeyləri yadına salar. Nəhayət, insan neçə rükət namaz qıldığını bilməz olar».[2].

---

1 Hədisi Müslim: (387) rəvayət etmişdir.
2 Hədisi Buxari: (1222) və Müslim: (389) rəvayət etmişdir.

Müəzzinin azanını eşidən hər bir şey ona şahidlik edər. Abdullah bin Abdur-Rəhman əl-Ənsaridən rəvayət olunur ki, Əbu Səid əl-Xudri, Allah ondan razı olsun, ona demişdir: "Mən sənin qoyunları və çölü sevdiyini görürəm, elə isə qoyunlarının yanında və ya çöldə olarkən namaz üçün azan verdikdə, səsini ucaldaraq nida et, çünki,

«لَا يَسْمَعُ مَدَى صَوْتِ المُؤَذِّنِ، جِنٌّ وَلَا إِنسٌ وَلَا شَيْءٌ، إِلَّا شَهِدَ لَهُ يَوْمَ الْقِيَامَةِ»

- müəzzinin səsini eşidən cin, insan və ya hər hansı bir şey, Qiyamət günü onun lehinə şahidlik edəcəkdir". Əbu Səid belə demişdir: Mən bunu Allah rəsulundan, sallallahu aleyhi və səlləm, eşitdim[1].

Əgər insanlar azanın fəzilətini həqiqi mənada bilsəydilər, hansının azan verəcəyini müəyyənləşdirmək üçün öz aralarında püşk atardılar. Əbu Hureyrə - Allah ondan razı olsun - rəvayət edir ki, Allahın rəsulu, sallallahu aleyhi və səlləm, demişdir:

«لَوْ يَعْلَمُ النَّاسُ مَا فِي النِّدَاءِ -أيِ: الأَذَانِ- وَالصَّفِّ الأَوَّلِ، ثُمَّ لَمْ يَجِدُوا إِلَّا أَنْ يَسْتَهِمُوا عَلَيْهِ لَاسْتَهَمُوا»

«Əgər insanlar azan (verməyin) və birinci səfdə (durmağın nə qədər xeyirli və bərəkətli) olduğunu bilsəydilər və (buna nail olmaq üçün) püşk atmaqdan başqa bir yol tapmasaydılar, püşk atardılar».[2].

[1] Hədisi Buxari: (609) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (615) və Müslim: (437) rəvayət etmişdir.

Müəzzinin səsinin çatdığı yerə qədər günahları bağışlanar, səsini eşidən hər bir yaş və quru şey onun lehinə şahidlik edər və onunla birlikdə namaz qılanların savabı qədər ona da savab yazılar. Çünki xeyrə səbəb olan, onu etmiş kimidir. Bəra bin Azib - Allah ondan razı olsun - rəvayət edir ki, Allahın peyğəmbəri, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«إِنَّ اللَّهَ وَمَلائِكَتَهُ يُصَلُّونَ عَلَى الصَّفِّ المُقَدَّمِ، وَالمُؤَذِّنُ يُغْفَرُ لَهُ مَدُّ صَوْتِهِ، وَيُصَدِّقُهُ مَنْ سَمِعَهُ مِن رَطْبٍ وَيَابِسٍ، وَلَهُ مِثْلُ أَجْرِ مَن صَلَّى مَعَهُ»

«Doğrudan da, Allah və Onun mələkləri birinci səffə xeyir-dua verirlər. Müəzzinin səsinin ucalığı qədər günahları bağışlanar. Onu eşidən hər bir yaş və quru onu təsdiq edər və onunla birlikdə namaz qılanların savabı qədər ona da savab yazılar».[1].

Azan, İslamın ən əzəmətli şüarlarından biridir. O, küfr diyarı ilə İslam diyarı arasındakı fərqdir. Belə ki, əl-Buxari öz "Səhih" əsərində "Azan vasitəsilə qanların qorunması babı" adlı bir bab gətirmiş, sonra da Ənəs bin Malikin ,Allah ondan razı olsun, hədisini rəvayət etmişdir: "Peyğəmbər, sallallahu əleyhi va səlləm, bizimlə birgə bir qövmə qarşı yürüşə gedərkən, səhər açılana qədər gözləyərdi. Əgər azan səsi eşidərdisə, onlardan əl çəkərdi, yox

[1] Hədisi Əhməd: (18506) və Nəsai: (646) rəvayət etmişdir. Munziri "ət-Tərğib vat-Tərhib" (1/176) adlı əsərində isnadının "həsəni-ceyyid" olduğunu bildirmişdir. İbnul-Muləqqin "əl-Bədrul-Munir" (3/385) adlı əsərində bu isnadın "ceyyid" olduğunu bildirmişdir.

əgər eşitməzdisə, onlara hücum edərdi"[1]. İmam əl-Xəttabi belə demişdir: "Bu, azanın İslam dininin bir şüarı və tərk edilməsi caiz olmayan vacib bir əmr olduğunu bəyan edir. Əgər bir məmləkət əhli azanı tərk etməkdə ittifaq edib ondan imtina etsə, sultan onlarla buna görə vuruşmalıdır"[2].

## Dördüncü bölmə: Azan və iqamənin səhihlik şərtləri

1- İslam: Kafirin azan və iqamə verməsi səhih deyildir. Çünki hər ikisi ibadətdir və ibadət kafirdən qəbul olunmaz.

2- Ağıllı olmaq: Başqa ibadətlərdə olduğu kimi, azan və iqaməni də, dəlinin, sərxoşun və yaxşını pisdən ayıra bilməyən uşağın verməsi səhih deyildir.

3- Niyyət etmək: Bu iki əməl niyyətsiz səhih deyil. Çünki bunlar ibadətdir, ibadət isə yalnız niyyətlə səhih olur. Allahın rəsulu, sallallahu əleyhi va səlləm, buyurmuşdur:

«إِنَّمَا الأَعْمَالُ بِالنِّيَّاتِ، وَإِنَّمَا لِكُلِّ امْرِئٍ مَا نَوَى»

«Əməllər niyyətlərə görədir. Hər kəsə yalnız niyyət etdiyi şey vardır».[3].

4- Kişi olmaq: Qadının azan və iqamə verməsi səhih deyildir.

---

[1] Hədisi Buxari: (610) və Müslim: (382) rəvayət etmişdir.
[2] "Əlamul-Hədis Şərh Səhih əl-Buxari" (1/460).
[3] Hədisi Buxari: (1) və Müslim: (1907) Ömər bin Xəttabdan, Allah ondan razı olsun, rəvayət etmişdir.

5- Azan namazın girdiyi vaxtda vermək: Vaxtı girməzdən əvvəl verilən azan səhih deyildir. Çünki Malik bin əl-Huveyris, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«... فَإِذَا حَضَرَتِ الصَّلَاةُ فَلْيُؤَذِّنْ لَكُمْ أَحَدُكُمْ، وَلْيَؤُمَّكُمْ أَكْبَرُكُمْ»

«...Namaz vaxtı yetişdiyi zaman, qoy sizdən biriniz azan versin və ən yaşlı olanınız sizə namaz qıldırsın».[1] Beləliklə, azan namazın vaxtının girməsinə bağlanmışdır, hansı ki, namazın vaxtı da yalnız daxil olduqdan sonra olur, iqamə isə namaz qılmaq üçün ayağa qalxdıqda verilir.

6- Azan və iqamə tərtiblə verilməlidir: Tərtibdən məqsəd, müəzzinin azan və iqamənin sözlərini, onların verilmə qaydasını bəyan edən şəri mətnlərə uyğun olaraq, heç bir kəlmə və ya cümləni digərindən əvvələ keçirmədən və ya sonraya saxlamadan deməsidir. Çünki azan bu tərtib üzrə sabit olmuş bir ibadətdir və varid olduğu kimi də icra edilməlidir. Peyğəmbərin, sallallahu aleyhi və səlləm, bu sözünə əsasən:

«مَنْ أَحْدَثَ فِي أَمْرِنَا هَذَا مَا لَيْسَ فِيهِ، فَهُوَ رَدٌّ»

«Kim bizim bu işimizdə (dinimizdə) onda olmayan bir yenilik edərsə o, rədd olunar».[2].

---

1 Hədisi Buxari: (628) və Müslim: (674) rəvayət etmişdir.

2 Hədisi Buxari: (2697) və Müslim: (1718) Aişədən, Allah ondan razı olsun, rəvayət etmişdir.

7- Azan və iqamə ardıcıllıqla verilməlidir. Burada məqsəd: Azanın sözləri arasında hər hansı bir söz və ya hərəkətlə fasilə verilməməsi və hissələrinin bir-birindən uzun müddət ayrılmamasıdır.

8- Azan və iqamə, ərəb dilində və sünnədə varid olan sözlər ilə, mənanı təhrif edən xətalara yol vermədən verilməlidir.

9- Azanı yüksək səslə oxumaq. Çünki müəzzin səsini yalnız özü eşidəcək dərəcədə alçaltsa, azanın buyurulmasındakı məqsəd hasil olmaz. Peyğəmbərin, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«فَلْيُؤَذِّنْ لَكُمْ أَحَدُكُمْ»

«İçinizdən biri sizin üçün azan versin».[1] Bu, səsi başqalarına eşitdirmək üçün yüksəltməyə işarədir ki, bununla da azanı elan etmək məqsədi hasil olur. Əgər insan özü üçün və ya yanında olan kimsə üçün azan verərsə, səsi yüksəltmək şərt deyil. Lakin səsini özünə və ya yanındakı adama eşitdirəcək qədər yüksəldər. Amma səsini bundan daha çox qaldırarsa, daha əfzəl olar. Çünki Əbu Səid əl-Xudri - Allah ondan razı olsun - rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

---

[1] Hədisin qaynağı əvvəldə qeyd edilmişdir.

«.. فَإِذَا كُنتَ فِي غَنَمِكَ أَوْ بَادِيَتِكَ فَأَذَّنْتَ فَارْفَعْ صَوْتَكَ بِالنِّدَاءِ؛ فَإِنَّهُ لَا يَسْمَعُ مَدَّى صَوْتِ الْمُؤَذِّنِ جِنٌّ وَلَا إِنْسٌ وَلَا شَيْءٌ إِلَّا شَهِدَ لَهُ يَوْمَ الْقِيَامَةِ»

«... Qoyunlarının arasında və ya çöldə olub azan verdikdə səsini ucalt, çünki müəzzinin səsini eşidən hər bir cin, insan və ya hər hansı bir şey Qiyamət günü onun lehinə şəhadət verəcəkdir».[1].

## Beşinci bölmə: Müəzzində tələb olunan sifətlər

1- Ədaləti və dində sabitliyi ilə tanınan biri olmalıdır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«الإِمَامُ ضَامِنٌ، وَالمُؤَذِّنُ مُؤْتَمَنٌ، اللَّهُمَّ أَرْشِدِ الأَئِمَّةَ، وَاغْفِرْ لِلْمُؤَذِّنِينَ»

«İmam zamindir, müəzzin isə əmanətdardır. Allahım! İmamları doğru yola yönəlt və müəzzinləri bağışla!»[2] Müəzzin namaz və oruc vaxtları üçün əmin şəxsdir və bu əmanəti yalnız adil insan yerinə yetirə bilər. Buna görə də müəzzin fasiq, günahını aşkar edən və ya mənliyi alçalmış biri olmamalıdır.

2- Həddi-büluğa çatmış olmalıdır. Çünki həddi-büluğa çatanın azanı daha kamildir. Yaxşını pisdən ayıra bilən uşaq azanı vaxtında verərsə, azanı səhihdir. Belə bir halda onun azanı ilə kifayətlənmək olar. Çünki bununla namaz vaxtının daxil olduğu bildirilmiş olur.

---

[1] Hədisin qaynağı əvvəldə qeyd edilmişdir.
[2] Əbu Davud: (517), Tirmizi: (207) rəvayət etmişdir.

3- Müəzzin, azanı vaxtında vermək üçün namazın girən vaxtlarını bilməlidir. Əgər namazın girmə vaxtlarını bilməsə, vaxtından tez və ya gec azan verərək xəta edə bilər.

4- Səsi gur olmalıdır. Çünki Abdullah bin Zeyd - Allah ondan razı olsun - azan yuxusu barədəki hədisində peyğəmbər, sallallahu aleyhi və səlləm, ona belə demişdir:

«إِنَّ هَذِهِ لَرُؤْيَا حَقٍّ، فَقُمْ مَعَ بِلَالٍ فَإِنَّهُ أَنْدَى وَأَمَدُّ صَوْتًا مِنْكَ، فَأَلْقِ عَلَيْهِ مَا قِيلَ لَكَ، وَلْيُنَادِ بِذَلِكَ»

«Bu, şübhəsiz ki, haqq bir yuxudur. Bilalla birlikdə qalx, çünki onun səsi sənin səsindən daha gurdur və daha ucadır. Sənə deyilənləri ona təlqin et və qoy o, bu sözlərlə nida etsin».[1] Hədisdə qeyd edilən sözün mənası:

«وَأَمَدُّ صَوْتًا مِنْكَ»

«Çünki onun səsi sənin səsindən daha gurdur və daha ucadır». Yəni: Onun səsi səninkindən daha uca və daha güclüdür. Bu da onu göstərir ki, uca və gur səsli müəzzin seçmək müstəhəbdir. Çünki uca səsli müəzzin azanı daha yaxşı çatdırır[2].

5- Gözəl səsə malik olmalıdır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, yuxarıda qeyd edilən Abdullah bin Zeydin, radiyallahu anhu, rəvayət etdiyi hədisdə belə demişdir:

---

1 Hədisi Tirmizi: (189) rəvayət etmiş və bu hədisin: "Həsən-səhih hədis" olduğunu demişdir.

2 Bax: Tuhfət əl-Əhvəzi: (1/481).

«فَإِنَّهُ أَنْدَى وَأَمَدُّ صَوْتًا مِنْكَ»

«Çünki onun səsi sənin səsindən daha gurdur və daha ucadır». Yəni: Səsi ən gözəl və ən şirin olan.

6- Kiçik və böyük hədəsdən təmiz olmalıdır. Çünki azan və iqamə Uca Allahın zikridir və zikr edən şəxsin də dəstəmazlı olması müstəhəbdir.

7- Azanı ayaq üstə vermək. Çünki peyğəmbər, sallallahu əleyhi va səlləm, belə buyurmuşdur:

«يَا بِلَالُ قُمْ، فَنَادِ بِالصَّلَاةِ»

«Ey Bilal! Qalx, namaz üçün azan ver».[1] İbn Munzir demişdir: "Alimlər müəzzinin ayaq üstə azan verməsinin sünnədən olduğuna dair icma etmişlər"[2].

8- Müəzzin qibləyə yönəlmiş halda azan verməlidir. Çünki Abdullah bin Zeydin - Allah ondan razı olsun - azanın yuxuda görülməsi haqqındakı hədisinin bir rəvayətində belə deyilir: «Qibləyə üz tutub (اللهُ أَكْبَرُ اللهُ أَكْبَرُ. . .) [Allahu Əkbər, Allahu Əkbər...] "Allah ən böyükdür, Allah ən böyükdür...» – dedi.[3]. İbn Munzir demişdir: "Alimlər müəzzinin azan verərkən qibləyə yönəlmiş halda verməsinin sünnədən olduğuna dair icma etmişlər"[4].

---

[1] Hədisi Buxari: (604) və Müslim: (377) İbn Ömərdən, Allah ondan və atasından razı olsun, rəvayət etmişdir.

[2] İbnul-Munzir, "əl-İcma" əsəri, (səh: 38).

[3] Hədisi Əbu Davud: (507) rəvayət etmişdir.

[4] İbnul-Munzirin "əl-İcma" əsəri, (səh: 38).

9 - İki şəhadət barmağını qulaqlarına qoymaq. Çünki Bu, Bilalın, Allah ondan razı olsun, peyğəmbərin, sallallahu aleyhi və səlləm, hüzurunda azan oxuyarkən etdiyi əməl olmuşdur. Əbu Cuheyfə, Allah ondan razı olsun, rəvayət edir ki: "Mən Bilalın barmaqlarını qulaqlarına qoyub dönərək və üzünü gah o tərəfə, gah da bu tərəfə çevirərək azan verdiyini gördüm. Rəsulullah, sallallahu aleyhi və səlləm, isə qırmızı çadırında idi..."[1].

İmam Tirmizi bu hədisi rəvayət etdikdən sonra demişdir: "Elm əhli də buna əsasən əməl edir. Müəzzinin azan vaxtı iki barmağını qulaqlarına daxil etməsi müstəhəbdir".

İbn Şubrumədən müəzzinə nə üçün barmaqlarını qulaqlarına qoymasının əmr edildiyi barədə soruşulduqda, o belə cavab verdi: "Səsin daha uca çıxması üçün..."[2].

İmam ən-Nəvəvi - Allah ona rəhmət etsin - demişdir: "Sünnə, iki barmağı qulaq dəliklərinə salmaqdır və bu, ittifaq edilmiş bir məsələdir. Bunu əl-Məhamili “əl-Məcmu” əsərində alimlərin əksəriyyətindən nəql etmişdir. Əshabımız demişdir: “Bunun başqa bir faydası da vardır. Ola

[1] Tirmizi rəvayət etmişdir: (197) və belə demişdir: "Həsən səhih hədisdir". Hədisin əsli isə Səhih əl-Buxaridə: (634) bu ləfzlə rəvayət olunmuşdur: Aun bin Əbu Cuheyfə atasından rəvayət edir ki, o, Bilalı azan verərkən görmüş və azanda ağzını o tərəfə bu tərəfə çevirməsini izləmişdir.

[2] "əl-Əvsat" (4/11).

bilər ki, kimsə eşitmə zəifliyi, uzaqlıq və ya başqa səbəbdən müəzzinin səsini eşitməsin. Bu halda müəzzinin barmaqlarını qulaqlarına qoyması onun azan oxuduğunu bilməsi üçün kifayətdir”[1].

10- Hər iki dəfə "Həyyə alə-s-saləh" dedikdə sağ tərəfə, hər iki dəfə "Həyyə alə-l-fələh" dedikdə isə sol tərəfə dönməlidir. Bu zaman ayaqları yerində sabit qalmalıdır. Buna dəlil, Əbu Cuhəyfənin Bilalın, Allah hər ikisindən razı olsun, peyğəmbərin, sallallahu aleyhi və səlləm, hüzurunda verdiyi azan barədə rəvayət etdiyi hədisdir. O, belə demişdir:

«فَجَعَلْتُ أَتَتَبَّعُ فَاهُ، هَاهُنَا وَهَاهُنَا، يَقُولُ: يَمِينًا وَشِمَالًا: حَيَّ عَلَى الصَّلَاةِ، حَيَّ عَلَى الفَلَاحِ»؛

"Mən onun ağzını gah bu tərəfə, gah o tərəfə izləməyə başladım, o, sağa və sola dönərək: "Həyyə alə-s-saləh" (Namaza tələsin!), "Həyyə alə-l-fələh" (Nicat tapmağa tələsin!) deyirdi"[2]. Çünki bu, məsciddən uzaqda olanlara azan səsini daha yaxşı eşitdirir.

11- Azanı, səsi həddindən artıq uzatmadan, aram-aram verməlidir. Çünki azan məsciddə olmayanları agah etmək üçün olduğundan, onu bu şəkildə vermək daha təsirlidir. İqaməni isə tələsərək verməlidir. Çünki o, (məsciddə) hazır

---

[1] Şərh əl-Mühəzzəb: (3/113).

[2] Hədisi Buxari: (634) və Müslim: (503) rəvayət etmişdir. Hədisin ləfzi Müslimə aiddir.

olanları agah etmək üçündür və buna görə də onu tələsərək vermək daha münasibdir[1].

12- Azan, şəriətdə buyurulduğu kimi, təbii və xətasız, süni və asan bir səslə, mahnı tərzinə salınmadan və məqsədindən kənara çıxaracaq şəkildə uzadılmadan, müəzzin tərəfindən şəri şərtlərinə və ədəblərinə riayət edilərək öz səsi ilə verilməlidir.

## Altıncı bölmə: Azan və iqamənin verilmə qaydası

Peyğəmbərin, sallallahu aleyhi və səlləm, sünnəsində azan və iqamənin bir neçə verilmə qaydası varid olmuşdur. Bunlardan biri də Abdullah bin Zeydin - Allah ondan razı olsun - rəvayət etdiyi hədisdir. Həmin hədisdə azanın sözləri belədir:

Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər.

Şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur.

Şəhadət verirəm ki, Muhəmməd Allahın elçisidir. Şəhadət verirəm ki, Muhəmməd Allahın elçisidir.

Namaza tələsin! Namaza tələsin!

Nicat tapmağa tələsin! Nicat tapmağa tələsin!

Allahu Əkbər, Allahu Əkbər.

---

[1] Bax: İbn Qudamə, əl-Muğni, (1/295).

Allah-dan başqa ibadətə layiq haqq məbud yoxdur.

İqamənin sözləri:

Allahu Əkbər, Allahu Əkbər.

Şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur.

Şəhadət verirəm ki, Muhəmməd Allahın elçisidir.

Namaza tələsin! Nicat tapmağa tələsin!

Namaz başlandı. Namaz başlandı.

Allahu Əkbər, Allahu Əkbər.

Allah-dan başqa ibadətə layiq haqq məbud yoxdur.[1]

Bu, Bilalın, Allah ondan razı olsun, peyğəmbərlə, sallallahu aleyhi və səlləm, birgə, O vəfat edənə qədər, istər səfərdə, istərsə də yerli olanda davamlı olaraq verdiyi azan və iqamənin verilmə qaydasıdır.

Fəcir namazının azanında: «حَيَّ عَلَى الْفَلَاحِ» [Hayyə alə-l-fələhi] "Nicat tapmağa tələsin!" dedikdən sonra iki dəfə: «الصَّلَاةُ خَيْرٌ مِنَ النَّوْمِ» [əs-Salətu xayrun minə-n-nəum] "Namaz yuxudan daha xeyirlidir" – deyilir. Çünki Əbu Məhzurə, Allah ondan razı olsun, rəvayət etmişdir ki, Allahın rəsulu, sallallahu əleyhi va səlləm, ona belə demişdir:

«فَإِنْ كَانَتْ صَلَاةُ الصُّبْحِ قُلتَ: الصَّلَاةُ خَيْرٌ مِّنَ النَّوْمِ، الصَّلَاةُ خَيْرٌ مِّنَ النَّوْمِ»

---

[1] Əbu Davud: (499), Tirmizi isə müxtəsər olaraq: (189) rəvayət etmiş və belə demişdir: "Abdullah bin Zeydin hədisi həsən-səhih hədisdir".

«Sübh namazında isə: "əs-Salətu xayrun minə-n-nəum, əs-Salətu xayrun minə-n-nəum" – deyərsən».[1].

Azanın başqa bir verilmə qaydası da vardır ki, bu da "ət-tərci"-dir, yəni təkrarlamaqdır. Belə ki, iki şəhadət kəlimətini əvvəlcə alçaq səslə deyir, sonra isə səsini ucaldaraq onları təkrar edir. İqamədə isə kəlimələri iki dəfə deyir. Bu qayda Əbu Məhzurun - Allah ondan razı olsun - hədisində varid olmuşdur. Belə ki, o demişdir: "Peyğəmbər, sallallahu aleyhi və səlləm, özü mənə azan verməyi öyrədərək dedi:

«قُلْ: اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ، اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ، أَشْهَدُ أَنْ لَا إِلٰهَ إِلَّا اللَّهُ، أَشْهَدُ أَنْ لَا إِلٰهَ إِلَّا اللَّهُ، أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ - مَرَّتَيْنِ مَرَّتَيْنِ - قَالَ: ثُمَّ ارْجِعْ، فَمُدَّ صَوْتَكَ: أَشْهَدُ أَنْ لَا إِلٰهَ إِلَّا اللَّهُ، أَشْهَدُ أَنْ لَا إِلٰهَ إِلَّا اللَّهُ، أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، حَيَّ عَلَى الصَّلَاةِ، حَيَّ عَلَى الصَّلَاةِ، حَيَّ عَلَى الفَلَاحِ، حَيَّ عَلَى الفَلَاحِ، اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ، لَا إِلٰهَ إِلَّا اللَّهُ».

«De: Allahu Əkbər, Allahu Əkdər, Allahu Əkbər, Allahu Əkbər, Əşhədu əllə İləhə illəlallah, Əşhədu əllə İləhə illəlallah, Əşhədu ənnə Muhamməndən rəsulullah, Əşhədu ənnə Muhamməndən rəsulullah". Dedi: Sonra təkrar uca səslə de: Əşhədu əllə İləhə illəlallah, Əşhədu əllə İləhə illəlallah, Əşhədu ənnə Muhamməndən rəsulullah, Əşhədu ənnə Muhamməndən rəsulullah, Həyyə alə-s-saləh, Həyyə alə-s-saləh, Həyyə alə-l-fələh, Həyyə alə-l-fələh, Allahu Əkbər, Allahu Əkbər, Lə İləhə illəllah».

[1] Hədisi Əbu Davud: (500) rəvayət etmişdir. Nəvəvi "Xülasətul-Əhkam" (1/286) əsərində hədisi həsən saymışdır.

«وَالإِقَامَةُ: اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ، اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ، أَشْهَدُ أَنْ لَا إِلٰهَ إِلَّا اللَّهُ، أَشْهَدُ أَنْ لَا إِلٰهَ إِلَّا اللَّهُ، أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، حَيَّ عَلَى الصَّلَاةِ، حَيَّ عَلَى الصَّلَاةِ، حَيَّ عَلَى الفَلَاحِ، حَيَّ عَلَى الفَلَاحِ، قَدْ قَامَتِ الصَّلَاةُ، قَدْ قَامَتِ الصَّلَاةُ، اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ، لَا إِلٰهَ إِلَّا اللَّهُ»

«İqamə isə belədir: Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər, Əşhədu əllə İləhə illəlallah, Əşhədu əllə İləhə illəlallah, Əşhədu ənnə Muhamməldən rəsulullah, Əşhədu ənnə Muhamməldən rəsulullah, Həyyə alə-s-saləh, Həyyə alə-s-saləh, Həyyə alə-l-fələh, Həyyə alə-l-fələh, Qad qaməti-s-salətu, Qad qaməti-s-saləh, Allahu Əkbər, Allahu Əkbər, Lə İləhə illəllah».

[1].

Bu, növlü ixtilafındandır. Müəzzin bu sabit olmuş qaydalardan hansı ilə əməl etsə, gözəldir. Şeyxul-İslam İbn Teymiyyə, Allah ona rəhmət etsin, azanın sabit olmuş bəzi formalarını zikr etdikdən sonra demişdir: "Belə olduğu təqdirdə, doğru olan Əhli-Hədisin və onlarla həmfikir olanların yoludur ki, onlar peyğəmbərdən, sallallahu aleyhi və səlləm, bu barədə sabit olan heç bir şeyi məkruh hesab etmirlər, əksinə onu icazəli görürlər. Çünki azanın və iqamənin formalarının müxtəlifliyi, qiraətlərin, təşəhhüdlərin və bu kimi digər məsələlərin müxtəlifliyi kimidir. Heç kəsin Allah rəsulunun,

[1] Hədisi Əbu Davud: (502, 503) rəvayət etmişdir.

sallallahu aleyhi və səlləm, öz ümməti üçün sünnə etdiyi bir şeyi məkruh görməyə haqqı yoxdur".[1].

## Yeddinci bölmə: Azan səsini eşidənin deyəcəyi söz və azandan sonra deyilən dua.

Azanı eşidən insanın, müəzzinin dediyin sözləri eyni ilə təkrarlaması müstəhəbdir. Əbu Said əl-Xudri - Allah ondan razı olsun - rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

«إِذَا سَمِعْتُمْ النِّدَاءَ فَقُولُوا مِثْلَ مَا يَقُولُ الْمُؤَذِّنُ»

«Azanı eşitdikdə sizdə müəzzinin dediklərini təkrar edin».[2]. Yalnız müəzzinin dediyi: "Həyyə alə-s-saləh, Həyyə alə-l-fələh" kəlmələri istisnadır. Azanı dinləyən insanın bunların hər birindən sonra bunu deməsi müstəhəbdir:

«لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ»

«Qüdrət və güc yalnız Allahdadır». Ömər bin Xəttab, Allah ondan razı olsun, rəvayət edir ki, Allahın rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«إِذَا قَالَ الْمُؤَذِّنُ: اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ ، فَقَالَ أَحَدُكُمْ: اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ ، ثُمَّ قَالَ: أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ، قَالَ: أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ، ثُمَّ قَالَ: أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، قَالَ: أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، ثُمَّ قَالَ: حَيَّ عَلَى الصَّلَاةِ، قَالَ: لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ، ثُمَّ قَالَ: حَيَّ عَلَى الفَلَاحِ، قَالَ: لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ، ثُمَّ قَالَ: اللَّهُ أَكْبَرُ

---

[1] Məcmuə əl-Fətavə: (22/66).

[2] Hədisi Buxari: (611) və Müslim: (383) rəvayət etmişdir.

اللَّهُ أَكْبَرُ، قَالَ: اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ، ثُمَّ قَالَ: لَا إِلَهَ إِلَّا اللَّهُ، قَالَ: لَا إِلَهَ إِلَّا اللَّهُ مِنْ قَلْبِهِ، دَخَلَ الْجَنَّةَ»

«Müəzzin: "Allahu Əkbər, Allahu Əkbər" dediyi zaman sizlərdən biri: "Allahu Əkbər, Allahu Əkbər" desə, sonra: "Əşhədu əllə iləhə illəllah" dediyi zaman: "Əşhədu əllə iləhə illəllah" desə, sonra: "Əşhədu ənnə Muhammədən rasulullah" dediyi zaman: "Əşhədu ənnə Muhammədən rasulullah" desə, sonra: "Həyyə aləs-saləh!" dediyi zaman: "Lə həulə va lə quvvətə illə billəh" desə, sonra: "Həyyə aləl-fələh!" dediyi zaman: "Lə həulə va lə quvvətə illə billəh" desə, sonra: "Allahu Əkbər, Allahu Əkbər" dediyi zaman: "Allahu Əkbər, Allahu Əkbər" desə və sonra da: "Lə İləhə illəllah" dediyi zaman qəlbdən: "Lə İləhə illəllah" desə Cənnətə girər».[1].

İki şəhadət kəlməsindən sonra belə deyir: "Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Allahın Rəbb, Muhəmmədin rəsul və İslamın din olmasından razı qaldım".

Səd bin Əbu Vəqqas, Allah ondan razı olsun. rəvayət edir ki, Allahın rəsulu, sallallahu aleyhi va səlləm, belə demişdir:

«مَنْ قَالَ حِينَ يَسْمَعُ الْمُؤَذِّنَ: أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ، رَضِيتُ بِاللَّهِ رَبًّا، وَبِمُحَمَّدٍ رَسُولًا، وَبِالْإِسْلَامِ دِينًا؛ غُفِرَ لَهُ ذَنْبُهُ».

[1] Hədisi Müslim: (385) rəvayət etmişdir.

«Kim müəzzini eşitdikdə, "Əşhədu əllə iləhə illallah vəhdəhu lə şərikə ləhu və ənnə Muhəmmədən əbduhu və rasuluhu, radiytu billəhi Rabbən va bi Muhəmmədin rasulən va bil-İsləmi dinən" (Şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. O, təkdir və şəriki yoxdur. Muhəmməd Onun qulu və elçisidir. Mən Rəbb olaraq Allahdan, rəsul olaraq Muhəmməddən, din olaraq İslamdan razıyam) deyərsə, onun günahları bağışlanar»[1].

Əgər müəzzin sübh namazının azanında: "əs-Salətu xayrun minə-n-nəum" (Namaz yuxudan daha yaxşıdır) desə, bu zaman azanı dinləyən kimsə də onun dediyi kimi deməlidir. Çünki peyğəmbər, sallallahu əleyhi va səlləm, belə buyurmuşdur:

«إِذَا سَمِعْتُمُ النِّدَاءَ فَقُولُوا مِثْلَ مَا يَقُولُ الْمُؤَذِّنُ»

«Azanı eşitdikdə sizdə müəzzinin dediklərini təkrar edin».[2].

Sonra peyğəmbərə, sallallahu aleyhi və səlləm, salavat gətirir və sonra hədisdə qeyd edildiyi kimi peyğəmbərdən, sallallahu aleyhi və səlləm, rəvayət olunanları deyir:

«مَنْ قَالَ حِينَ يَسْمَعُ النِّدَاءَ: اللَّهُمَّ رَبَّ هَذِهِ الدَّعْوَةِ التَّامَّةِ، وَالصَّلَاةِ الْقَائِمَةِ، آتِ مُحَمَّدًا الْوَسِيلَةَ وَالْفَضِيلَةَ، وَابْعَثْهُ مَقَامًا مَحْمُودًا الَّذِي وَعَدْتَهُ، حَلَّتْ لَهُ شَفَاعَتِي يَوْمَ الْقِيَامَةِ»

[1] Hədisi Müslim: (386) rəvayət etmişdir.
[2] Hədisi Buxari və Müslim rəvayət etmişdir.

«Kim azanı eşitdiyi zaman: [Allahummə Rabbə həzihid-də'vətit-təmməti vəs-salətil-qaiməti, əti Muhəmmədənil-vəsilətə vəl-fədilətə, vəb'əshu məqa-mən məhmudənil-ləzi və'ədtəhu]: "Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver. Onu vəd etdiyin təriflənən mə-qama çatdır" – deyərək dua edərsə, Qiyamət günü mənim şəfaətimə nail olar».[1] Hədisin mənası:

«الدَّعْوَةِ التَّامَّة»

«Kamil dəvət» - Yəni: Azanın dəvəti tam və kamildir. Çünki o, Allahı uca tutmağı, Onu təkləşdirməyi, rəsulluğa şəhadət gətirməyi və xeyrə çağırışı ehtiva edir.

«وَالصَّلَاةِ القَائِمَة»

«Qılınacaq namazın» - Yəni: İcra ediləcək və yerinə yetiriləcək.

«الوَسِيلَة»

«Vəsilə» - Cənnətdəki dərəcə.

«الفَضِيلَة»

«Fəzilət» - Heç kəsin ona şərik olmadığı uca məqam.

«مَقَامًا مَحْمُودًا»

«Tərifəlayiq məqam» - Tərifəlayiq məqam: İnsanların tərif etdiyi hər bir məqamdır. Məhşər əhlinin arasında hökm verilməsi üçün bütün

[1] Hədisi Buxari: (614) Cabirdən, Allah ondan razı olsun, rəvayət etmişdir.

məxluqata edilən böyük şəfaət də bu məqamlardandır.

Abdullah bin Amr bin Asdan, Allah onların ikisindən də razı olsun, rəvayət edildiyinə görə o, peyğəmbərin, sallallahu aleyhi və səlləm, belə dediyini eşitmişdir:

«إِذَا سَمِعْتُمُ الْمُؤَذِّنَ، فَقُولُوا مِثْلَ مَا يَقُولُ، ثُمَّ صَلُّوا عَلَيَّ؛ فَإِنَّهُ مَن صَلَّى عَلَيَّ صَلَاةً صَلَّى اللَّهُ عَلَيْهِ بِهَا عَشْرًا، ثُمَّ سَلُوا اللَّهَ لِيَ الْوَسِيلَةَ، فَإِنَّهَا مَنزِلَةٌ فِي الْجَنَّةِ، لَا تَنبَغِي إِلَّا لِعَبْدٍ مِنْ عِبَادِ اللَّهِ، وَأَرْجُو أَنْ أَكُونَ أَنَا هُوَ، فَمَن سَأَلَ لِيَ الْوَسِيلَةَ، حَلَّتْ لَهُ الشَّفَاعَةُ»

«Müəzzini eşitdiyinizdə, siz də onun söylədiklərini təkrar edin. Sonra mənə salavat gətirin. Kim mənə bir salavat gətirirsə, Allah da bunun qarşılığında ona on salavat edər. Sonra da Allahdan mənim üçün ''vəsiləni'' istəyin. O, Cənnətdə elə bir dərəcədir ki, Allahın qullarından yalnız bir quluna yaraşır. Ümid edirəm ki, o qul, mənəm. Kim mənim üçün ''vəsiləni'' istəyərsə şəfaət ona halal olar».[1].

Azanda sonradan meydana çıxmış bidətlərdən biri isə: Müəzzin azandan sonra ucadan peyğəmbərə, Allahın salavatı və salamı onun üzərinə olsun, salat və salam gətirməsi. Eləcə də, azandan sonra varid olan (اللهم رب هذه الدعوة التامة . . .) [Allahummə Rabbə həzihi-ddə'uəti-ttəmməti] - zikrini camaat şəklində etmək. Bu duanı edərkən əlləri qaldırmaq. Müəzzinin sözlərini təkrarlayan şəxsin, son cümləyə: "haqqən" və ya "əbədən"

[1] Hədisi Müslim: (384) rəvayət etmişdir.

kəlməsini əlavə edərək "Haqqən lə iləhə illəllah" və ya "Əbədən lə iləhə illəllah" deməsi. Çünki buna dair heç bir dəlili yoxdur.

## Səkkizinci bölmə: Azandan sonra məsciddən çıxmağın hökmü

Kişinin azandan sonra namazı qılmadan məsciddən çıxması haramdır. Lakin üzrü varsa və ya məscidə qayıtmaq niyyətindədirsə, bunda bir günah yoxdur. Rəvayət edilir ki, Əbu əş-Şəsa demişdir: "Biz Əbu Hureyrə ilə birlikdə məsciddə oturmuşduq. Müəzzin azan verdi və məsciddən bir kişi qalxıb getməyə başladı. Əbu Hureyrə o, məsciddən çıxana qədər onu gözü ilə izlədi və dedi: “Bu şəxsə gəlincə, o, Əbəl-Qasimə, sallallahu aleyhi va səlləm, asi oldu”[1].

İmam Tirmizi bu hədisi öz "Sünən" əsərində rəvayət etdikdən sonra demişdir: "Peyğəmbərin, sallallahu aleyhi və səlləm, səhabələrindən və onlardan sonra gələn elm əhlinin əməli də bu cür olmuşdur: dəstəmazsız olmaq və ya zəruri bir iş kimi üzrlü bir səbəb olmadıqca, azandan sonra heç kim məsciddən çıxmasın"[2].

---

1 Hədisi Müslim: (655) rəvayət etmişdir.
2 Tirmizinin "Sünən" kitabı: (1/397), nömrə (204).

## Doqquzuncu bölmə: Azan və iqamə arasında nə qədər vaxt var?

Sünnədə azan və iqamə arasında kifayət qədər vaxtın olduğuna dəlalət edən rəvayətlər varid olmuşdur. Belə ki, Abdullah bin Muğaffəldən, Allah ondan razı olsun, rəvayət edilir ki, o, dedi: peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurdu:

«بَيْنَ كُلِّ أَذَانَيْنِ صَلَاةٌ، بَيْنَ كُلِّ أَذَانَيْنِ صَلَاةٌ»، ثُمَّ قَالَ فِي الثَّالِثَةِ: «لِمَنْ شَاءَ»

«Hər iki azan (azan və iqamə) arasında namaz vardır, hər iki azan arasında namaz vardır. Sonra üçüncü dəfədə əlavə etdi: "İstəyən üçün"».[1] "İki azan" dedikdə azan və iqamə nəzərdə tutulur. Belə ki, müəzzin azanı ilə iqaməsi arasında vaxt saxlayır ki, hazır olanlar namazdan əvvəl iki rükət qılmağa imkan tapsınlar və məscid əhli gəlib namaza çatsınlar.

İmam Əhməd demişdir: "Müəzzin azan verdikdən sonra iqaməyə tələsməməli, məscid əhlinin gəlməsi və ehtiyacı olanın (ayaqyoluna getmək istəyənin) ehtiyacını ödəməsi üçün azanı ilə iqaməsi arasında bir qədər fasilə qoymalıdır"[2].

---

[1] Hədisi Buxari: (627) və Müslim: (838) rəvayət etmişdir.
[2] İbn Teymiyyə, Şərh Ümdətul-Fiqh, Namaz kitabı: (səh: 135).

## Onuncu bölmə: Müəzzinin məsuliyyəti və ədəbləri

Müəzzin azan verərkən bununla yalnız Uca Allahın Pak Üzünü (razılığını) istəməlidir. Osman bin Əbil As - Allah ondan razı olsun - belə rəvayət etmişdir:

«إِنَّ مِنْ آخِرِ مَا عَهِدَ إِلَيَّ رَسُولُ اللَّهِ ﷺ أَنْ اتَّخِذْ مُؤَذِّنًا لَا يَأْخُذُ عَلَى أَذَانِهِ أَجْرًا».

«Rəsulu-Llahın, sallallahu əleyhi va səlləm, mənə son tapşırıqlarından biri, azanına görə əcr almayan bir müəzzin təyin etməyim idi»[1].

İmam Tirmizi, rahiməhullah, bu hədisi rəvayət etdikdən sonra demişdir: "Elm əhli müəzzinin azana görə qarşılıq almasını bəyənməmiş, azanına görə savabını Allahdan ummasını isə müstəhəb görmüşdür".

Müəzzinə beytulmaldan (müsəlman dövlət büdcəsindən) mal verilməsində heç bir qəbahət yoxdur. Çünki beytulmal məhz müsəlmanların faydası üçün qurulmuşdur. Azan və iqamə də onların faydası üçün olan işlərdəndir[2].

Müəzzin bilməlidir ki, beş vaxt namazın azanını vaxtında vermək onun üzərinə düşən bir məsuliyyətdir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«الإِمَامُ ضَامِنٌ، وَالمُؤَذِّنُ مُؤْتَمَنٌ»

---

1 Hədisi Tirmizi: (209) rəvayət etmiş və hədisə "həsən" hökmü vermişdir.
2 Bax: "əl-Əzan vəl-İqamə" əl-Qəhtani, (səh: 19).

«İmam zamindir, müəzzin isə əmanətçidir».[1] Yəni: O, namaz vaxtları üçün etibar edilən bir şəxsdir. O, azan vaxtından kifayət qədər əvvəl məscidə dəstəmazlı halda gəlməli və üzrlü səbəb istisna olmaqla azandan yayınmamalıdır. Bu halda isə azan vermək üçün öz yerinə birini təyin etməlidir.

Müəzzin aşağıdakı məsələlərə diqqət etməlidir:

(1) Məscidin təmizliyinə, xidmətinə və qorunmasına qayğı göstərmək. Bu işdə məscid işçiləri və məscid camaatı ilə əməkdaşlıq etmək. Çünki Uca Allah Öz evlərini abadlaşdıranları tərifləyərək buyurmuşdur:

﴿إِنَّمَا يَعۡمُرُ مَسَٰجِدَ ٱللَّهِ مَنۡ ءَامَنَ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ وَأَقَامَ ٱلصَّلَوٰةَ وَءَاتَى ٱلزَّكَوٰةَ وَلَمۡ يَخۡشَ إِلَّا ٱللَّهَۖ فَعَسَىٰٓ أُوْلَٰٓئِكَ أَن يَكُونُواْ مِنَ ٱلۡمُهۡتَدِينَ18﴾

"Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar. Ola bilsin ki, onlar doğru yolu tapanlardan olsunlar". (Tövbə 9 surəsi, ayə 18). İstər (məscidlərin) tikilməsi, qorunub saxlanılması və təmizliyi ilə, istərsə də orada namaz qılmaq və Allahı zikr etməklə olsun, hər iki məna "abadlaşdırma" kəlməsi ilə qəsd edilir[2].

(2) Düzgün əqidəni, azanın, təharətin və namazın əhkanlarını öyrənməsi. Allahın Kitabından

[1] Əbu Davud: (517), Tirmizi: (207) Əbu Hureyrədən, Allah ondan razı olsun, rəvayət etmişdir.
[2] Bax: İbn Həcər, Fəthul-Bari: (1/541).

yetəri qədər əzbər bilməsi və imam namazda olmadıqda onu əvəz etməyə bacarığı olması.

(3) Yaxşılığı əmr edib pislikdən çəkindirməsi. Uca Allaha hikmət və gözəl öyüd-nəsihətlə dəvət etməsi. İnsanlara qarşı mülayim olması. Onların əziyyətlərinə səbr etməsi və bu işdə məscid imamı ilə əməkdaşlıq etməsi.

(4) Məscidi yalnız elmə, ibadətə və namaz qılanlara fayda verən şeylərə həsr etməli. Onlara dinlərində və dünyalarında zərər verən hər bir şeydən isə uzaq tutmalıdır.

(5) Məscid əhli ilə ünsiyyətdə olmaq və yardımlaşmaq. Məscid əhlindən kimsə gəlmədikdə onlardan hal-əhval tutmaq. Xəstələrini ziyarət etmək. Cənazə namazlarını qılmaq və cənazələrini müşayiət etmək. Müsibətlərdə və çətin anlarda onların yanında olmaq.

## İkinci fəsil: İmamlığın əhkamları

### Birinci bölmə: İmamlığın tərifi

Namazda imam durmaq: Namaz qılanlardan birinin önə keçərək, digərlərinin namazda ona tabe olmasıdır. Namazda imam isə, camaatın namazda özünə tabe olduğu (yəni, iqtida etdiyi) şəxsdir[1].

[1] Bax: "Haşiyə ər-Raud əl-Murbi": (2/296), "əl-İmamə fi əs-Salah" əl-Qəhtani (səh: 6).

## İkinci bölmə: İmamlığın məşruiyyəti və fəziləti

Namazda imamlıq — necə ki, bu, irəlidə izah ediləcəkdir — elm, düzgün qiraət, ədalət və digər fəzilətli xüsusiyyətlərə sahib olan xeyirli insanların yerinə yetirdiyi ən xeyirli əməllərdəndir. Camaat namazı onsuz təsəvvür edilməz və o, İslam dininin ən əzəmətli şüarlarından biridir[1].

## İmamlığın fəzilətlərindən:

1- İmamlığın fəziləti məşhurdur. Bu vəzifəni peyğəmbər, sallallahu aleyhi və səlləm, özü, onun raşidi xəlifələri, eləcə də daima elm və əməl baxımından müsəlmanların ən fəzilətliləri yerinə yetirmişlər[2].

2- Namazda imam durmaq fəzilətli bir şəri vəzifədir və bu vəzifəni fəzilət sahibləri öz üzərinə götürür. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«يَؤُمُّ الْقَوْمَ أَقْرَؤُهُمْ لِكِتَابِ اللَّهِ ...»

«İnsanlara, Allahın Kitabını ən çox bilən insan imam durmalıdır...».[3] Məlumdur ki, (Quranı) ən yaxşı oxuyan daha fəzilətlidir. Buna yanaşı qeyd edilməsi də onun fəzilətinə dəlalət edir[4].

---

[1] Bax: əl-Məvsuə əl-Fiqhiyyə əl-Kuveytiyyə: (6/201).
[2] Bax: əl-Qəhtaninin "əl-İmamə fi əs-Salə" kitabına, (səh: 9).
[3] Hədisi Əbu Məsud əl-Ənsaridən, Allah ondan razı olsun, Müslim: (673) rəvayət etmişdir.
[4] Bax: "əş-Şərh əl-Mumti alə Zad əl-Mustəqni": (2/41).

3- Peyğəmbərin, səllallahu aleyhi va səlləm, rəhbərlərin doğru yola yönəlmələri üçün dua etməsi. Əbu Hureyrədən, Allah ondan razı olsun, rəvayət olunur ki, Allahın elçisi, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«الإِمَامُ ضَامِنٌ، وَالمُؤَذِّنُ مُؤْتَمَنٌ، اللَّهُمَّ أَرْشِدِ الأَئِمَّةَ، وَاغْفِرْ لِلْمُؤَذِّنِينَ»

«İmam zamindir, müəzzin isə əmanətçidir. Allahım! İmamları doğru yola yönəlt və müəzzinləri bağışla!»[1].

Hədisin mənası: «İmam zamindir» - Yəni: Arxada namaz qılanların namazı imamın namazına bağlı olduğu üçün, onların namazının səhihliyinə cavabdehdir. Mənası isə: «Allahummə ərşidil-əimmə» (Allahım, imamlrı irşad et) Yəni: Onları doğru yola yönəlt ki, namazı ən kamil şəkildə yerinə yetirsinlər[2].

## Üçüncü bölmə: İmam durmağa daha çox kimin haqqı çatır

Peyğəmbər, sallallahu aleyhi və səlləm, kimin imam durmağa daha çox haqqı çatdığını və laiq olduğunu bildirmişdir. Peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

«يَؤُمُ القَوْمَ أَقْرَؤُهُمْ لِكِتَابِ اللَّهِ، فَإِنْ كَانُوا فِي القِرَاءَةِ سَوَاءً، فَأَعْلَمُهُمْ بِالسُّنَّةِ، فَإِنْ كَانُوا فِي السُّنَّةِ سَوَاءً، فَأَقْدَمُهُمْ هِجْرَةً، فَإِنْ كَانُوا فِي الهِجْرَةِ سَوَاءً، فَأَقْدَمُهُمْ سِلْمًا - وَفِي رِوَايَةٍ: سِنًّا - وَلَا يَؤُمَّنَّ الرَّجُلُ الرَّجُلَ فِي سُلْطَانِهِ»

---

1 Əbu Davud: (517), Tirmizi: (207) rəvayət etmişdir.

2 Bax: Əyninin Şərh Əbi Davud: (2/468) və Munəvinin "Feyd əl-Qədir" (3/182) adlı əsərlərinə.

«İnsanlara, Allahın Kitabını ən çox bilən insan imam durmalıdır. Əgər onlar Allahın Kitabında eynidirlərsə, onlardan ən çox Sünnəni bilən imam durmalıdır. Əgər Sünnəni bilməkdə eynidirlərsə, onlardan ən birinci hicrət edən imam durmalıdır. Əgər hicrətdə də eynidirlərsə, bu zaman onlardan ən birinci İslamı qəbul edən" – başqa bir rəvayətdə: "yaşca ən böyük olan – imam durmalıdır. Heç kəs başqasının səlahiyyəti altında olan yerdə ona imam durmasın».[1] İnsanlara imamlıq etməyə ən layiqli və ən haqlı olanlar aşağıdakı tərtiblədir:

1- Quranı ən çox əzbər bilən. Ən düzgün, gözəl oxuyan və namazın əhkamlarını bilən. Əgər Quranı daha çox bilən ilə Quranı ondan az bilib, lakin namazın əhkamlarını ondan daha yaxşı bilən, iki imam arasında seçim etməli olsaq, bu zaman namazın əhkamlarını daha yaxşı bilən, Quranı çox bilib namazın əhkamlarını ondan az biləndən imam durmağa daha layiqdir. Çünki namaz zamanı Quranı gözəl oxuyandan çox, namazın əhkamlarını daha yaxşı bilənə böyük ehtiyac duyulur.

2- Sonra Sünnəni daha çox bilən. Əgər Quran oxumaqda eyni səviyyəli olan, lakin Sünnəni bilməkdə biri digərindən daha yaxşı olan iki imam arasında seçim etməli olsaq, peyğəmbərin, sallallahu aleyhi və səlləm, sözünə əsasən, bu

[1] Hədisi Müslim: (673) rəvayət etmişdir.

zaman Sünnəni daha yaxşı bilən, insanlara imamlıq etməlidir:

«فَإِنْ كَانُوا فِي الْقِرَاءَةِ سَوَاءً، فَأَعْلَمُهُمْ بِالسُّنَّةِ»

«Əgər onlar Allahın Kitabında eynidirlərsə, onlardan ən çox Sünnəni bilən imam durmalıdır».

3- Əgər onlar Quranda və Sünnəni bilməkdə eynidirlərsə, bu zaman küfr diyarından İslam diyarına ən birinci hicrət edən imam durmalıdır. Şünki peyğəmbər, sallallahu əleyhi va səlləm, buyurmuşdur:

« فَإِنْ كَانُوا فِي السُّنَّةِ سَوَاءً، فَأَقْدَمُهُمْ هِجْرَةً»

«Əgər Sünnəni bilməkdə eynidirlərsə, onlardan ən birinci hicrət edən imam durmalıdır».

4- Sonra, əgər hicrətdə eynidirlərsə, İslamı birinci qəbul edən. Peyğəmbərin, sallallahu əleyhi va səlləm, öncəki hədisdəki sözünə görə:

«فَإِنْ كَانُوا فِي الهِجْرَةِ سَوَاءً، فَأَقْدَمُهُمْ سِلْمًا»

«Əgər hicrətdə də eynidirlərsə, bu zaman onlardan ən birinci İslamı qəbul edən imam durmalıdır». Yəni: İslama gələn.

5- Sonra yaşda böyük olan. Əgər əvvəlki məsələlərin hamısında bərabər olsalar. Şünki peyğəmbər, sallallahu aleyhi və səlləm, əvvəlki hədisin rəvayətlərinin birində belə demişdir:

«فَأَقْدَمُهُم سِنًّا»

«Yaşca ən böyük olan». Rəvayət edilir ki, Malik bin Huveyris - Allah ondan razı olsun - demişdir:

«فَلْيُؤَذِّنْ لَكُمْ أَحَدُكُمْ، وَلْيَؤُمَّكُمْ أَكْبَرُكُمْ»

«Sizdən biriniz azan versin və aranızda böyük olan sizə imamlıq etsin».[1].

Peyğəmbərin, sallallahu aleyhi və səlləm, bu hədisdə yaşca böyük olanı önə çəkməsinin səbəbi, onların elmdə bir-birinə yaxın olmaları idi.

Əgər bütün yuxarıda qeyd olunanlarda bərabər olsalar və hər biri imam olmaq istədiyi üçün mübahisə etsələr, onların arasında püşk atılar və püşk kimin üçün çıxarsa, o önə keçirilir. Çünki onlar haqq sahibi olmaqda bərabər olduqları və onları cəm etmək mümkün olmadığı üçün digər hüquqlarda olduğu kimi aralarında püşk atılır.

Ev sahibi qonağından, eləcə də ölkə rəhbəri başqalarından imam durmağa daha haqlıdır. Bu şərtlə ki, onların hər ikisi imamlığa layiq olsun. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«لَا يَؤُمَّنَّ الرَّجُلُ الرَّجُلَ فِي أَهْلِهِ وَلَا فِي سُلْطَانِهِ»

«Bir kişi, başqa bir kişiyə nə onun evində və nə də hökmranlıq etdiyi yerdə imamlıq etməsin».

Əvvəlki hədisin ümumi mənasına əsasən, məscidin daimi imamının da imamlığa başqalarından daha çox haqqı çatır - yalnız ölkə rəhbəri istisnadır - hətta başqası Quranı ondan daha gözəl oxusa və daha elmli olsa belə.

[1] Hədisi Buxari: (628) və Müslim: (674) rəvayət etmişdir.

İbn Ömərin - Allah onların hər ikisindən razı olsun - bir məsciddə namaz qılan bir mövlası (azad etmiş köləsi) var idi. İbn Ömər (məscidə) gəldikdə mövlası onu irəli keçirdi, İbn Ömər də ona dedi: "Sən öz məscidində imam durmağa daha haqlısan"[1].

Çünki başqasını ondan önə keçirməkdə, onun haqqına girmək və könlünü qırmaq vardır.

"Təmyiz" yaşına çatan uşağın başqalarına imamlıq etməsi barədə ixtilaf edilmiş, bəzi alimlər Amr ibn Səlimənin, Allah ondan razı olsun, hədisinə əsasən buna icazə vermişlər.

«أَنَّهُ أَمَّ قَوْمَهُ فِي عَهْدِ النَّبِيِّ ﷺ وَهُوَ ابْنُ سِتٍّ أَوْ سَبْعِ سِنِينَ».

«O, peyğəmbərin, sallallahu aleyhi və səlləm, dövründə, altı və ya yeddi yaşında olarkən öz qövmünə imamlıq etmişdir»[2].

Nafilə namazı qılanın fərz namazı qılana imamlığı səhihdir. Buna dəlil Muaz bin Cəbəlin, Allah ondan razı olsun, rəvayətidir.

«أَنَّهُ كَانَ يُصَلِّي مَعَ النَّبِيِّ ﷺ العِشَاءَ، ثُمَّ يَرْجِعُ فَيُصَلِّي بِقَوْمِهِ تِلْكَ الصَّلَاةَ».

«O, peyğəmbər, sallallahu aleyhi va səlləm, ilə birgə işa namazını qılardı, sonra isə qayıdıb həmin namazı öz qövmünə qıldırardı»[3].

---

1 Hədisi Şafii "əl-Umm" (1/185), Əbdür-Rəzzaq "əl-Musənnəf" (2/399) və Beyhəqi (3/126, 5531) rəvayət etmişdir. Nəvəvi "əl-Xulasə" (2/701) əsərində isnadının həsən və ya səhih olduğunu bildirmişdir. Albani isə "İrvaul-Ğəlil" (2/302) əsərində isnadının həsən olduğunu bildirmişdir.

2 Hədisi Buxari: (4302) rəvayət etmişdir.

3 Hədisi Buxari: (701) və Müslim: (465) rəvayət etmişdir.

## Dördüncü bölmə: Kimin imam durması haramdır:

Aşağıda qeyd edilən insanların imam durması haramdır:

1- Qadının kişiyə imamlıq etməsi. Peyğəmbərin, sallallahu aleyhi və səlləm, ümumi sözünə görə:

«لَنْ يُفْلِحَ قَوْمٌ وَلَّوْا أَمْرَهُمْ امْرَأَةً»

«Başçılığı qadına həvalə edən qövm, heç vaxt nicat tapmaz».[1] İmamlıq başçılığın bir növüdür və Sünnədə gəldiyi kimi əsil, qadının axırıncı səflərdə dayanmasıdır. Belə ki, Əbu Hureyrə, radiya-Llahu anhu, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«خَيْرُ صُفُوفِ الرِّجَالِ أَوَّلُهَا، وَشَرُّهَا آخِرُهَا، وَخَيْرُ صُفُوفِ النِّسَاءِ آخِرُهَا، وَشَرُّهَا أَوَّلُهَا»

«Kişilər üçün səflərin ən xeyirlisi birincisi, ən pisi sonuncusudur. Qadınlar üçün isə səflərin ən xeyirlisi sonuncusu, ən pisi isə birincisidir».[2] Bu, onun qorunması və gözə çarpmaması üçündür. Əgər o, imamlıq üçün önə çəkilsə, bu, həmin şəriətin qoyduğu əslə müxaliflik olar. Elm əhli bu məsələdə icma etmişdir. İmam İbn Həzm, rahiməhu-Llah, buyurur: "İttifaq etmişlər ki, qadın, onun qadın olduğunu bildikləri halda kişilərə

---

[1] Hədisi Buxari: (4425) Əbu Bəkrətədən, Allah ondan razı olsun, rəvayət etmişdir.
[2] Hədisi Müslim: (440) rəvayət etmişdir.

imamlıq etməz. Əgər belə edərlərsə, onların namazı icma ilə batildir".[1].

2- Hədəs vəziyyətində (yəni, qüslsuz və dəstəmazsız) və üzərində murdar bir şey olan birinin, bunu bilərək insanlara imamlıq etməsi. Əgər arxada duranlar, onlara imamlıq edənin dəstəmazının olmamasını və onun üzərində murdar bir şeyin olmasını namaz bitdikdən sonra bilsələr, onların namazı səhihdir. Çünki bu barədə Ömər bin Xəttabdan, Allah ondan razı olsun, rəvayət edilmişdir.

«أَنَّهُ صَلَّى بِالنَّاسِ وَهُوَ جُنُبٌ، فَأَعَادَ، وَلَمْ يَأْمُرْهُمْ أَنْ يُعِيدُوا».

«O (Ömər bin Xəttab) cunub olduğu halda insanlara namaz qıldırdı, sonra namazını yenidən qıldı, lakin onlara namazlarını yenidən qılmağı əmr etmədi»[2].

Abdurrahman bin Mehdi - rahiməhullah - demişdir: "Bu, barəsində icma olan məsələdir. Cünub olan (namazı) yenidən qılır, arxada namaz qılanlar isə yenidən qılmırlar. Bu barədə bir ixtilaf bilmirəm"[3].

3- Fatihə surəsini əzbər bilməyən yaxud onu düzgün oxuya bilməyən yaxud da Uca Allahın bu sözündə “hə” hərfini “ra” hərfinə idğam etdiyi kimi,

---

[1] Məratib əl-İcma: (səh. 27).
[2] Hədisi Əd-Daraqutni "Sünən" (1371) əsərində rəvayət etmişdir.
[3] Sünən Daraqutni: (2/188).

idğam edilməyən hərfləri idğam edən kimsənin imamlıq etməsi:

﴿ٱلْحَمْدُ لِلَّهِ رَبِّ ٱلْعَٰلَمِينَ2﴾

"Əl-həmdu li-Lləhi rabbil-'aləmin":

"Həmd, aləmlərin Rəbbi olan Allaha məxsusdur!" (Fatihə 1 surəsi, ayə 2). Çünki o, hərfi oxşarı və ya yaxını olmayan bir hərfə idğam edir yaxud da bir hərfi başqa bir hərflə əvəz edir. Məsələn: “ra” hərfini “ya” ilə əvəz etdiyi kimi yaxud da mənanı dəyişəcək tərzdə səhv oxuyur. Belə bir kimsənin imamlığı yalnız özü kimisi üçün səhihdir. Çünki o, namazın rüknünü icra etməkdə acizdir və ya ona xələl gətirir.

4- Etdiyi bidətə görə dindən çıxan bidətçinin imamlıq etməsi. Çünki Uca Allah buyurur:

﴿أَفَمَن كَانَ مُؤْمِنًا كَمَن كَانَ فَاسِقًاۚ لَّا يَسْتَوُۥنَ18﴾

"Məgər möminlə fasiq eyni ola bilərmi? Eyni ola bilməzlər!". (Səcdə 32 surəsi, ayə 18). Burada fasiq, ayələrin məzmunundan da aydın olduğu kimi, kafirdir.

5- Daimi imamı olan məsciddə, imamın icazəsi yaxud onun gecikməsi və vaxtın daralması halları istisna olmaqla, başqa birinin ondan qabaq imam durması haramdır[1].

---

[1] Bax: Səlmanın "əl-Əsilə və əl-Əcvibə əl-Fiqhiyyə": (1/163).

## Beşinci bölmə: Kimlərin imam durması məkruhdur

Aşağıda qeyd edilən insanların imam durması məkruhdur:

1- Quran oxuyan zaman, istər Fatihə surəsində, istərsə də digər surələrdə, mənanı dəyişməyən çoxlu xətalara yol verən kimsənin namazı səhih olsa da, imamlıq etməsi bəyənilmir. Məsələn: (əl-Həmdu li-Lləh) kəlməsindəki dal hərfini (əl-Həmdə li-Lləh) fəthə ilə oxumaq kimi. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«يَؤُمُّ الْقَوْمَ أَقْرَؤُهُمْ لِكِتَابِ اللَّهِ»

«İnsanlara, Allahın Kitabını ən çox bilən insan imam durmalıdır».[1].

Fatihədən başqa surələrdə mənanı dəyişəcək bir xətaya səhvən, bilməyərəkdən və ya dilindəki bir qüsura görə yol verilərsə, imamlıq etməsi bəyənilməsə də, səhih sayılar. Çünki o, Fatihədən başqa surəni oxumasa da yaxud onda xəta etsə də, imamlığı səhihdir. Lakin bunu qəsdən edərsə, namazı batil olar. Çünki o, namazı ilə oynamış sayılar.

2- Bəzi hərfləri, məsələn: "fə", "tə" və ya digər hərfləri təkrar edən kəs. Buna səbəb onun, Quran qiraətinə hərf əlavə etməsidir.

3- Fasiq və bidətinə görə kafir olmayan bidətçi[2].

---

1 Hədisin qaynağı daha əvvəl qeyd edilmişdir.
2 Bax: Kəşşaf əl-Qina: (1/475) və davamı.

4- Böyük əksəriyyətinin haqlı olaraq istəmədiyi bir qövmə imamlıq etmək. Əbu Umamədən, Allah ondan razı olsun, Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə dediyi rəvayət edilir:

«ثَلاثَةٌ لَا تُجَاوِزُ صَلَاتُهُمْ آذَانَهُمْ: العَبْدُ الآبِقُ حَتَّى يَرْجِعَ، وَامْرَأَةٌ بَاتَتْ وَزَوْجُهَا عَلَيْهَا سَاخِطٌ، وَإِمَامُ قَوْمٍ وَهُمْ لَهُ كَارِهُونَ»

«Üç nəfər var ki, onların namazı qulaqlarından yuxarı qalxmaz: geri dönənə qədər ağasından qaçan qul, əri ondan narazı halda gecələyən qadın və camaatının ondan narazı olduğu imam».[1].

İmam Tirmizi demişdir: "Elm əhlindən bəziləri bir kimsənin, onu istəməyən bir camaata imam durmasını məkruh hesab etmişlər. Əgər imam zalım deyilsə, günah yalnız onu istəməyən şəxsin üzərinədir. Əhməd və İshaq bu barədə demişlər: "Əgər bir, iki və ya üç nəfər (imamı) istəmirsə, onun onlara imam durmasında bir qəbahət yoxdur, ta ki, camaatın əksəriyyəti onu istəməyənə qədər"[2].

Əgər camaat imamı, namazda sünnəyə riayət etməyə çalışdığına, sünnədə buyurulan surələri oxuduğuna və namazı təmkinlə qıldırdığına görə bəyənməzsə, onun imamlığı məkruh sayılmaz. Çünki onlar haqsız yerə onu bəyənmirlər və onların bu narazılığının heç bir əhəmiyyəti yoxdur. İmama

---

[1] Hədisi Tirmizi: (360) rəvayət etmiş və hədisə bu sənəd silsiləsi ilə "həsən-gərib" hökmü vermişdir.
[2] Sunən ət-Tirmizi: (2/192).

yaraşan budur ki, haqsız yerə onu bəyənməyən kimsələrə moizə etsin, öyüd-nəsihət versin və onların qəlblərini islah etməyə çalışsın. Namazı da sünnədə buyurulduğu kimi qıldırsın. Əgər Allah onun niyyətində onların qəlblərini birləşdirmək səmimiliyini görərsə, Allah bu işi onun üçün asanlaşdırar[1].

## Altıncı bölmə: Namazda imamın məmumlara (camaata) nisbətdə durduğu yer

Əgər imamın arxasında dayananlar iki və ya daha çoxdursa, bu zaman imamın onların qarşısında durması sünnədir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, namaz qılmağa qalxdıqda qabağa keçərdi və səhabələr də onun arxasında dayanardılar və bu da sabit olmuşdur.

«أَنَّ جَابِرًا وَجَبَّارًا رَضِيَ اللَّهُ عَنْهُما وَقَفَ أَحَدُهُمَا عَنْ يَمِينِهِ ﷺ وَهُوَ يُصَلِّي وَالآخَرُ عَنْ يَسَارِهِ، فَأَخَذَ بِأَيْدِيهِمَا حَتَّى أَقَامَهُمَا خَلْفَهُ».

«Cabir və Cabbar, Allah onların hər ikisindən razı olsun, peyğəmbər, sallallahu aleyhi və səlləm, namaz qılarkən biri onun sağında, digəri isə solunda dayandıqda, peyğəmbər, sallallahu aleyhi və səlləm, onların hər ikisinin əlindən tutub öz arxasında durdurdu»[2].

Əgər imamla qılan bir nəfərdirsə, imamın sağ tərəfində, onunla çiyin-çiyinə dayanmalıdır. İbn

[1] Bax: əş-Şərh əl-Mumti əla Zadul-Mustəqni: (4/253).
[2] Muslim rəvayət etmişdir: (3010) Cabirdən, Allah ondan razı olsun, rəvayət edilən uzun bir hədisin tərkibində.

Abbasın, Allah ondan və atasından razı olsun, sözünə görə:

«قَامَ رَسُولُ اللَّهِ ﷺ يُصَلِّي، فَقُمْتُ عَنْ يَسَارِهِ، فَأَخَذَ بِأُذُنِي فَأَدَارَنِي عَنْ يَمِينِهِ».

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, namaz qılırdı, mən də gəlib onun sol tərəfində durdum. O, qulağımdan tutaraq məni öz sağ tərəfinə keçirdi»[1].

Qadınlar kişilərin səflərinin arxasında dururlar. Çünki Ənəs - Allah ondan razı olsun - rəvayət edir ki,

«صَفَفْتُ أَنَا وَالْيَتِيمُ وَرَاءَ النَّبِيِّ ﷺ، وَالْعَجُوزُ مِنْ وَرَائِنَا».

«Mən və yetim peyğəmbərin, sallallahu aleyhi və səlləm, arxasında, yaşlı qadın isə bizim arxamızda səf tutduq» (75).[2]

İmamın səffin ortasında dayanmalıdır. Alləmə İbn Baz - rahiməhullah - demişdir: "Sünnə, imamın məscidlərdə ortada durmasıdır. Bu, müsəlmanların davamlı olaraq əməl etdikləri əməli sünnədir"[3].

Həmçinin - rahiməhullah - demişdir: "Səff imamın arxasından, ona yaxın olan yerdən, ortadan başlayır. Hər bir səffin sağ tərəfi sol tərəfindən daha əfzəldir və vacibdir ki, əvvəlki səff tamamlanmayınca yeni bir səffə başlanılmasın".

---

1 Hədisi Buxari: (6316) və Müslim: (763) rəvayət etmişdir.
2 Hədisi Buxari: (380) və Müslim: (658) rəvayət etmişdir.
3 Bunu Şeyx Səid əl-Qəhtani, rəhiməhullah, ondan "əl-İmamətu fis-Saləh" (səh: 55) əsərində nəql etmişdir.

## Yeddinci bölmə: Namazda imamı qabaqlamaq

İmamın arxasında namaz qılan şəxsin namazın hərəkətlərinə imamdan sonra başlaması və hərəkətlərində ona tabe olması vacibdir. İmama tabe olan şəxs, tabe olduğu imamı nə qabaqlamalı, nə də onunla eyni anda hərəkət etməlidir. Əksinə, onun hərəkətlərini izləməli və ondan dərhal sonra həmin hərəkəti etməlidir. Bu da o deməkdir ki, heç bir halda ona müxalif olmamalıdır. Çünki Əbu Hureyrədən - Allah ondan razı olsun - rəvayət olunur ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə demişdir:

«إِنَّمَا جُعِلَ الإِمَامُ لِيُؤْتَمَّ بِهِ، فَلَا تَخْتَلِفُوا عَلَيْهِ، فَإِذَا رَكَعَ، فَارْكَعُوا، وَإِذَا قَالَ: سَمِعَ اللَّهُ لِمَنْ حَمِدَهُ، فَقُولُوا: رَبَّنَا لَكَ الحَمْدُ، وَإِذَا سَجَدَ فَاسْجُدُوا، وَإِذَا صَلَّى جَالِسًا، فَصَلُّوا جُلُوسًا أَجْمَعُونَ، وَأَقِيمُوا الصَّفَّ فِي الصَّلَاةِ؛ فَإِنَّ إِقَامَةَ الصَّفِّ مِنْ حُسْنِ الصَّلَاةِ»

«İmam, ona tabe olmaq üçün təyin edilmişdir, ona müxalif olmayın. O, rükuya getdiyi zaman siz də rükuya gedin. O: "səmi-Allahu limən həmidəh" dediyi zaman, siz: "Rabbənə ləkəl-həmd" deyin. O, səcdəyə getdiyi zaman siz də səcdəyə gedin. O, oturaraq namaz qılarsa, hamınız birlikdə oturaraq namaz qılın. Namazda səffi düz tutun, çünki səffin düz olması namazın gözəlliyindəndir».[1].

Namazın bütün rüknlərində imamı qabaqlamaq haramdır. Ənəs bin Məlik, Allah ondan razı olsun,

[1] Hədisi Buxari: (722) və Müslim: (417) rəvayət etmişdir.

rəvayət edir ki, bir gün Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, bizə namaz qıldırdı. Namazı bitirdikdən sonra üzünü bizə tərəf çevirib buyurdu:

«أَيُّهَا النَّاسُ، إِنِّي إِمَامُكُمْ، فَلَا تَسْبِقُونِي بِالرُّكُوعِ وَلَا بِالسُّجُودِ، وَلَا بِالقِيَامِ وَلَا بِالانْصِرَافِ؛ فَإِنِّي أَرَاكُمْ أَمَامِي وَمِنْ خَلْفِي»

«Ey insanlar! Mən sizin imamınızam. Rüku, səcdə, qiyam və namazdan çıxmaqla məni qabaqlamayın. Həqiqətən, mən sizi önümdən də, arxamdan da görürəm».[1] Əbu Hureyrə, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«أَمَا يَخْشَىٰ أَحَدُكُمْ إِذَا رَفَعَ رَأْسَهُ قَبْلَ الإِمَامِ، أَنْ يَجْعَلَ اللَّهُ رَأْسَهُ رَأْسَ حِمَارٍ، أَوْ يَجْعَلَ اللَّهُ صُورَتَهُ صُورَةَ حِمَارٍ»

«Sizdən kimsə qorxmurmu ki, başını imamdan öncə qaldırmaqla Allah onun başını uzunqulaq başı edər, yada ki, Allah onun xarici görkəmini uzunqulaq görkəmində çevirər».[2].

Kim imamdan qabaq Təkbirətu-l-ehram deyərsə, namazı sayılmaz. Çünki Təkbirətu-l-ehramı imamdan sonra demək şərtdir, o isə bu halda onu əldən verdi.

---

[1] Hədisi Müslim: (426) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (691) və Müslim: (427) rəvayət etmişdir.

## Səkkizinci bölmə: İmam və camaat namazı barədə müxtəlif hökmlər

İmam və camaat namazı ilə bağlı irəlidə qeyd olunmayan bəzi hökmlər:

1- Müdrik və aqil insanların namazda imama yaxın durması: Namazda imamın arxasında ağıllı, hörmətli və həddi-buluğa çatmış insanlar durmalıdır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«لِيَلِنِي مِنْكُمْ أُولُوا الأَحْلَامِ وَالنُّهَى، ثُمَّ الَّذِينَ يَلُونَهُمْ، ثُمَّ الَّذِينَ يَلُونَهُمْ»

«Namazda müdrik və aqil insanlar mənə daha yaxın dayansınlar, sonra onların ardınca gələnlər, sonra da onların ardınca gələnlər dayansınlar».[1].

2- Namazı birinci səfdə qılmağa həris olmaq: İmama tabe olanların birinci səfə keçməyə və orada durmağa həris olmaları, habelə arxada qalmaqdan çəkinmələri müstəhəbdir. Çünki Əbu Səid əl-Xudri - Allah ondan razı olsun - rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, səhabələrinin arxada qaldığını görüb onlara belə buyurdu:

«تَقَدَّمُوا فَأْتَمُّوا بِي، وَلْيَأْتَمَّ بِكُمْ مَن بَعْدَكُمْ، لَا يَزَالُ قَوْمٌ يَتَأَخَّرُونَ حَتَّى يُؤَخِّرَهُمُ اللَّهُ»

[1] Hədisi Müslim: (432) Abdullah bin Məsuddan, Allah ondan razı olsun, rəvayət etmişdir.

«İrəli keçin və mənə tabe olun. Sizdən sonrakılar da sizə tabe olsunlar. Bir qövm geri qalmaqda davam edər, nəhayət Allah da onları geri salar».

[1] Əbu Hureyradan, Allah ondan razı olsun, rəvayət edildiyinə görə Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«لَوْ يَعْلَمُ النَّاسُ مَا فِي النِّدَاءِ وَالصَّفِّ الأَوَّلِ، ثُمَّ لَمْ يَجِدُوا إِلَّا أَنْ يَسْتَهِمُوا عَلَيْهِ لَاسْتَهَمُوا»

«Əgər insanlar azan (verməyin) və (namazda) birinci səfdə (durmağın nə qədər xeyirli və bərəkətli) olduğunu bilsəydilər və (buna nail olmaq üçün) püşk atmaqdan başqa bir yol tapmasaydılar, püşk atardılar».[2] Hədisin mənası:

«لَاسْتَهَمُوا عَلَيْهِ»

«Onun uğrunda püşk atardılar». Yəni: Hansının birinci səfdə durması üçün aralarında püşk atardılar.

Qadınların isə ən arxa səflərdə dayanmaları müstəhəbdir. Çünki Əbu Hureyrə - Allah ondan razı olsun - rəvayət edir ki, Allah rəsulu, sallallahu aleyhi və səlləm, belə demişdir:

«خَيْرُ صُفُوفِ الرِّجَالِ أَوَّلُهَا، وَشَرُّهَا آخِرُهَا، وَخَيْرُ صُفُوفِ النِّسَاءِ آخِرُهَا، وَشَرُّهَا أَوَّلُهَا»

«Kişilər üçün səflərin ən xeyirlisi birincisi, ən pisi sonuncusudur. Qadınlar üçün isə səflərin ən

---

[1] Hədisi Müslim: (438) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (615) və Müslim: (437) rəvayət etmişdir.

xeyirlisi sonuncusu, ən pisi isə birincisidir».[1] Bu, qadınların kişilərin arxasında arakəsmə olmadan namaz qıldıqları hala aiddir. Əgər onlar kişilərdən örtülü bir namazgahda namaz qılırlarsa, o zaman əvvəlcə birinci, sonra isə növbəti səfləri tamamlayırlar[2].

3- İmam Fatihə surəsini oxuyarkən tələsməməli, arxasında duran kimsənin də oxuya bilməsi üçün aramla oxumalıdır[3].

4- Səfin arxasında tək namaz qılanın namazı səhih deyil. Çünki Vabisə ibn Məbəd, Allah ondan razı olsun, rəvayət edir ki, bir kişi səffin arxasında tək namaz qıldı və peyğəmbər, sallallahu aleyhi və səlləm, ona namazını yenidən qılmağı əmr etdi[4].

## Doqquzuncu bölmə: İmamın etməsi sünnə olan əməllər

İmamın, imamlıqda peyğəmbərin, sallallahu aleyhi və səlləm, sünnəsinə tabe olması gərəkdir. Bu sünnələrdən bəziləri bunlardır:

1- Namazı yüngül qıldırması və insanların halına riayət etməsi. Yəni: İmam namazı tələsmədən qıldırmalıdır. İmamın namazı elə sürətlə qıldırması caiz deyildir ki, arxasındakı camaat namazın

---

1 Hədisi Müslim: (440) rəvayət etmişdir.

2 Bax: "Məcmu' Fətava İbn Baz": (12/196).

3 Bax: Saleh Ali əş-Şeyxin, "əl-Minzar fi bəyani kəsirin min əl-əxtai əş-şaiə", (səh: 53).

4 Hədisi Tirmizi: (230) rəvayət etmiş və Vabisənin hədisinə "həsən" hökmü vermişdir.

rüknlərini və vaciblərini yerinə yetirə bilməsin. Həmçinin, qiraətini də aramla etməlidir ki, arxasında namaz qılanlar namazlarını tamamlaya bilsinlər. Əbu Məsud əl-Ənsaridən rəvayət edildiyinə görə bir kişi belə demişdir:

وَاللَّهِ يَا رَسُولَ اللَّهِ، إِنِّي لَأَتَأَخَّرُ عَنْ صَلَاةِ الغَدَاةِ -يَعْنِي: صَلَاةَ الصُّبْحِ- مِنْ أَجْلِ فُلَانٍ مِمَّا يُطِيلُ بِنَا، فَمَا رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ فِي مَوْعِظَةٍ أَشَدَّ غَضَبًا مِنْهُ يَوْمَئِذٍ، ثُمَّ قَالَ: «إِنَّ مِنْكُمْ مُنَفِّرِينَ، فَأَيُّكُمْ مَا صَلَّى بِالنَّاسِ فَلْيُخَفِّفْ؛ فَإِنَّ فِيهِمُ الضَّعِيفَ وَالكَبِيرَ وَذَا الحَاجَةِ»

"Vallahi, ey Allahın rəsulu, mən filankəsin bizə namazı uzatdığı üçün səhər namazından (yəni: sübh namazından) geri qalıram". Mən Allahın rəsulunu, Allahın salavatı və salamı onun üzərinə olsun, heç bir moizədə o günkü qədər qəzəbli görmədim. Sonra o buyurdu: «Aranızda (insanları dindən) nifrət etdirənlər (qorxudan və uzaqlaşdıranlar) var. Sizdən kim camaata namaz qıldırarsa, namazı yüngül qıldırsın. Çünki onların arasında zəif, yaşlı və işi olanlar var».[1].

2- Namaza başlamadan əvvəl səfləri düzəltməyi və boşluqları doldurmağı əmr etmək. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, belə edər və namaz qılanlara da bunu əmr edərdi. Numan bin Bəşir - Allah ondan razı olsun - demişdir:

كَانَ رَسُولُ اللَّهِ ﷺ يُسَوِّي صُفُوفَنَا حَتَّى كَأَنَّمَا يُسَوِّي بِهَا القِدَاحَ، حَتَّى رَأَىٰ أَنَّا قَدْ عَقَلْنَا عَنْهُ، ثُمَّ خَرَجَ يَوْمًا فَقَامَ، حَتَّى كَادَ يُكَبِّرُ، فَرَأَىٰ رَجُلًا بَادِيًا صَدْرُهُ مِنَ الصَّفِّ، فَقَالَ: «عِبَادَ اللَّهِ لَتُسَوُّنَّ صُفُوفَكُمْ، أَوْ لَيُخَالِفَنَّ اللَّهُ بَيْنَ وُجُوهِكُمْ»

[1] Hədisi Buxari: (90) rəvayət etmişdir.

Allah rəsulu, sallallahu aleyhi və səlləm, səflərimizi sanki oxları düzəldirmiş kimi dümdüz edərdi, ta ki, bizim bunu (artıq) başa düşdüyümüzü gördü. Sonra bir gün (namaza) çıxıb durdu. Az qala təkbir gətirəcəkdi ki, səfdən sinəsi irəli çıxmış bir bədəvi adam gördü və buyurdu: «Ey Allahın qulları! Ya səflərinizi düzəldərsiniz ya da Allah aranıza ixtilaf salar».[1].

İmam ən-Nəvəvi - Allah ona rəhmət etsin - demişdir: "əl-Qidah" (qaf hərfi kəsrə ilə) oxların yonulub düzəldilən ağac hissəsidir. Mənası: Onları o dərəcədə həddən ziyadə düzəldirlər ki, sanki onlarla oxları doğruldurlar. Bu da onların həddən artıq düz və səliqəli olmasındandır"[2].

3- Onlara ən əvvəl birinci səfi, sonra arxadakı səfləri tamamlamağı əmr etməlidir. Belə ki, səflərdə naqislik olsa qoy axırıncı səflərdə olsun. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«أَلَا تَصُفُّونَ كَمَا تَصُفُّ المَلَائِكَةُ عِندَ رَبِّهَا؟»

«Mələklər Rəbblərinin hüzurunda səf çəkdikləri kimi, siz də səf çəkməyəcəksinizmi?». Biz soruşduq: “Ya rəsulullah! Bəs mələkləri öz Rəbbinin yanında necə vəsf edərsən?” O buyurdu:

«يُتِمُّونَ الصُّفُوفَ الأُوَلَ، وَيَتَرَاصُّونَ فِي الصَّفِّ»

---

[1] Hədisi Buxari: (717) və Müslim: (436) rəvayət etmişdir. Hədisin ləfzi Müslimə aiddir.
[2] Nəvəvinin "Səhih Müslimin" şərhi: (4/157).

«Onlar əvvəl birinci səfləri tamalayarlar və cərgədə sıx durarlar».[1].

4- Namazdakı qiraətində peyğəmbərə, sallallahu aleyhi və səlləm, tabe olmaq. Belə ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, əksər hallarda fəcr namazında mufəssəlin uzun, məğrib namazında mufəssəlin qısa, işa, zöhr və əsr namazlarında isə mufəssəlin orta həcmli surələrindən oxuyardı. Süleyman bin Yəsar Əbu Hureyrədən, Allah ondan razı olsun, rəvayət edir ki, o, belə demişdir:

«مَا صَلَّيْتُ وَرَاءَ أَحَدٍ أَشْبَهَ صَلَاةً بِرَسُولِ اللَّهِ ﷺ مِنْ فُلَانٍ، قَالَ سُلَيْمَانُ: كَانَ يُطِيلُ الرَّكْعَتَيْنِ الأُوَلَيْنِ مِنَ الظُّهْرِ، وَيُخَفِّفُ الأُخْرَيَيْنِ، وَيُخَفِّفُ العَصْرَ، وَيَقْرَأُ فِي المَغْرِبِ بِقِصَارِ المُفَصَّلِ، وَيَقْرَأُ فِي العِشَاءِ بِوَسَطِ المُفَصَّلِ، وَيَقْرَأُ فِي الصُّبْحِ بِطُوَالِ المُفَصَّلِ»

«Mən filankəsdən başqa, namazı peyğəmbərin, sallallahu aleyhi və səlləm, namazına daha çox bənzəyən bir kimsənin arxasında namaz qılmamışam». Süleyman dedi: «O, zöhr namazının ilk iki rükətini uzun, son iki rükətini isə qısa qılardı. Əsr namazını qısa qılardı. Məğrib namazında mufəssəlin qısa surələrini, işa namazında mufəssəlin orta həcmli surələrini, sübh namazında isə mufəssəlin uzun surələrini oxuyardı».[2].

Mufəssəl uzun surələri: Hucurat surəsindən Buruc surəsinə qədərdir. Mufəssəlin orta surələri:

---

[1] Hədisi Müslim: (430) Cabir bin Səmurədən, Allah ondan razı olsun, rəvayət etmişdir.

[2] Hədisi Nəsai: (982) rəvayət etmişdir. Hafiz "Bulughul-Məram" (286) adlı əsərində isnadının səhih olduğunu bildirmişdir.

Buruc surəsindən Bəyyinə surəsinə qədərdir. Mufəssəlin qısa surələri isə: Bəyyinə surəsindən Quranın sonuna qədərdir[1].

## Onuncu bölmə: İmamın əsas xüsusiyyətləri

Məscid imamı məscidin dayağı və qüvvəti hesab olunur. Məscid onun vasitəsilə dəvəti yaymaq, cəmiyyəti maarifləndirmək və insanları dinləri barədə məlumatlandırmaq kimi öz vəzifəsini yerinə yetirir. İmam bilikli, ağıllı, bəsirətli, insanların adət-ənənələrini və hallarını bilən olduğu zaman, o, məscid camaatına və məscidin yerləşdiyi məhəllənin sakinlərinə (dini) öyrətməklə, onlara yol göstərməklə və hər bir xeyirə və fəzilətə yönəltməklə yaxşı və faydalı təsir göstərir.

İmamlıq şərtlərini özündə cəm edən imamlar da belə olmuşlar. İslamın ilk dövrlərində peyğəmbər, sallallahu aleyhi və səlləm, imam idi, sonra onun raşidi xəlifələri, daha sonra isə əmirlər, sərkərdələr, alimlər və görkəmli şəxslər. Bu da onu göstərir ki, bu vəzifəni icra edən şəxs din, əxlaq, elm və davranış baxımından yüksək məqamda olmalıdır.

Məhz burada bu vəzifənin insanların həyatındakı əhəmiyyəti üzə çıxır. Belə ki, imamların gücü öz cəmiyyətlərində göründüyü

[1] Bax: Mirqat əl-Məfatih: (2/700).

kimi, zəiflikləri də həmin cəmiyyətlərdə öz təsirini göstərir. Çünki cəmiyyətə sözün əməllə bir olmasını öyrədən məhz məsciddir. Əgər imam elmi zəif, ağlı dayaz, əxlaqı və davranışı pis olarsa, o, fayda deyil, zərər verər. İmamın vəzifələrindən biri namaz qılanları xeyirə, yaxşılığa və islah olmağa yönəltmək olduğu üçün, cahil bir imamın bu uca vəzifəni yerinə yetirməsi çox çətindir.

Bəzən imam elm və şəxsi bacarıq baxımından bu vəzifənin şərtlərinə sahib olsa da, fəaliyyətinin səviyyəsinə təsir edən başqa işlərlə məşğul olur. Nəticədə namazın qılınma vaxtlarına gecikir, namazlarda oxuyacağı surələri və ya ayələri təkrar etməyə kifayət qədər vaxt tapmır. Buna görə də görürük ki, o, yalnız müəyyən surə və ya ayələrlə namaz qıldırır və onlardan kənara çıxmır.

Bəzən nəfsin istəyi, cahillik, çəkişmələr və ya pislənilən ifratçılıq insana qalib gələrək onu obyektivlikdən, tərbiyəvi yönləndirmədən, hikmət və gözəl öyüd-nəsihətlə dəvət etməkdən uzaqlaşdırar.

Həqiqətən, bu dində məscidin böyük təsiri vardır. O, bir hidayət məşəlidir ki, orada qul Rəbbi ilə əlaqə qurur, imanı güclənir və qardaşları ilə bir araya gələrək fəziləti yaymaq və rəzalətə qarşı mübarizə aparmaq üçün birləşir. Məscid bu vəzifəni ancaq o zaman yerinə yetirə bilər ki, Uca Allah onun üçün, bu böyük məqamı tutmaq və bu şərəfli vəzifənin öhdəliklərini icra etmək üçün

zəruri olan elmi və əxlaqi keyfiyyətlərə sahib bir imam təyin etsin.

## İmamda mövcud olmalı əsas elmi keyfiyyətləri bunlardır:

1- Əməli ixlasla, Uca Allahın rizası üçün etmək ki, o, Uca Allah qatında və insanlar yanında dəstəklənən, yardım görən, qəbul olunan və sevilən olsun.

2 - Riyakarlıqdan və özünü göstərməkdən uzaq olmaq. Çünki işlər məqsədlərə (görə qiymətləndirilir), əməllər isə niyyətlərə görədir və hər kəsə yalnız niyyət etdiyi şey vardır. Kim özündə olmayan bir şeylə özünü göstərərsə, Allah onu rüsvay edər.

3- Allahın Kitabının hafizi olmalı yaxud ondan bir hissə əzbərləməli, əzbərlədiyini davamlı təkrarlamalı və Quran oxumaq üçün gündəlik virdi olmalıdır.

4- "Riyadus-Salihin", "əl-Ərbəin ən-Nəvəviyyə", "Buluğul-Məram" və ya digər mötəbər hədis kitablarından bir sıra peyğəmbər hədislərini əzbərləməlidir.

5- Doğru əqidəni, yəni: Sələfi-salehin əqidəsini öyrənməlidir.

6. Dinin hökmləri barəsində fiqh elmini, xüsusilə də ibadətlər fiqhini, ən əsası təharət, namaz, zəkat və oruc və müamilələr fiqhini öyrənməlidir ki, qazanc və xərcləmə qaydalarını bilsin. İnsanları

aldatmaqdan, saxtakarlıqdan, onların mallarını haqsız yerə mənimsəməkdən, eləcə də israfçılıq, bədxərclik, xəsislik və simiclikdən çəkindirsin və nəticədə onların maliyyə davranışları Kitab və Sünnə işığında olsun.

7- Quran ərəb dilində nazil edildiyindən, Allahın öz rəsuluna, Allahın salavatı və salamı onun üzərinə olsun, nazil etdiklərinin mənalarını anlamaq üçün bu dili mükəmməl bilsin.

8- Peyğəmbərin həyatını, Muhəmməd peyğəmbərin xasiyyətlərini və saleh sələflərin həyat hekayələrini oxusun. Çünki onlarda saleh bir nümunə, gözəl bir örnək, faydalı elmi bir sərvət və yüksək İslam mədəniyyəti vardır.

9- Öz ölkəsinin alimlərini, eləcə də sağlam əqidələri, elmləri və ağılları ilə tanınan digər dərin elmli alimləri tanımalı, ehtiyac duyduğu bütün dini məsələlərin və cəmiyyətinin problemlərinin həllində onlara müraciət etməlidir.

10 - İslami firqələri və onların əqidələrini, fikri cərəyanları və onların məqsədlərini, dağıdıcı məzhəbləri və onların hədəflərini tanımaq ki, Uca Allahın Kitabı, rəsulunun -sallallahu aleyhi və səlləm - sünnəsi və təhqiqatçı müsəlman alimlərinin yazdıqları işığında onlarla müzakirə edə bilsin, saxtakarlıqlarını tənqid etsin və batilindən çəkindirsin.

11. Müxtəlif informasiya vasitələrini tanımalı, onların müsbət və mənfi cəhətlərini bilməli, Allah

yoluna dəvətdə onlardan necə faydalanacağını öyrənməli, həmçinin bu vasitələrin özü və cəmiyyəti üçün daşıdığı təhlükələrdən ehtiyat etməlidir.

Məscid imamında bu xüsusiyyətlər mövcud olduqda, bu, Uca Allahın izni ilə, istiqamət və müvazinət meydana gətirər.

## Ən vacib əxlaqi xüsusiyyətlər isə bunlardır:

1- Məscid imamı, öz camaatı, habelə məscidə gələn məhəllə əhli və digər insanlar üçün bir dəvətçi və müəllim olmalıdır. O, peyğəmbəri, sallallahu aleyhi və səlləm, özünə örnək götürməlidir. Çünki o, ümmət və rəhbərlər üçün saleh bir örnək, gözəl bir nümunə və ən uca timsaldır. Uca Allah buyurmuşdur:

﴿لَّقَدۡ كَانَ لَكُمۡ فِي رَسُولِ ٱللَّهِ أُسۡوَةٌ حَسَنَةٞ لِّمَن كَانَ يَرۡجُواْ ٱللَّهَ وَٱلۡيَوۡمَ ٱلۡأٓخِرَ وَذَكَرَ ٱللَّهَ كَثِيرٗا21﴾

"Allahın rəsulunda sizlər, Allaha və Axirət gününə ümidini bağlayanlar və Allahı çox zikr edənlər üçün gözəl örnək vardır". (Əhzab 33 surəsi, ayə 21).

Özünü və məscidə gələnləri dünyəvi və siyasi söhbətlərdən uzaq tutmalı, məscidi yalnız elm və ibadət məkanı etməlidir.

2- Şəxsən özünün təmiz və səliqəli olması, həmçinin məscidin təmizliyinə diqqət yetirməsi, onun əşyalarını səliqəyə salması və ləvazimatlarını

qoruması, bu işlərdə israfdan uzaq durması və məscidi bəzəməkdən çəkinməsi.

3- Gözəl yol və görkəm sahibi olmaq, saqqalı uzatmaq və bığı qısaltmaqla peyğəmbərin, sallallahu aleyhi va səlləm, sünnəsinə tabe olmaq, geyimini topuqdan aşağı uzatmaqdan çəkinmək, vüqarlı və təmkinli olmaq və keçmiş saleh sələflərin, Allah onlara rəhmət etsin, yolunu izləmək.

4- Mülayim, həlim və rəhimli olmaq. Çünki həqiqətən, mülayimlik bir işdə olarsa, onu bəzəyər, yoxluğu isə həmin işi çirkin edər. Hədisdə də gəldiyi kimi, Aişədən, Allah ondan razı olsun, rəvayət olunur ki, peyğəmbər, sallallahu əleyhi va səlləm, buyurmuşdur:

«إِنَّ الرِّفْقَ لَا يَكُونُ فِي شَيْءٍ إِلَّا زَانَهُ، وَلَا يُنْزَعُ مِنْ شَيْءٍ إِلَّا شَانَهُ»

«Həqiqətən hər bir əməldə yumşaq davranmaq əməli bəzəyər, yoxluğu isə həmin əməli çirkin edər».[1].

Əgər məscidə gələnlərdən biri bir xəta edərsə, imam onu danlamamalı, əksinə, ona yumşaq bir şəkildə nəsihət verməli və gözəl şəkildə öyrətməlidir. Muaviyə bin əl-Həkəm əs-Suləmidən, Allah ondan razı olsun, rəvayət edildiyinə görə o belə demişdir:

بَيْنَمَا أَنَا أُصَلِّي مَعَ رَسُولِ اللَّهِ ﷺ؛ إِذْ عَطَسَ رَجُلٌ مِنَ الْقَوْمِ، فَقُلْتُ: يَرْحَمُكَ اللَّهُ، فَرَامَنِي الْقَوْمُ بِأَبْصَارِهِمْ، فَقُلْتُ: وَاثُكْلَ أُمِّيَاه، مَا شَأْنُكُمْ تَنظُرُونَ إِلَيَّ؟ فَجَعَلُوا

---

[1] Hədisi Müslim: (2594) rəvayət etmişdir.

يَضْرِبُونَ بِأَيْدِيهِمْ عَلَى أَفْخَاذِهِمْ، فَلَمَّا رَأَيْتُهُمْ يُصَمِّتُونَنِي لَكِنِّي سَكَتُّ، فَلَمَّا صَلَّى رَسُولُ اللَّهِ ﷺ، فَبِأَبِي هُوَ وَأُمِّي، مَا رَأَيْتُ مُعَلِّمًا قَبْلَهُ وَلَا بَعْدَهُ أَحْسَنَ تَعْلِيمًا مِنْهُ، فَوَاللَّهِ مَا كَهَرَنِي -أَيْ: مَا قَهَرَنِي وَلَا نَهَرَنِي- وَلَا ضَرَبَنِي وَلَا شَتَمَنِي، قَالَ: «إِنَّ هَذِهِ الصَّلَاةَ لَا يَصْلُحُ فِيهَا شَيْءٌ مِنْ كَلَامِ النَّاسِ، إِنَّمَا هِيَ التَّسْبِيحُ وَالتَّكْبِيرُ وَقِرَاءَةُ الْقُرْآنِ»

Mən Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, ilə birlikdə namaz qılarkən, camaatdan bir kişi asqırdı. Mən də: “Allah sənə rəhm etsin” dedim. Camaat gözlərini mənə zillədi. Mən də: “Vay halıma! Nə olub ki, mənə baxırsınız?” dedim. Onlar əlləri ilə budlarına vurmağa başladılar. Onların məni susdurmaq istədiklərini anladıqda susdum. Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, namazı qılıb qurtardıqda, - anam-atam ona fəda olsun - mən nə ondan əvvəl, nə də ondan sonra ondan daha gözəl öyrədən bir müəllim görmədim. Allaha and olsun ki, o, məni nə danladı, nə vurdu, nə də söydü. O belə buyurdu: «Həqiqətən, bu namazda insan kəlamından bir şey danışmaq olmaz. O, ancaq təsbih, təkbir və Quran oxumaqdan ibarətdir».[1].

5- İnsanları öz ətrafına toplayıb, onların da onun şəfqətindən, yardımından və elmindən faydalanmaları üçün mülayim və yumşaq qəlbli olmalı, onların müsibətlərində və ehtiyaclarında yanlarında olmalı və məscidin vəzifəsi ilə bağlı məsələlərdə onlarla məşvərət etməlidir.

---

[1] Hədisi Müslim: (537) rəvayət etmişdir.

Allahın elçisi, Allahın salavatı və salamı onun üzərinə olsun, bütün bunların ən uca məqamında idi, necə ki, Uca Allah onun haqqında buyurmuşdur:

﴿فَبِمَا رَحْمَةٖ مِّنَ ٱللَّهِ لِنتَ لَهُمۡۖ وَلَوۡ كُنتَ فَظًّا غَلِيظَ ٱلۡقَلۡبِ لَٱنفَضُّواْ مِنۡ حَوۡلِكَۖ فَٱعۡفُ عَنۡهُمۡ وَٱسۡتَغۡفِرۡ لَهُمۡ وَشَاوِرۡهُمۡ فِي ٱلۡأَمۡرِۖ فَإِذَا عَزَمۡتَ فَتَوَكَّلۡ عَلَى ٱللَّهِۚ إِنَّ ٱللَّهَ يُحِبُّ ٱلۡمُتَوَكِّلِينَ159﴾

"Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər kobud və daş qəlbli olsaydın, heç şübhəsiz, onlar sənin ətrafından dağılıb gedərdilər. Elə isə onları əfv et, onlar üçün (Allahdan) bağışlanma dilə və (görəcəyin) işlər barədə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevər". (Əli İmran 3 surəsi, ayə 159).

6- Səbirli olmalı, yəqinliklə iman gətirməli və söylədiklərində doğru olmalıdır ki, öz məscidində və camaatı arasında imamlıq şərəfinə layiq olsun. Çünki səbir və yəqinlik qulu dində imamlıq mərtəbəsinə yüksəldir. Uca Allah buyurur:

﴿وَجَعَلۡنَا مِنۡهُمۡ أَئِمَّةٗ يَهۡدُونَ بِأَمۡرِنَا لَمَّا صَبَرُواْۖ وَكَانُواْ بِـَٔايَٰتِنَا يُوقِنُونَ24﴾

"Səbir etdiklərinə və ayələrimizə yəqinliklə inandıqlarına görə Biz əmrimizlə onlardan doğru yolu göstərən rəhbərlər təyin etmişdik". (Səcdə 32 surəsi, ayə 24).

7- O, doğru danışan, doğru yolda olan və nicat tapanlardan olması üçün, istər cümə xütbəsində, istər elm və nəsihət dərsində, istərsə də insanlarla danışığında olsun, dediyi sözlərdə doğru olmalıdır.

Belə ki, peyğəmbərdən, Allahın salavatı və salamı onun üzərinə olsun, rəvayət olunan hədisdə o, belə buyurmuşdur:

«عَلَيْكُمْ بِالصِّدْقِ؛ فَإِنَّ الصِّدْقَ يَهْدِي إِلَى البِرِّ، وَإِنَّ البِرَّ يَهْدِي إِلَى الجَنَّةِ، وَمَا يَزَالُ الرَّجُلُ يَصْدُقُ وَيَتَحَرَّى الصِّدْقَ حَتَّى يُكْتَبَ عِندَ اللَّهِ صِدِّيقًا، وَإِيَّاكُمْ وَالكَذِبَ، فَإِنَّ الكَذِبَ يَهْدِي إِلَى الفُجُورِ، وَإِنَّ الفُجُورَ يَهْدِي إِلَى النَّارِ، وَمَا يَزَالُ الرَّجُلُ يَكْذِبُ وَيَتَحَرَّى الكَذِبَ حَتَّى يُكْتَبَ عِندَ اللَّهِ كَذَّابًا»

«Doğruluqdan ayrılmayın. Çünki doğruluq yaxşı işlərə, yaxşı işlər isə Cənnətə aparır. İnsan o qədər doğru danışar və doğruluğa can atar ki, nəhayət, Allah yanında doğruçu kimi yazılar. Yalandan çəkinin. Çünki yalan günah işlərə, günah işlər isə Cəhənnəmə aparır. İnsan o qədər yalan danışar və yalana can atar ki, nəhayət, Allah yanında yalançı kimi yazılar».[1].

Yalan şər və bəladır. Ən böyük yalan isə Uca Allah adından yalan danışmaq və Onun barəsində elmsiz danışmaqdır. Uca Allah buyurur:

﴿قُلۡ إِنَّمَا حَرَّمَ رَبِّيَ ٱلۡفَوَٰحِشَ مَا ظَهَرَ مِنۡهَا وَمَا بَطَنَ وَٱلۡإِثۡمَ وَٱلۡبَغۡيَ بِغَيۡرِ ٱلۡحَقِّ وَأَن تُشۡرِكُواْ بِٱللَّهِ مَا لَمۡ يُنَزِّلۡ بِهِۦ سُلۡطَٰنٗا وَأَن تَقُولُواْ عَلَى ٱللَّهِ مَا لَا تَعۡلَمُونَ33﴾

"De: “Rəbbim həm aşkar, həm də gizli (edilən) pis əməlləri, (hər cür) günahı, haqsı yerə zülm etməyi, Allahın, haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi Ona şərik qoşmağınızı və Allaha qarşı bilmədiyiniz şeyləri söyləməyinizi haram buyurmuşdur”. (Əraf 7 surəsi, ayə 33).

---

[1] Hədisi Buxari: (6094) və Müslim: (2607) Abdullah ibn Məsuddan, Allah ondan razı olsun, rəvayət etmişdir.

Bu mübarək ayə ən böyük günahları kiçiyindən başlayaraq ən böyüyünə doğru cəm etmişdir və bu günahların ən böyüyü Uca Allahın isimləri, sifətləri və şəriəti barəsində elmsiz danışmaqdır.

Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, adından yalan danışmaq ən böyük yalanlardan və ən çirkin günahlardandır və bu, sahibinə Cəhənnəm vəd edilən böyük günahlardandır. Muğirə bin Şubə, Allah ondan razı olsun, demişdir: “Mən peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, belə dediyini eşitdim:”

«إِنَّ كَذِبًا عَلَيَّ لَيْسَ كَكَذِبٍ عَلَىٰ أَحَدٍ، مَنْ كَذَبَ عَلَيَّ مُتَعَمِّدًا، فَلْيَتَبَوَّأْ مَقْعَدَهُ مِنَ النَّارِ»

«Həqiqətən, mənim adımdan yalan danışmaq, başqasının adından yalan danışmaq kimi deyil. Kim mənim adımdan qəsdən yalan danışarsa, Cəhənnəmdə öz yerini hazırladığını bilsin».[1].

Bəzi vaizlərin etdiyi kimi, xeyirə təşviq etmək və şərdən çəkindirmək məqsədilə yaxşı niyyətlə olsa belə, yalandan çəkinməlidir. Çünki bu, çirkin bir əməldir, onda heç bir xeyir və hidayət yoxdur və onu deyən savab qazanmaz, əksinə günahkar olar.

8- Sözü nəql edərkən əmin olmalı, yayılan xəbərlərin doğruluğunu yoxlamalı, şayiələrə inanmağa tələsməməli və yalnız etibarlı sözə əsaslanmalıdır. Uca Allah bunu bizə əmr edərək belə buyurmuşdur:

---

[1] Hədisi Buxari: (1291) və Müslim: (4) rəvayət etmişdir.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِن جَآءَكُمۡ فَاسِقُۢ بِنَبَإٖ فَتَبَيَّنُوٓاْ أَن تُصِيبُواْ قَوۡمَۢا بِجَهَٰلَةٖ فَتُصۡبِحُواْ عَلَىٰ مَا فَعَلۡتُمۡ نَٰدِمِينَ6﴾

"Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, (onu) araşdırın. Yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız". (Hucurat 49 surəsi, ayə 6).

9- İnsanların eyiblərini örtməyə xüsusi səy göstərmək və onların sirlərini gizli saxlamaq. Kim bir müsəlmanı örtsə, Uca Allah da onu dünyada və axirətdə örtər. Kim müsəlmanların eyiblərini axtararsa, Allah da onun eyibini axtarar və nəticədə onu, hətta öz evinin içində olsa belə, rüsvay edər. Abdullah bin Ömərdən, Allah onlardan razı olsun, rəvayət olunur ki, Allahın elçisi, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«مَنْ سَتَرَ مُسْلِمًا سَتَرَهُ اللَّهُ يَوْمَ القِيَامَةِ»

«Kim bir müsəlmanın eybini örtərsə, Allah da Qiyamət günü onun eyiblərini örtər».[1] Əbu Bərzə əl-Əsləmidən, Allah ondan razı olsun, Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə dediyi rəvayət edilir:

«يَا مَعْشَرَ مَنْ آمَنَ بِلِسَانِهِ وَلَمْ يَدْخُلِ الإِيمَانُ قَلْبَهُ، لَا تَغْتَابُوا المُسْلِمِينَ، وَلَا تَتَّبِعُوا عَوْرَاتِهِمْ؛ فَإِنَّ مَنِ اتَّبَعَ عَوْرَاتِهِمْ يَتَّبِعُ اللَّهُ عَوْرَتَهُ، وَمَنْ يَتَّبِعِ اللَّهُ عَوْرَتَهُ يَفْضَحْهُ فِي بَيْتِهِ»

«Ey dili ilə iman gətirib, hələ qəlblərinə iman daxil olmamış kimsələr! Müsəlmanların qeybətini qırmayın və onların eyiblərini araşdırmayın. Belə

[1] Hədisi Buxari: (2442) və Müslim: (2580) rəvayət etmişdir.

ki, kim onların eyiblərini araşırdırarsa, Allah da onun eyibini ortaya çıxarar və onu öz evində aşkara çıxardar».[1].

## Üçüncü fəsil: Cümə namazı və xütbəsi

### Birinci bölmə: Cümə namazı

### Birinci məsələ: Cümə namazının məfhumu və vaxtı:

Birinci: Cümə namazının məfhumu:

Cümə: Həftənin günlərindən biri olub, bu gündə xüsusi bir namaz, yəni: cümə namazı qılınır[2].

Allahın bu ümməti cümə gününə hidayət etməsi böyük bir fəzilətdir. Belə ki, Əbu Hureyrə, Allah ondan razı olsun, demişdir: Allahın rəsulu, səllallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«نَحْنُ الآخِرُونَ السَّابِقُونَ يَوْمَ القِيَامَةِ، بَيْدَ -أَيْ: غَيْرَ- أَنَّهُمْ أُوتُوا الكِتَابَ مِنْ قَبْلِنَا، وَأُوتِينَاهُ مِنْ بَعْدِهِمْ، وَهَذَا يَوْمُهُمْ الَّذِي فُرِضَ عَلَيْهِمْ فَاخْتَلَفُوا فِيهِ، فَهَدَانَا اللَّهُ لَهُ، فَهُمْ لَنَا فِيهِ تَبَعٌ، فَاليَهُودُ غَدًا، وَالنَّصَارَىٰ بَعْدَ غَدٍ»

«Biz axırıncılar, Qiyamət günü isə birincilərik. Lakin onlara Kitab bizdən əvvəl, bizə isə onlardan sonra verildi. Bu, onlara fərz edilmiş gün idi, lakin onlar bu barədə ixtilafa düşdülər. Allah isə bizi bu

---

[1] Hədisi Əbu Davud: (4880) rəvayət etmişdir. Bu xüsusiyyətlər üçün şeyx Səud ibn Muhəmməd əl-Bişrin "Məscid imamı: elmi və əxlaqi xüsusiyyətləri" kitabına baxılsın.

[2] Bax: Muhəmməd Rəvvas Qəl'əci və başqalarının, "Mu'cəm Lu'ğət əl-Fuqəha", (səh: 166).

günə hidayət etdi. Onlar bu barədə bizə tabedirlər. Yəhudilər sabah, nəsranilər isə birisi gün».[1].

Cümə günü günəşin üzərinə doğduğu ən xeyirli gündür. Bu barədə Əbu Hureyradan, Allah ondan razı olsun, peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, belə söylədiyi rəvayət edilir:

«خَيْرُ يَوْمٍ طَلَعَتْ عَلَيْهِ الشَّمْسُ يَوْمُ الْجُمُعَةِ، فِيهِ خُلِقَ آدَمُ، وَفِيهِ أُدْخِلَ الْجَنَّةَ، وَفِيهِ أُخْرِجَ مِنْهَا»

«Günəşin üzərinə doğduğu ən xeyirli gün cümə günüdür, Adəm həmin gün yaradılıb, həmin gün Cənnətə daxil edilib, həmin gün oradan çıxarılıb».[2].

Bir cümə o biri cüməyə qədər aralarında olanlara kəffarədir. Bu barədə Əbu Hureyrə, Allah ondan razı olsun, rəvayət etmişdir ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurardı:

«الصَّلَوَاتُ الْخَمْسُ، وَالْجُمُعَةُ إِلَى الْجُمُعَةِ، وَرَمَضَانُ إِلَى رَمَضَانَ، مُكَفِّرَاتٌ مَا بَيْنَهُنَّ إِذَا اجْتُنِبَتِ الْكَبَائِرُ»

«Böyük günahlardan çəkinildiyi təqdirdə, beş vaxt namaz, bir cümə o biri cüməyə qədər və bir Ramazan o biri Ramazana qədər, aralarında edilən kiçik günahlara kəffarədir».[3].

Cümə namazı: Özünə məxsus bir namazdır və bu namaz: rükətin sayı, ucadan oxumaqla, xütbənin

---

1 Hədisi Buxari: (876) və Müslim: (855) rəvayət etmişdir.
2 Hədisi Müslim: (854) rəvayət etmişdir.
3 Hədisi Müslim: (233) rəvayət etmişdir.

olması və digər şərtləri ilə zöhr namazından fərqli olsada, zöhr namazının vaxtında qılınır.

İkincisi: Cümə namazının vaxtı:

Cümə namazının vaxtı, zöhr namazının vaxtıdır. Günəş zenitdən batmağa meyl etdiyi vaxtdan hər bir şeyin kölgəsi ozü boyda olana qədərdir. Ənəs bin Malik - Allah ondan razı olsun - rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, cümə namazını gün batmağa meyl etdiyi vaxt qılardı[1].

Yəni: Günəşin batdığı tərəfə meyl etdiyi və səmanın ortasından çəkildiyi vaxtda. Bu da zöhr namazının vaxtıdır.

## İkinci məsələ: Cümə namazının hökmü və kimlərə vacibdir?

Birinci: Cümə namazının hökmü:

Cümə namazı kişilərə fərzi-'ayndır (yəni: hər bir fərdə vacibdir). Allah sübhənəhu demişdir:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِذَا نُودِيَ لِلصَّلَوٰةِ مِن يَوۡمِ ٱلۡجُمُعَةِ فَٱسۡعَوۡاْ إِلَىٰ ذِكۡرِ ٱللَّهِ وَذَرُواْ ٱلۡبَيۡعَۚ ذَٰلِكُمۡ خَيۡرٞ لَّكُمۡ إِن كُنتُمۡ تَعۡلَمُونَ9﴾

"Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığı zaman Allahı yad etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!" (Cumuə 62 surəsi, ayə 9). Abdullah ibn Ömər və Əbu Hüreyrə, Allah onların hər ikisindən razı olsun, rəvayət edirlər ki, onlar Allah

---

[1] Hədisi Buxari: (904) rəvayət etmişdir.

rəsulununu, salləllahu aleyhi va səlləm, minbərinin üzərində belə dediyini eşitmişlər:

«لَيَنْتَهِيَنَّ أَقْوَامٌ عَنْ وَدْعِهِمْ -أَيْ: تَرْكِهِمْ- الجُمُعَاتِ، أَوْ لَيَخْتِمَنَّ اللَّهُ عَلَى قُلُوبِهِمْ، ثُمَّ لَيَكُونُنَّ مِنَ الغَافِلِينَ»

«Cümə namazına gəlməyən kimsələr ya buna son qoyacaqlar ya da ki, Allah onların qəlblərini möhürləyəcək, sonra onlar qafillərdən olacaqlar".[1].

Müsəlmanlar cümə namazının vacib olduğuna dair icma etmişlər. İbn Munzir, Uca Allah ona rəhmət etsin, demişdir: "Alimlər icma etmişlər ki, cümə namazı üzrü olmayan azad, həddi-büluğa çatmış və yerli şəxslərə vacibdir"[2].

İkincisi: Cümə namazı kimə vacibdir?

Cümə namazı, cümə namazına getməyə gücü çatan hər bir azad, həddi-büluğa çatmış, yerli və əqli qüsursuz müsəlman kişiyə vacibdir. Cümə namaz: qula, qadına, uşağa, dəliyə, xəstəyə və müsafirə vacib deyildir. Buna dəlil, Tariq bin Şihabın, radiyallahu anhu, peyğəmbərdən, sallallahu aleyhi və səlləm, rəvayət etdiyi hədisdir ki, o, belə buyurmuşdur:

«الجُمُعَةُ حَقٌّ وَاجِبٌ عَلَىٰ كُلِّ مُسْلِمٍ فِي جَمَاعَةٍ، إِلَّا أَرْبَعَةً: عَبْدٌ مَمْلُوكٌ، أَوْ امْرَأَةٌ، أَوْ صَبِيٌّ، أَوْ مَرِيضٌ»

«Cümə namazını camaatla qılmaq, hər bir müsəlmanın üzərində vacib haqdır. Yalnız dörd

---

1 Hədisi Müslim: (865) rəvayət etmişdir.
2 "əl-İcma" (səh: 40).

qisim insan: qul, qadın, uşaq və xəstə bundan müstəsnadır».[1].

Müsafirə cümə namazı vacib deyil. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, səfərlərində cümə namazı qılmazdı. Onun həcci zamanı Arafa günü cümə gününə təsadüf etməsinə baxmayaraq, o, zöhr namazını qılmış və əsr namazını da onunla cəm etmişdi.

Həmçinin İbn Munzir - Allah ona rəhmət etsin - bu məslədə icma olduğunu nəql etmiş və belə demişdir: "(Alimlər) icma etmişlər ki, uşağa və qadınlara cümə namazı vacib deyildir... Və cümə namazının üzrü olmayan azad, həddi-büluğa çatmış, yerli kişilərə vacib olduğuna dair də icma etmişlər"[2].

Əgər cümə namazına getməsi vacib olmayan: qul, qadın, uşaq, xəstə və müsafir cümə namazına gedərlərsə, cümə namazları səhihdir və bu, onların zöhr namazlarını əvəz edər.

Cümə namazı otlaq və su axtarmaq üçün köç edən bədəvilərə vacib deyildir. Çünki peyğəmbərin, sallallahu aleyhi və səlləm, dövründə səhra əhli Mədinənin ətrafında idi və peyğəmbər, sallallahu aleyhi və səlləm, onlara cümə namazını qılmağı əmr etməmişdi. İmam Əhməd belə demişdir: "Köçərilərə cümə namazı vacib deyil. Çünki onlar

---

1 Hədisi Əbu Davud: (1067) rəvayət etmişdir.
2 əl-İcma, (səh: 40).

daima köç edirlər. Cümənin vacibliyinin aradan qalxması onların köçəri olmaları ilə izah edilmişdir. Beləliklə, kim bir yerdə məskunlaşıbsa və öz ixtiyarı ilə oradan köçmürsə, o, kənd (və ya şəhər) əhlindən sayılır"[1].

Cümə namazı üç nəfərlə qılınır (və ya səhih sayılır): biri xütbə verir, ikisi isə dinləyir. Uca Allah buyurmuşdur:

﴿...فَٱسۡعَوۡاْ إِلَىٰ ذِكۡرِ ٱللَّهِ...﴾

"...Allahı yad etməyə tələsin..." (Cumuə 62 surəsi, ayə 9). Bu, cəmdir və cəmin ən az sayı isə üçdür.

## Üçüncü məsələ: Cümə namazının qılınma qaydası:

Cümə namazı iki rükətdir və bu namaz səsli qılınmalıdır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, belə edərdi. Həmçinin elm əhli də bu barədə icma etmişdir. İbn Həzm, rahiməhullah, deyir: "İcma etmişlər ki, cümə namazı - şərtlərinə uyğun qılındığı təqdirdə - iki rükətdir və hər ikisində qiraət səslə oxunur"[2].

Birinci rükətdə Fatihə və əl-Əla surəsini, ikinci rükətdə isə Fatihə və əl-Ğaşiyə surəsini oxumaq sünnədir. Belə ki, Numan bin Bəşir, Allah onların hər ikisindən razı olsun, demişdir:

---

1 Məcmuə əl-Fətavə: (24/166).

2 "İcmanın mərtəbələri" adlı əsəri (səh: 33).

«كَانَ رَسُولُ اللَّهِ ﷺ يَقْرَأُ فِي العِيدَيْنِ وَفِي الْجُمُعَةِ بِسَبِّحِ اسْمَ رَبِّكَ الأَعْلَىٰ، وَهَلْ أَتَاكَ حَدِيثُ الْغَاشِيَةِ».

«Rəsulullah, sallallahu aleyhi və səlləm, iki bayram və cümə namazlarında əl-Əalə və əl-Ğaşiyə surələrini oxuyardı»[1].

Yaxud birinci rükətdə Fatihə və Cümə surəsini, ikinci rükətdə isə Fatihə və əl-Munəfiqun surəsini oxuyar. Belə ki, İbn Əbi Rafi demişdir: "Mərvan, Əbu Hureyrəni Mədinəyə canişin təyin edib özü Məkkəyə getdi. Beləliklə, Əbu Hureyrə bizə cümə namazını qıldırdı və Cümə surəsindən sonra, ikinci rükətdə "İzə cəakə-l munəfiqun" surəsini oxudu. Mən namaz bitdikdən sonra Əbu Hureyrəyə çatıb dedim: "Sən elə iki surə oxudun ki, Əli bin Əbu Talib də Kufədə bu surələri oxuyardı". Əbu Hureyrə dedi:"

«إِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقْرَأُ بِهِمَا يَوْمَ الْجُمُعَةِ».

"Mən Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, cümə günü o ikisini oxuduğunu eşitdim"[2].

## Dördüncü məsələ: Cümə namazından nəyə çatdıqda ona yetişmiş hesab olunur?

İmamın qıldırdığı cümə namazının bir rükətinə çatan, artıq cümə namazına çatmış hesab olunur. Abdullah bin Ömər - Allah onlardan razı olsun -

---

[1] Hədisi Müslim: (878) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (877) rəvayət etmişdir.

rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«مَنْ أَدْرَكَ رَكْعَةً مِنَ الجُمُعَةِ أَوْ غَيْرِهَا فَقَدْ تَمَّتْ صَلَاتُهُ»

«Kim cümə namazının və ya başqa bir namazın bir rükətinə çatsa, artıq onun namazı tamam olmuşdur».[1].

Kim bir rükətinə çata bilməsə, o, zöhr namazını qılmalıdır[2].

Cümə namazının bir rükətini ötürən və imama ikinci rükətin rükusu zamanı və ya ondan əvvəl çatan kimsə yalnız bir rükət qılar, bu hədisə əsasən:

«وَمَن أَدْرَكَ الرَّكْعَةَ فَقَدْ أَدْرَكَ الصَّلَاةَ»

«Kim rükətə çatarsa, artıq namaza çatmışdır».[3].

## Beşinci məsələ: Cümədə edilməsi haram və ya məkruh olan əməllər:

1- İmam xütbə oxuduğu vaxt danışmaq haramdır. Çünki Əbu Hureyrə - Allah ondan razı olsun - rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«إِذَا قُلْتَ لِصَاحِبِكَ يَوْمَ الجُمُعَةِ: أَنْصِتْ، وَالإِمَامُ يَخْطُبُ، فَقَدْ لَغَوْتَ»

«Cümə günü imam xütbə oxuyarkən yanındakı yoldaşına: "Sus!" desən, artıq lağlağa etmiş (cümənin savabını itirmiş) olursan».[4] Yəni: Lağ söz

---

[1] Hədisi Nəsai: (557) rəvayət etmişdir.
[2] Bax: İbn Qudamə, əl-Muğni: (2/231).
[3] Hədisi Əbu Davud: (893) rəvayət etmişdir.
[4] Hədisi Buxari: (934) və Müslim: (851) rəvayət etmişdir.

danışmısan. Bu isə, qəbul olunmayan batil bir sözdür və cümənin fəziləti batil olmuşdur.

İmam ən-Nəvəvi - Allah ona rəhmət etsin - demişdir: “Hədisdə xütbə zamanı bütün növ danışmağın qadağan edildiyi bildirilmişdir. Peyğəmbər, sallallahu aleyhi və səlləm, bununla digər sözlərə də işarə etmişdir. Çünki "sus" demək, əslində yaxşı bir işi əmr etmək olsa da, peyğəmbər, sallallahu aleyhi və səlləm, onu lağlağa adlandırılmışdır. Belə olduqda, bunun xaricində olan hər cür danışıq (lağlağa sayılmağa) daha layiqdir”[1].

Danışmaq qadağasına asqıran kimsəyə: "Yarhəmukə Allah" demək və salam verənin salamını almaq da daxildir. Bunları imam xütbə oxuyarkən etmək icazəli deyil. Amma xətib xütbəyə başlamazdan əvvəl və iki xütbə arasındakı sükut zamanı danışmaqda heç bir qəbahət yoxdur.

Məmunun xətiblə danışmasına gəlincə, bunda bir qəbahət yoxdur. Ənəs bin Malikdən isə rəvayət olunur ki, o demişdir:

«أَنَّ رَجُلًا دَخَلَ المَسْجِدَ يَوْمَ الجُمُعَةِ مِنْ بَابٍ كَانَ نَحْوَ دَارِ القَضَاءِ وَرَسُولُ اللَّهِ ﷺ قَائِمٌ يَخْطُبُ فَاسْتَقْبَلَ رَسُولَ اللَّهِ ﷺ قَائِمًا، ثُمَّ قَالَ: يَا رَسُولَ اللَّهِ هَلَكَتِ الأَمْوَالُ وَانْقَطَعَتِ السُّبُلُ فَادْعُ اللَّهَ أَنْ يُغِيثَنَا فَرَفَعَ رَسُولُ اللَّهِ ﷺ يَدَيْهِ...»الحديث.

«Bir kişi cümə günü, Allahın elçisi, sallallahu aleyhi və səlləm, ayaq üstə xütbə verərkən, "qəza evi" (borcların ödənilməsi üçün satılan Ömərin evinin

---

[1] Şərhu Müslim: (6/138).

qarşısında) istiqamətində olan qapıdan məscidə daxil oldu. O, Allahın elçisinin, sallallahu aleyhi və səlləm, qarşısında ayaq üstə durub dedi: "Ey Allahın elçisi! Mallar tələf oldu, yollar kəsildi, Allaha dua et ki, bizə yağış yağdırsın!". Bunun ardınca Allahın elçisi, sallallahu aleyhi və səlləm, əllərini qaldırdı...»[1].

2- Xütbə əsnasında xırda daşlara toxunmaq, təsbeh çevirmək, mobil telefonla məşğul olmaq və bu kimi digər əbəs işlər haramdır. Çünki Əbu Hureyrə - Allah ondan razı olsun - rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«مَنْ مَسَّ الحَصَى فَقَدْ لَغَا»

«Kim çınqıllara toxunarsa, o, artıq lağv etmiş olar».[2] Çünki lüzumsuz hərəkətlər anlamağa və Allahdan qorxmağa mane olur.

3- Xütbə əsnasında insanları aralayıb qabağa keçmək haramdır. Çünki Abdullah bin Busr, Allah ondan razı olsun, rəvayət edir ki, cümə günü peyğəmbər, sallallahu aleyhi və səlləm, xütbə oxuyarkən bir kişi insanları aralayıb qabağa keçirdi. Peyğəmbər, sallallahu aleyhi və səlləm, ona belə dedi:

«اجْلِسْ فَقَدْ آذَيْتَ»

«Otur, artıq əziyyət verdin».[3].

---

[1] Hədisi Buxari: (967) və Müslim: (897) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (857) rəvayət etmişdir.
[3] Hədisi Əbu Davud: (1118) rəvayət etmişdir.

Bunun səbəbi odur ki, insanları aralayıb qabağa keçməkdə namaz qılanlara əziyyət vermək və onların xütbəyə qulaq asmalarına maneçilik var. Amma imamın qabağa keçməsi üçün başqa yol yoxdursa, onun insanları aralayıb qabağa keçməsində bir qəbahət yoxdur. Eləcə də, dəstəmaz almaq, qarşısındakı boşluğu doldurmaq və ya bu kimi zəruri bir ehtiyac üçün insanları aralayıb keçməyə məcbur qalan kəsin də bu əməli etməsində bir qəbahət yoxdur.

4- Bir kimsəni əvvəlcədən tutduğu yerindən qaldırıb, onun yerində oturmaq haramdır. Cabir bin Abdullahdan -Allah onlardan razı olsun - rəvayət olunur ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«لَا يُقِيمَنَّ أَحَدُكُمْ أَخَاهُ يَوْمَ الجُمُعَةِ، ثُمَّ لِيُخَالِفْ إِلَى مَقْعَدِهِ فَيَقْعُدْ فِيهِ، وَلَكِنْ افْسَحُوا»

«Sizdən heç bir kimsə cümə günü qardaşını yerindən qaldırıb, sonra onun yerinə oturmasın. Lakin (bir-birinizə) yer verin».[1].

5- İki nəfərin arasını aralayıb onların arasında oturmaq və ya onları aralayıb keçmək məkruhdur. Səlman Farisi, Allah ondan razı olsun, rəvayət edir ki, Allah rəsulu, sallallahu aleyhi va səlləm, belə demişdir:

[1] Hədisi Müslim: (2178) rəvayət etmişdir.

«مَنِ اغْتَسَلَ يَوْمَ الجُمُعَةِ... ثُمَّ رَاحَ فَلَمْ يُفَرِّقْ بَيْنَ اثْنَيْنِ، فَصَلَّى مَا كُتِبَ لَهُ، ثُمَّ إِذَا خَرَجَ الإِمَامُ أَنْصَتَ، غُفِرَ لَهُ مَا بَيْنَهُ وَبَيْنَ الجُمُعَةِ الأُخْرَى»

«Kim cümə günü qüsl edər... sonra (cümə namazına) gedər və iki nəfərin arasını ayırmadan (bir tərəfə çəkilib) ona yazılan namazı qılar, sonra imam (xütbə verməyə) çıxdıqda susub dinləyərsə, həmin cümə ilə ötən cümə arasında olan (kiçik günahları) bağışlanar».[1] Bu isə ona dəlalət edir ki, iki nəfərin arasını ayıran kəsə bu bağışlanma nəsib olmaz.

## Altıncı məsələ: Cümə gününün sünnələri:

1- Cümə günü fəcr namazında əs-Səcdə və əl-İnsan surələrini oxumaq sünnədir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, bu surələri daima oxuyar və tərk etməzdi. Əbu Hureyrə, Allah ondan razı olsun, demişdir:

«كَانَ النَّبِيُّ ﷺ يَقْرَأُ فِي الجُمُعَةِ فِي صَلَاةِ الفَجْرِ الم تَنْزِيلُ السَّجْدَةَ، وَهَلْ أَتَى عَلَى الإِنْسَانِ حِينٌ مِنَ الدَّهْرِ».

"Peyğəmbər, sallallahu aleyhi və səlləm, cümə günü fəcr namazında əs-Səcdə və əl-İnsan surələrini oxuyardı"[2].

2- Cümə günü qüsl almaq təkid edilmiş sünnədir. Çünki Abdullah bin Ömər - Allah onlardan razı olsun - rəvayət etmişdir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

---

[1] Hədisi Buxari: (910) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (891) və Müslim: (880) rəvayət etmişdir.

«إِذَا جَاءَ أَحَدُكُمْ الْجُمُعَةَ فَلْيَغْتَسِلْ»

«Sizdən kim cümə namazına gəlsə, qüsl alsın».[1] Buna həris olmaq və onu tərk etməmək lazımdır. Bu, xüsusən də pis qoxu gələn adamlara daha çox aiddir.

Cümə qüslunun vaxtı sübh açıldıqdan başlayır. Cənabət qüslu cümə qüslu üçün də kifayət edər. Çünki cümə qüslundan məqsəd bədəni təmizləmək və pis qoxuları aradan qaldırmaqdır və bu məqsəd cənabət qüslu ilə də hasil olur. Lakin, bununla əcr qazanmaq üçün cənabət qüslunu alarkən cümə qüsluna da niyyət etmək şəriətə uyğundur.

3- Ətirlənmək, təmizlənmək və bədəndən təmizlənməli olan şeyləri, məsələn: dırnaqları qısaltmaq, övrət yerini qırxmaq, qoltuqaltını yolmaq və bığları qısaltmaq sünnədir. Salman əl-Farsi - Allah ondan razı olsun - rəvayət edir ki, Allahın elçisi, sallallahu aleyhi və səlləm, demişdir:

«مَنِ اغْتَسَلَ يَوْمَ الْجُمُعَةِ، وَتَطَهَّرَ بِمَا اسْتَطَاعَ مِنْ طُهْرٍ، ثُمَّ ادَّهَنَ أَوْ مَسَّ مِنْ طِيبٍ، ثُمَّ رَاحَ فَلَمْ يُفَرِّقْ بَيْنَ اثْنَيْنِ، فَصَلَّى مَا كُتِبَ لَهُ، ثُمَّ إِذَا خَرَجَ الإِمَامُ أَنْصَتَ، غُفِرَ لَهُ مَا بَيْنَهُ وَبَيْنَ الْجُمُعَةِ الأُخْرَى»

«Hər kim cümə günü qüsl edər, bacardığı qədər təmizlənər, sonra yağlanar və ya ətirlənər, sonra (cümə namazına) gedib iki nəfərin arasını ayırmadan ona yazılan namazı qılar, sonra da imam (xütbəyə) çıxdıqda susub dinləyərsə, onunla

[1] Hədisi Buxari: (877) və Müslim: (844) rəvayət etmişdir.

növbəti cümə arasındakı (kiçik) günahları bağışlanar».[1].

Həmçinin bu gündə misvakdan istifadə etməsi təkid edilir. Çünki Əbu Səid əl-Xudri, Allah ondan razı olsun, demişdir: "Mən şahidlik edirəm ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə buyurdu:

«الغُسْلُ يَوْمَ الجُمُعَةِ وَاجِبٌ عَلَى كُلِّ مُحْتَلِمٍ، وَأَنْ يَسْتَنَّ -أَيْ: يَسْتَاكُ- وَأَنْ يَمَسَّ طِيبًا إِنْ وَجَدَ»

«Cümə günü qüsl almaq hər bir həddi-buluğa çatan şəxsə vacibdir. Dişlərini təmizləməsi (yəni: misvaklaması) və əgər varsa ətir vurması isə sünnətdir».[2].

4- Ömər bin Xattabın - Allah ondan razı olsun - hədisinə əsasən, ən gözəl libasını geyinmək sünnədir.

«أَنَّهُ رَأَى حُلَّةً سِيرَاءَ عِنْدَ بَابِ المَسْجِدِ، فَقَالَ: يَا رَسُولَ اللَّهِ لَوِ اشْتَرَيْتَ هَذِهِ، فَلَبِسْتَهَا يَوْمَ الجُمُعَةِ وَلِلْوَفْدِ إِذَا قَدِمُوا عَلَيْكَ...»

«O, məscidin qapısının yanında ipək paltarı görüb dedi: "Ey Allahın elçisi! Yaxşı olar ki, bu paltarı alasan və onu həm cümə günləri, həm də yanına nümayəndələr gələndə geyəsən...».[3].

5- Cümə günü məscidə tez getmək sünnədir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, buna təşviq etmişdir. Bu barədə Əbu Hureyra - Allah

---

[1] Hədisi Buxari: (910) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (880) rəvayət etmişdir.
[3] Hədisi Buxari: (886) və Müslim: (2068) rəvayət etmişdir.

ondan razı olsun - rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«مَنِ اغْتَسَلَ يَوْمَ الجُمُعَةِ غُسْلَ الجَنَابَةِ -أَيْ: غُسْلًا صِفَتُهُ كَصِفَةِ غُسْلِ الجَنَابَةِ- ثُمَّ رَاحَ فَكَأَنَّمَا قَرَّبَ بَدَنَةً -وَهِيَ وَاحِدَةٌ مِنَ الإِبِلِ ذَكَرًا أَمْ أُنثَى- وَمَنْ رَاحَ فِي السَّاعَةِ الثَّانِيَةِ فَكَأَنَّمَا قَرَّبَ بَقَرَةً، وَمَن رَاحَ فِي السَّاعَةِ الثَّالِثَةِ فَكَأَنَّمَا قَرَّبَ كَبْشًا أَقْرَنَ، وَمَنْ رَاحَ فِي السَّاعَةِ الرَّابِعَةِ فَكَأَنَّمَا قَرَّبَ دَجَاجَةً، وَمَنْ رَاحَ فِي السَّاعَةِ الخَامِسَةِ فَكَأَنَّمَا قَرَّبَ بَيْضَةً، فَإِذَا خَرَجَ الإِمَامُ حَضَرَتِ المَلَائِكَةُ يَسْتَمِعُونَ الذِّكْرَ»

«Kim cümə günü cənabət qüslü kimi (yəni: onun qaydasında) qüsl alıb sonra cüməyə gedərsə, sanki bir dəvə (istər erkək olsun, istər dişi) qurban vermiş kimidir. Kim ikinci saatda gedərsə, sanki bir inək qurban vermiş kimidir. Kim üçüncü saatda gedərsə, sanki buynuzlu bir qoç qurban vermiş kimidir. Kim dördüncü saatda gedərsə, sanki bir toyuq qurban vermiş kimidir. Kim beşinci saatda gedərsə, sanki bir yumurta sədəqə vermiş kimidir. İmam xütbə verməyə çıxdıqda isə mələklər zikri dinləmək üçün gələrlər».[1].

6- Cümə günü imam xütbə verərkən məscidə daxil olanın, iki rükət namazı qısa şəkildə qıldıqdan sonra oturması sünnədir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, xütbə vaxtı məscidə daxil olan kimsəyə bunu əmr etmişdir. Cabir bin Abdullah - Allah onların ikisindən razı olsun - rəvayət edir ki, Suleyk əl-Ğatafani cümə günü, peyğəmbər, sallallahu aleyhi və səlləm, xütbə

[1] Hədisi Buxari: (881) və Müslim: (850) rəvayət etmişdir.

verərkən məscidə gəldi və oturdu. Peyğəmbər, sallallahu aleyhi və səlləm, ona dedi:

«يَا سُلَيْكُ قُمْ فَارْكَعْ رَكْعَتَيْنِ، وَتَجَوَّزْ فِيهِمَا»

«Ey Süleyk! Qalx, iki rükət namaz qıl və onları yüngül qıl». Sonra belə dedi:

«إِذَا جَاءَ أَحَدُكُمْ يَوْمَ الجُمُعَةِ، وَالإِمَامُ يَخْطُبُ، فَلْيَرْكَعْ رَكْعَتَيْنِ، وَلْيَتَجَوَّزْ فِيهِمَا»

«Sizdən biri cümə günü imam xütbə oxuyarkən gəldikdə, iki rükət namaz qılsın və onları yüngül qılsın».[1].

7- Cümə günü əl-Kəhf surəsini oxumaq sünnədir. Çünki Əbu Səid əl-Xudridən, Allah ondan razı olsun, rəvayət olunur ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«مَنْ قَرَأَ سُورَةَ الكَهْفِ يَوْمَ الجُمُعَةِ أَضَاءَ لَهُ مِنَ النُّورِ مَا بَيْنَ الجُمُعَتَيْنِ»

«Kim cümə günü əl-Kəhf surəsini oxuyarsa, iki cümə arasında onun üçün bir nur parlayar»[2].

8- Cümə günü və cümə gecəsi peyğəmbərə, sallallahu aleyhi və səlləm, çoxlu sayda salavat demək sünnədir. Çünki Əvs bin Əvs, Allah ondan razı olsun, rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«إِنَّ مِنْ أَفْضَلِ أَيَّامِكُمْ يَوْمَ الجُمُعَةِ، فَأَكْثِرُوا عَلَيَّ مِنَ الصَّلَاةِ فِيهِ؛ فَإِنَّ صَلَاتَكُمْ مَعْرُوضَةٌ عَلَيَّ»

---

[1] Hədisi Buxari: (930) və Müslim: (875) rəvayət etmişdir.

[2] Hədisi Hakim "Müstədrək" (3392) əsərində rəvayət etmişdir və hədis Əbu Səidə vəqf olması (dayanması) ilə məluldur (qüsurludur).

«Şübhəsiz ki, günlərinizin ən fəzilətlisi cümə günüdür. O gün mənə çoxlu salavat deyin. Çünki sizin salavatlarınız mənə ərz olunur». (130).[1]

9- Cümə günü, xüsusən də duaların qəbul olan saatlarında çoxlu dua etmək də sünnədir. Əbu Hureyra -Allah ondan razı olsun- rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, cümə gününü yada salıb və dedi:

«فِيهِ سَاعَةٌ، لَا يُوَافِقُهَا عَبْدٌ مُسْلِمٌ وَهُوَ قَائِمٌ يُصَلِّي، يَسْأَلُ اللَّهَ تَعَالَىٰ شَيْئًا إِلَّا أَعْطَاهُ إِيَّاهُ»

«Bu gündə elə bir saat var ki, müsəlman olan hər kim (həmin vaxt) qalxıb namaz qılaraq Uca Allahdan bir şey istəsə, Allah ona istədiyini mütləq verər».[2].

Cümə gününün bütün saatlarında duanın qəbul olunması ümid edilir. Lakin ən çox ümid edilən vaxt, imamın cümə günü xütbə oxumaq üçün oturduğu andan namaz qurtaranadək olan müddət, eləcə də məğrib namazını - istər məsciddə olsun, istərsə də evində - gözləyərək oturan kəs üçün cümə gününün son saatıdır. Əbu Musa əl-Əşari - Allah ondan razı olsun - rəvayət edir ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, cümə günündəki saat haqqında belə demişdir:

«هِيَ مَا بَيْنَ أَنْ يَجْلِسَ الإِمَامُ إِلَىٰ أَنْ تُقْضَى الصَّلَاةُ»

---

1 Hədisi Əbu Davud: (1531) rəvayət etmişdir.
2 Hədisi Buxari: (935) və Müslim: (852) rəvayət etmişdir.

«İmamın oturmasından namaz başa çatanadək olan vaxtdır».[1].

## Yeddinci məsələ: Cümənin nafilə namazları:

Cümə namazından qabaq ratibə sünnəsi yoxdur. Lakin cüməyə gələn kəsin hər iki rükətdən bir salam verməklə istədiyi qədər - iki, dörd, altı və ya daha çox rükət namaz qılması sünnədir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, buna həvəsləndirmişdir. Necə ki, Salman əl-Farisi, radiyallahu anhu, rəvayət edir ki, Allah rəsulu, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«مَنِ اغْتَسَلَ يَوْمَ الجُمُعَةِ... ثُمَّ رَاحَ فَلَمْ يُفَرِّقْ بَيْنَ اثْنَيْنِ، فَصَلَّى مَا كُتِبَ لَهُ، ثُمَّ إِذَا خَرَجَ الإِمَامُ أَنْصَتَ، غُفِرَ لَهُ مَا بَيْنَهُ وَبَيْنَ الجُمُعَةِ الأُخْرَى»

«Hər kim cümə günü qüsl alar... sonra (cümə namazına) gedər və iki nəfərin arasını ayırmadan ona yazılan namazı qılar, sonra da imam xütbə verməyə çıxdıqda susub dinləyərsə, onunla növbəti cümə arasında olan (kiçik günahları) bağışlanar».[2] Səhabələrin, Allah onlardan razı olsun, əməlinə və nafilə ibadətlər haqqında varid olan ümumi fəzilətə görə.

Amma ratibə sünnəsi cümədən sonradır. Evində iki rükət yaxud məsciddə dörd rükət qılar.

«فَقَدْ كَانَ النَّبِيُّ ﷺ يُصَلِّي بَعْدَ الجُمُعَةِ رَكْعَتَيْنِ فِي بَيْتِهِ».

---

[1] Hədisi Müslim: (853) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (910) rəvayət etmişdir.

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, cümə namazından sonra evində iki rükət namaz qılardı»[1]. Əbu Hureyrə, Allah ondan razı olsun, demişdir ki, Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə demişdir:

«إِذَا صَلَّى أَحَدُكُمْ الجُمُعَةَ فَلْيُصَلِّ بَعْدَهَا أَرْبَعًا»

«Sizdən kim cümə namazını qıldısa, qoy cümədən sonra dörd rükət qılsın».[2].

Cümənin ratibə sünnəsi məsciddə qılınsa dörd rükət, evdə qılınsa iki rükət qılınmalıdır.

## İkinci bölmə: Cümə xütbəsi

### Birinci məsələ: Cümə xütbəsi:

Bu, cümə namazından öncə insanlar qarşısında söylənilən bir nitq (xütbə) olub, Allaha həmd-sənanı, peyğəmbərə, sallallahu aleyhi və səlləm, salavat və salamı, vəz və xatırlatmanı ehtiva edir[3].

### İkinci məsələ: Xütbənin hökmü:

Xütbə cümə namazının şərtidir və onsuz cümə namazı səhih deyildir. Çünki Uca Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِذَا نُودِيَ لِلصَّلَوٰةِ مِن يَوۡمِ ٱلۡجُمُعَةِ فَٱسۡعَوۡاْ إِلَىٰ ذِكۡرِ ٱللَّهِ...﴾

"Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığı zaman Allahı yad etməyə tələsin..."

---

[1] Hədisi Buxari: (937) və Müslim: (729) İbn Ömərdən, Allah onlardan razı olsun, rəvayət etmişdir.

[2] Hədisi Müslim: (881) rəvayət etmişdir.

[3] Bax: Mucəm Lüğət əl-Fuqəha, (səh: 197), və əl-Huceylanın "Cümə xütbəsi və onun fiqhi hökmləri" əsəri, (səh: 22).

(Cümə 62 surəsi, ayə 9). Allahın zikri "xütbə" kimi təfsir edilmişdir[1]. Əgər xütbə vacib olmasaydı, xütbəyə tələsmək də vacib olmazdı. Həmçinin bəllidir ki peyğəmbər, sallallahu aleyhi və səlləm, bu xütbəni daima verərdi və heç bir zaman onu tərk etməzdi.

İmam İbn Qudamə əl-Hənbəli, Allah ona rəhmət etsin, demişdir: "Xülasə budur ki, xütbə cümə namazının şərtidir və onsuz cümə namazı səhih deyildir"[2].

**Üçüncü məsələ: Xütbənin şərtləri:**

1- İki xütbə olması. Çünki Abdullah bin Ömər - Allah onların ikisindən razı olsun - demişdir:

«كَانَ النَّبِيُّ ﷺ يَخْطُبُ خُطْبَتَيْنِ يَقْعُدُ بَيْنَهُمَا».

"Peyğəmbər, sallallahu aleyhi və səlləm, iki xütbə oxuyardı və iki xütbə arasında da oturardı"[3].

2- Cümə namazı vaxtı daxil olduqdan sonra qılınmalıdır. Əgər namazın özü və ya bir hissəsi vaxtından əvvəl qılınarsa, keçərli sayılmaz.

3- İki xütbənin namazdan əvvəl olması. Əs-Səib bin Yezid - Allah ondan razı olsun - rəvayət edir ki,

«إِنَّ الأَذَانَ يَوْمَ الجُمُعَةِ كَانَ أَوَّلُهُ حِينَ يَجْلِسُ الإِمَامُ يَوْمَ الجُمُعَةِ عَلَى المِنْبَرِ فِي عَهْدِ رَسُولِ اللَّهِ ﷺ وَأَبِي بَكْرٍ وَعُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا»

"Peyğəmbərin, sallallahu aleyhi və səlləm, Əbu Bəkr və Ömərin - Allah onlardan razı olsun -

[1] Bax: Təfsir ət-Təbəri: (22/642).
[2] əl-Muğni: (2/224).
[3] Hədisi Buxari: (928) rəvayət etmişdir.

dövründə cümə günü azan, imam minbərə oturduğu vaxt verilərdi”[1]. Bu isə iki xütbənin namazdan əvvəl verilməsinə aydın bir dəlildir.

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«صَلُّوا كَمَا رَأَيْتُمُونِي أُصَلِّي»

«Mənim necə namaz qıldığımı görürsünüzsə, siz də elə namaz qılın!».[2] Peyğəmbər, sallallahu əleyhi va səlləm, namazı yalnız iki xütbədən sonra qılmışdır. əl-Mərdavi isə belə demişdir: "Onların (yəni: iki xütbənin) namazdan qabaq olması ixtilafsız olaraq şərtdir"[3].

4- Xütbənin hissələri arasında ardıcıllıq (fasiləsizlik) olmalıdır. İmam İbn Qudamə, Allah ona rəhmət etsin, demişdir: "Ardıcıllıq xütbənin səhih olması üçün şərtdir. Əgər (xətib) xütbənin hissələri arasına uzun danışıqla və ya uzun sükutla və ya ardıcıllığı pozan başqa bir şeylə fasilə salarsa, xütbəyə yenidən başlamalıdır. Fasilənin uzun və ya qısa olmasının təyini isə ürfə (adətə) əsaslanır. Həmçinin xütbə ilə namaz arasında da ardıcıllıq şərt qoyulur. Əgər (xətib) dəstəmaz almağa ehtiyac duyarsa, dəstəmaz alar və fasilə uzun çəkməzsə, xütbəsinə qaldığı yerdən davam edər"[4].

---

1 Hədisi Buxari: (916) rəvayət etmişdir.

2 Hədisi Buxari: (631) Malik ibn Huveyrisdən, Allah ondan razı olsun, rəvayət etmişdir.

3 Əl-İnsaf: (2/389).

4 əl-Muğni: (2/230).

5- Xütbəni yüksək səslə vermək. Çünki xütbə vacibdir və cümə namazının səhih olması üçün şərtdir. Onu yüksək səslə vermək isə xütbənin əda edilməsi və ondan güdülən məqsədin – öyüd-nəsihət və xatırlatmanın – həyata keçirilməsi üçün bir vasitədir. Bir vacibin yerinə yetirilməsi üçün zəruri olan şey də vacibdir.

6- Cümə namazının səhih olması üçün tələb olunan sayda insanın iştirak etməsi. Çünki xütbə, iştirakı vacib olan bir zikrdir və buna görə də həmin sayda insanın ona qulaq asması vacibdir.

## Dördüncü məsələ: Xütbənin ərkanları:

1- Xütbəni Uca Allaha həmd-səna ilə başlaması. Çünki Cabir bir Abdullah, Allah onlardan razı olsun, belə demişdir:

«كَانَتْ خُطْبَةُ النَّبِيِّ ﷺ يَوْمَ الجُمُعَةِ يَحْمَدُ اللَّهَ، وَيُثْنِي عَلَيْهِ، ثُمَّ يَقُولُ عَلَىٰ إِثْرِ ذَٰلِكَ...» الحديث.

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, cümə günü xütbə verdikdə Allaha həmd-səna edər, sonra da bunun ardınca belə buyurardı...» hədisi[1].

2- Xütbənin peyğəmbərə, sallallahu aleyhi və səlləm, salavatı ehtiva etməsi. Çünki xütbələrdə peyğəmbərə, sallallahu aleyhi və səlləm, salavat gətirmək səhabələrin, Allah onlardan razı olsun, nəzdində bilinən və məşhur bir əməldir[2].

---

[1] Hədisi Müslim: (867) rəvayət etmişdir.
[2] Bax: İbn əl-Qeyyimin,Ciləu-l-Əfham, (səh: 371).

2- Xütbənin öyüd-nəsihət və Uca Allah təqvasına dair tövsiyəni ehtiva etməsi. Cabir bin Səmurə - Allah ondan razı olsun - demişdir:

«كَانَتْ لِلنَّبِيِّ ﷺ خُطْبَتَانِ، يَجْلِسُ بَيْنَهُمَا، يَقْرَأُ الْقُرْآنَ، وَيُذَكِّرُ النَّاسَ»؛

"Peyğəmbər, sallallahu aleyhi və səlləm, iki xütbə oxuyardı. Onların arasında oturar, Quran oxuyar və insanlara öyüd-nəsihət verərdi"[1]. Çünki xütbədən məqsəd də budur.

4- Qurani-Kərimdən bir hissə oxumaq. Cabir bin Səmurənin, Allah ondan razı olsun, rəvayət etdiyi hədisə görə:

«كَانَتْ لِلنَّبِيِّ ﷺ خُطْبَتَانِ، يَجْلِسُ بَيْنَهُمَا، يَقْرَأُ الْقُرْآنَ، وَيُذَكِّرُ النَّاسَ».

"Peyğəmbərin, sallallahu aleyhi və səlləm, iki xütbəsi olardı. Onların arasında oturar, Quran oxuyar və insanlara öyüd-nəsihət verərdi".

## Beşinci məsələ: Xütbənin sünnələri:

Minbər və ya hündür bir yerin üzərində xütbə vermək.

«فَقَدْ صُنِعَ لَهُ ﷺ مِنبرٌ، فَخَطَبَ عَلَيْهِ يَوْمَ الْجُمُعَةِ»،

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, üçün bir minbər düzəldildi, o da cümə günü onun üzərində xütbə verdi»[2]. Çoxsaylı səhabələrdən - Allah onlardan razı olsun - mütəvatir hədislərlə rəvayət olunmuşdur ki, peyğəmbər, sallallahu aleyhi və

[1] Hədisi Müslim: (862) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (2095) Cabirdən, Allah ondan razı olsun, rəvayət etmişdir.

səlləm, minbər üzərində xütbə verərdi[1]. İmam Nəvəvi - Allah ona rəhmət etsin - bunun müstəhəb olması barədə icma olduğunu nəql edərək belə demişdir: "Alimlər, xütbənin minbər üzərində verilməsinin müstəhəb olduğuna dair icma etmişlər"[2]. Çünki bu, təbliğin çatdırılmasında daha təsirlidir. Həmçinin insanlar xətibi gördükdə, nəsihət onlar üçün daha təsirli olur.

2- Xətib xütbə zamanı ayaq üstə durmalıdır. Çünki Uca Allah buyurur:

﴿وَإِذَا رَأَوۡاْ تِجَٰرَةً أَوۡ لَهۡوًا ٱنفَضُّوٓاْ إِلَيۡهَا وَتَرَكُوكَ قَآئِمًا...﴾

"Onlar ticarət və ya əyləncə gördükləri zaman dağılışıb ona tərəf qaçdılar və səni (minbərdə xütbə oxuyarkən) ayaq üstə olduğun halda tərk etdilər..." (Cumuə 52 surəsi, ayə 11). Abdullah bin Ömər - Allah onların hər ikisindən razı olsun - rəvayət edir ki,

«كَانَ النَّبِيُّ ﷺ يَخْطُبُ قَائِمًا، ثُمَّ يَقْعُدُ، ثُمَّ يَقُومُ كَمَا تَفْعَلُونَ الآنَ».

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, ayaq üstə xütbə verərdi, sonra oturardı, sonra da sizin indi etdiyiniz kimi ayağa qalxardı»[3].

3- Xətibin üzünü camaata tərəf tutması sünnədir. Abdullah bin Ömərdən, Allah onların hər ikisindən razı olsun, rəvayət edilir ki,

---

1 Bax: "İrva əl-ğəlil fi təxric əhadis mənar əs-səbil": (3/75/) və davamı.
2 "Əl-Məcmu şərh əl-mühəzzəb": (4/527).
3 Hədisi Buxari: (920) və Müslim: (861) rəvayət etmişdir.

«أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا دَنَا مِنْ مِنْبَرِهِ يَوْمَ الجُمُعَةِ سَلَّمَ عَلَى مَنْ عِنْدَهُ مِنَ الجُلُوسِ، فَإِذَا صَعِدَ المَنبرَ اسْتَقْبَلَ النَّاسَ بِوَجْهِهِ ثُمَّ سَلَّمَ».

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, cümə günü minbərinə yaxınlaşdıqda orada əyləşənlərə salam verər, minbərə çıxdıqda isə üzünü insanlara tərəf çevirib sonra yenidən salam verərdi»[1].

Hafiz İbn Rəcəb demişdir: "İmamın üzünü məscid əhlinə, arxasını isə qibləyə çevirməsi barədə alimlər icma etmişlər. Həmçinin, şəri dəlillər də buna dəlalət edir. Çünki imam onlara xitab edir ki, dediklərini anlasınlar. Bütün bunlar sünnədir. Əgər imam buna müxalif olarsa, sünnəyə müxalif olmuş olar, lakin cüməsi səhihdir"[2].

4- İmamın üzünü insanlara tərəf çevirdiyi vaxt onlara salam verməsi sünnədir. Buna dəlil Cabirin - Allah ondan razı olsun - rəvayət etdiyi hədisdir.

«أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا صَعِدَ المِنْبَرَ سَلَّمَ».

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, minbərə qalxdığı vaxt salam verərdi»[3].

5- İmamın, müəzzinin azanı bitirənə qədər minbərdə oturması da sünnədir. Abdullah bin Ömər - Allah onların hər ikisindən razı olsun - rəvayət edir ki:

«كَانَ النَّبِيُّ ﷺ يَخْطُبُ خُطْبَتَيْنِ، كَانَ يَجْلِسُ إِذَا صَعِدَ المَنبرَ حَتَّى يَفْرُغَ المُؤَذِّنُ، ثُمَّ يَقُومُ فَيَخْطُبُ، ثُمَّ يَجْلِسُ فَلَا يَتَكَلَّمُ، ثُمَّ يَقُومُ فَيَخْطُبُ».

---

1 Hədisi əl-Beyhəqi "əs-Sünən əl-Kubra" (5742) əsərində rəvayət etmişdir.
2 İbn Rəcəbin "Fəth əl-Bari" əsəri: (8/250).
3 Hədisi İbn Macə: (1109) rəvayət etmişdir.

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, iki xütbə verərdi. Minbərə qalxdığı zaman müəzzin (azanı) bitirənə qədər oturardı, sonra qalxıb xütbə verərdi. Sonra oturub danışmazdı, sonra yenidən qalxıb xütbə verərdi»[1]. Rəvayət edilir ki, əs-Saib bin Yezid - Allah ondan razı olsun - demişdir:

«إِنَّ الأَذَانَ يَوْمَ الجُمُعَةِ كَانَ أَوَّلُهُ حِينَ يَجْلِسُ الإِمَامُ يَوْمَ الجُمُعَةِ عَلَى المِنْبَرِ فِي عَهْدِ رَسُولِ اللَّهِ ﷺ وَأَبِي بَكْرٍ وَعُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا».

"Peyğəmbərin, sallallahu aleyhi və səlləm, Əbu Bəkr və Ömərin - Allah onlardan razı olsun - dövründə cümə günü azan imam minbərdə oturduğu vaxt verilərdi"[2].

6- Xütbəni gücü çatdığı qədər yüksək səslə vermək də sünnədir. Cabir ibn Abdullah - Allah onların ikisindən razı olsun - rəvayət edir ki: peyğəmbər, sallallahu aleyhi və səlləm, xütbə verdikdə gözləri qızarardı, səsi ucalardı və qəzəbi şiddətlənərdi, sanki bir orduya xəbərdarlıq edən bir kəs kimi olardı və deyərdi:

«صَبَّحَكُمْ وَمَسَّاكُمْ»

«Düşməniniz sizə səhər və axşam gələcək».[3] (sabbahə-kum), yəni: qoşun səhər vaxtı sizə gəldi, və (məssə-kum), yəni: axşam vaxtı sizə gəldi. Kim bir kəsi qorxutsa, bu iki kəlməni deyə bilər.

---

1 Hədisi Əbu Davud: (1092) rəvayət etmişdir.
2 Hədisi Buxari: (916) rəvayət etmişdir.
3 Hədisi Müslim: (867) rəvayət etmişdir.

7- İki xütbə arasında bir qədər oturmaq. Abdullah bin Ömərin - Allah onların hər ikisindən razı olsun - hədisinə görə:

«كَانَ النَّبِيُّ ﷺ يَخْطُبُ خُطْبَتَيْنِ يَقْعُدُ بَيْنَهُمَا».

"Peyğəmbər, sallallahu aleyhi və səlləm, iki xütbə oxuyar, onların arasında da oturardı"[1].

8- İki xütbəni qısa etmək, ikinci xütbəni isə birincidən daha qısa etmək, namazı isə uzatmaq sünnədir. Ammar - Allah ondan razı olsun - rəvayət edir ki, Allahın elçisi, sallallahu aleyhi və səlləm, demişdir:

«إِنَّ طُولَ صَلَاةِ الرَّجُلِ وَقِصَرَ خُطْبَتِهِ مَئِنَّةٌ -أَيْ: عَلَامَةٌ- مِنْ فِقْهِهِ، فَأَطِيلُوا الصَّلَاةَ، وَاقْصُرُوا الْخُطْبَةَ»

«İmamın namazı üzün, xütbəni qısa etməsi onun dini anlamasının əlamətidir. Namazı uzadın, xütbəni qısaldın».[2].

9- Müsəlmanların dini və dünyəvi işlərinin islahı üçün dua edilməsi və müsəlmanların rəhbərlərinə işlərində uğur və müvəffəqiyyət üçün dua edilməsi sünnədir. Nəvəvi, Allah ona rəhmət etsin, dedi: "Müsəlmanların rəhbərlərinə və idarəçilərinə islah olmaları, haqqı dəstəkləməkdə və ədaləti bərqərar etməkdə onlara yardım olunması və bu kimi digər xeyirli işlər üçün, eləcə də İslam ordularına dua etmək ittifaqla müstəhəbdir"[3].

---

1 Hədisi Buxari: (928) rəvayət etmişdir.
2 Hədisi Müslim: (869) rəvayət etmişdir.
3 "Əl-Məcmu şərhul-mühəzzəb": (4/521).

İstisqa (yağış diləmə) istisna olmaqla, imamın cümə xütbəsində dua edərkən əllərini qaldırması məşru deyil, dua zamanı şəhadət barmağı ilə işarə etməsi isə müstəhəbdir. Belə ki, Umarə bin Rueybə, Allah ondan razı olsun, Bişr bin Mərvanı minbərin üzərində əllərini qaldırdığını görüb dedi:

«قَبَّحَ اللَّهُ هَاتَيْنِ الْيَدَيْنِ؛ لَقَدْ رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ مَا يَزِيدُ عَلَىٰ أَنْ يَقُولَ بِيدِهِ هَكَذَا، وَأَشَارَ بِإِصْبِعِهِ الْمُسَبِّحَةِ».

«Allah bu iki əli qəbih etsin! Çünki mən rəsulu-Llahı, sallallahu aleyhi və səlləm, gördümki, o, əli ilə belə etməkdən artığını etməzdi" - və o (Umarə), şəhadət barmağı ilə işarə etdi»[1].

10- Xütbəni verənin namazı da qıldırması. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, onların hər ikisini özü yerinə yetirərdi. Ondan sonrakı xəlifələri də həmçinin belə ediblər. Əgər üzrlü səbəbə görə bir nəfər xütbə verər, başqa birisi isə namaz qıldırarsa, bu caizdir[2].

## Altıncı məsələ: Cümə xütbəsinin tərcümə edilməsi:

Əhalisinin və ya əksəriyyətinin ərəb dilini bilmədiyi ölkələrdə xətibin öz dillərində xütbə verməsi icazəlidir ki, onlar xütbəni başa düşsünlər, ondan olan məqsəd həyata keçsin və onun xütbədə olan elmdən, moizədən və öyüd-nəsihətdən

---

1 Hədisi Müslim: (874) rəvayət etmişdir.
2 İbn Qudamə, "əl-Muğni": (2/228).

faydalansınlar. Çünki peyğəmbərdən, sallallahu aleyhi və səlləm, cümə xütbəsinin ərəb dilində olmasının şərt olduğuna dəlalət edən bir şey sabit olmamışdır. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, yalnız özünün və qövmünün dili olduğu üçün bu dildə xütbə verərdi.

Xətibin, peyğəmbərə, sallallahu aleyhi və səlləm, xütbələrində iqtida etməsi və bu məsələdəki ixtilafdan çıxması üçün xütbəni ərəb dilində verib, sonra isə onu öz ölkəsinin dilinə tərcümə etməsi daha üstündür.

Tərcümədə dinləyicilər üçün ən məsləhətli olan üsul nəzərə alınır. Tərcümə ya xütbənin hər bir hissəsinin ardınca edilir ya da ərəb dilindəki xütbə başa çatdıqdan sonra namazdan əvvələ saxlanılır.

Həmçinin xütbənin sinxron tərcümə edilməsi, bu tərcümənin yayım vasitəsilə yayımlanması və ərəb dilini yaxşı bilməyən namaz qılanların həmin tərcüməni dinləmək üçün qulaqcıqlardan istifadə etməsi caizdir. Bunda ümumi fayda olduğu və xütbədən güdülən məqsəd reallaşdığı üçün bu, nə tərcüməçi, nə də dinləyici tərəfindən qadağan edilmiş boş söz sayılmır.

## Yeddinci məsələ: Xətibin şərtləri:

Məscid xətibi məscidin dirəyi və qüvvəsi sayılır. Məscid onun vasitəsilə dəvəti yaymaq, cəmiyyəti maarifləndirmək və insanları dinləri barədə məlumatlandırmaq kimi öz missiyasını yerinə

yetirir. Əgər xətib alim, ağıllı, bəsirətli, insanların adət-ənənələrini və hallarını bilən olarsa, onun məscid camaatına və məscidin yerləşdiyi məhəllənin sakinlərinə təsiri yaxşı və faydalı olar. Onlara dinlərini öyrədər, doğru yolu göstərər və onları hər cür xeyirə və fəzilətə yönəldər.

Xətiblik şərtlərini özündə cəm edən xətiblər də məhz belə olmuşlar. İslamın ilk dövrlərində xətib peyğəmbər, sallallahu əleyhi va səlləm, özü idi, sonra onun raşidi xəlifələri, daha sonra isə əmirlər, sərkərdələr, alimlər və görkəmli şəxslər. Bu da onu göstərir ki, bu vəzifəni icra edən şəxsin din, əxlaq, elm və davranış baxımından yüksək məqamda olması vacibdir.

Məhz burada bu vəzifənin insanların həyatındakı əhəmiyyəti üzə çıxır. Belə ki, xətiblərin gücü öz cəmiyyətlərində, zəifliyi isə öz təsirini həmin cəmiyyətlərdə göstərir. Çünki cəmiyyətə sözlə əməli birləşdirməyi öyrədən məhz məsciddir. Əgər xətib elm, əql və şəxsiyyət baxımından zəif yaxud pis əxlaq və davranış sahibi olarsa, o, fayda deyil, zərər verər. Xətibin vəzifəsi namaz qılanları xeyirə, yaxşılığa və salehliyə yönəltmək olduğu üçün, cahil bir xətibin bu uca vəzifəni yerinə yetirməsi çox çətindir.

Bəzən xütbə verən kəs elm və şəxsi qabiliyyət cəhətdən bu vəzifənin şərtlərinə cavab versə də, fəaliyyətinin səviyyəsinə təsir göstərən başqa işlərlə məşğul olur.

Eləcə də o, vəziyyətə uyğun xütbə hazırlamaq üçün kifayət qədər vaxt tapmaya bilər və beləliklə insanların qarşısına - İbn Qayyim əl-Cövziyyənin, Allah ona rəhmət etsin, dediyi kimi - elə bir xütbə ilə çıxar ki, o, nə qəlbdə Allaha iman, Onun tövhidini və Ona xas olan bir mərifət hasil edər, nə Onun günlərini xatırladar, nə də nəfslərdə Ona qarşı məhəbbət və Onunla qarşılaşmağa şövq oyadar[1].

Bəzən də nəfsin istəyi, cahillik, münaqişələr və ya məzəmmət olunan ifratçılıq insana qalib gələrək onu obyektivlikdən, tərbiyəvi yönləndirmədən, hikmət və gözəl nəsihətlə dəvət etməkdən uzaqlaşdırar.

Həqiqətən, bu dində məscidin böyük təsiri vardır. Belə ki, o, qulun öz Rəbbi ilə bağ qurduğu, imanını gücləndirdiyi və qardaşları ilə bir araya gələrək fəziləti yaymaqda və rəzalətlə mübarizə aparmaqda əməkdaşlıq etdiyi bir hidayət məşəlidir. Məscid bu vəzifəni yalnız o zaman yerinə yetirə bilər ki, Uca Allah onun üçün bu böyük məqamı tutmaq və bu şərəfli vəzifənin öhdəliklərini yerinə yetirmək üçün tələb olunan elmi və əxlaqi keyfiyyətlərə sahib bir imam təyin etsin.

---

1 "Zədul-Məad fi hədyi xayril-İbəd": (1/409).

**Xətibdə olması vacib olan ən mühüm elmi keyfiyyətlər:**

1- Əməli ixlasla Uca Allah üçün etmək ki, o, Allah qatında və insanlar yanında dəstəklənən, yardım olunan, məqbul və sevilən olsun.

2 - Riyakarlıqdan və özünü göstərməkdən uzaq olmaq. Çünki əməllər ancaq niyyətlərə görədir və hər kəsə yalnız niyyət etdiyi şey vardır. Kim özünü onda olmayan bir şeylə göstərərsə, Allah onu rüsvay edər.

3- Allahın Kitabının hafizi olmalı yaxud ondan bir hissə əzbərləməli, əzbərlədiyini davamlı təkrarlamalı və Quran oxumaq üçün gündəlik virdi olmalıdır.

4- "Riyadus-Salihin", "Ərbəin ən-Nəvəviyyə", "Buluğul-Məram" və ya digər etibarlı hədis kitablarından bir neçə peyğəmbər ﷺ hədisi əzbərləmək.

5- Səhih əqidəni, yəni: saleh sələflərin əqidəsini öyrənmək.

6. Dinin hökmləri barəsində fiqh elmini, xüsusilə də ibadətlər fiqhini ən əsası təharət, namaz, zəkat və oruc və müamilələr fiqhini öyrənməlidir ki, qazanc və xərcləmə qaydalarını bilsin, insanları aldatmaqdan, saxtakarlıqdan, onların mallarını haqsız yerə mənimsəməkdən, eləcə də israfçılıq, bədxərclik, xəsislik və simiclikdən çəkindirsin və

nəticədə onların maliyyə davranışları Kitab və Sünnə işığında olsun.

7- Ərəb dilini yaxşı bilməlidir ki, Allahın öz rəsuluna, Allahın salavatı və salamı onun üzərinə olsun, nazil etdiklərinin mənalarını anlasın, çünki Quran ərəb dilində nazil edilmişdir.

8- Peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, həyatını, onun nəcib xüsusiyyətləri və saleh sələflərin həyatını oxumaq. Çünki bunlarda saleh nümunə, gözəl örnək, faydalı elmi sərvət və yüksək İslam mədəniyyəti vardır.

9- Sağlam əqidə, elm və ağılları ilə tanınan öz ölkəsinin alimlərini və digər dərin elmli alimləri tanımalı, ehtiyac duyduğu bütün dini məsələlərdə və cəmiyyətinin problemlərinin həllində onlara müraciət etməlidir.

10 - İslami firqələri və onların əqidələrini, fikri cərəyanları və onların məqsədlərini, dağıdıcı məzhəbləri və onların hədəflərini tanımaq. Belə ki, Uca Allahın kitabı, rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, sünnəsi və təhqiqatçı müsəlman alimlərinin yazdıqları işığında - onlarla müzakirə apara bilsin, onların saxtakarlığını tənqid etsin və batilindən çəkindirsin.

11- Müsəlmanların vəziyyəti, zəifliyi və düşmənlərin onlar üzərindəki hökmranlığı ilə maraqlanmalı, bunun səbəbinin onların Allahın doğru-düzgün yolundan uzaqlaşmaları, Allaha olan imanlarının və Onun şəriətinə tabeçiliklərinin zəif

olması olduğunu bilməli və onlara dinlərində və dünyalarında faydalı olan şeyləri öyrətməyə səy göstərməlidir.

12- Müxtəlif media vasitələri ilə tanış olmaq, onların müsbət və mənfi cəhətlərini, eləcə də Allah yoluna dəvətdə onlardan necə faydalanmaq lazım olduğunu bilmək və bu vasitələrin həm özü, həm də cəmiyyəti üçün daşıdığı təhlükələrdən çəkinmək.

Cümə xətibində bu xüsusiyyətlərin olması, Uca Allahın izni ilə doğruluq və tarazlıq yaradar.

**Ən mühüm əxlaqi keyfiyyətlər:**

1- Məscid xətibi, məscid camaatı və məscidə gələn məhəllə əhli və digər insanlar üçün bir dəvətçi və müəllim olmalıdır. Buna görə də o, Allah rəsulunu, sallallahu aleyhi və səlləm, özünə örnək götürməlidir. Çünki o, saleh bir örnək, gözəl bir nümunə, ümmət və rəhbərlər üçün ən uca bir misaldır. Uca Allahu buyurur:

﴿لَّقَدۡ كَانَ لَكُمۡ فِي رَسُولِ ٱللَّهِ أُسۡوَةٌ حَسَنَةٞ لِّمَن كَانَ يَرۡجُواْ ٱللَّهَ وَٱلۡيَوۡمَ ٱلۡأٓخِرَ وَذَكَرَ ٱللَّهَ كَثِيرٗا21﴾

"Allahın rəsulunda sizlər, Allaha və Axirət gününə ümidini bağlayanlar və Allahı çox zikr edənlər üçün gözəl örnək vardır". (Əhzab 33 surəsi, ayə 21).

Özünü və məscidə gələnləri dünyəvi və siyasi söhbətlərdən uzaq tutmalı, məscidi yalnız elm və ibadət məkanı etməlidir.

2- Özünün təmiz və səliqəli olması, eləcə də məscidin təmizliyinə riayət etməsi, əşyalarını səliqəyə salıb nizamlaması, məscid ləvazimatlarını qoruması, bu işlərdə israfçılıqdan uzaq durması və məscidi bəzəməkdən çəkinməsi.

3- Gözəl davranış və görkəm sahibi olması, peyğəmbərin, sallallahu aleyhi va səlləm, sünnəsinə əməl edərək saqqal saxlaması və bığını qısaltması, paltarını topuqdan aşağı sallamaqdan çəkinməsi, vüqarlı və təmkinli olması və keçmiş saleh sələflərin, Allah onlara rəhmət etsin, yolunu izləməsi.

4- Mülayim, həlim və rəhimli olmaq. Çünki hədisdə də gəldiyi kimi, hər bir əməldə yumşaqlıq əməli bəzəyər, yoxluğu isə həmin əməli çirkin edər. Belə ki, Aişədən, Allah ondan razı olsun, rəvayət olunur ki, peyğəmbər, sallallahu əleyhi va səlləm, belə buyurmuşdur:

«إِنَّ الرِّفْقَ لَا يَكُونُ فِي شَيْءٍ إِلَّا زَانَهُ، وَلَا يُنْزَعُ مِنْ شَيْءٍ إِلَّا شَانَهُ»

«Həqiqətən hər bir əməldə yumşaq davranmaq əməli bəzəyər, yoxluğu isə həmin əməli çirkin edər».[1].

Məscidə gələnlərdən biri səhv etdikdə, xətib onu danlamamalı, əksinə, ona yumşaq bir şəkildə nəsihət etməli və gözəl şəkildə öyrətməlidir. Muaviyə bin əl-Həkəm əs-Suləmi - Allah ondan razı olsun - belə demişdir:

---

[1] Hədisi Müslim: (2594) rəvayət etmişdir.

بَيْنَمَا أَنَا أُصَلِّي مَعَ رَسُولِ اللَّهِ ﷺ؛ إِذْ عَطَسَ رَجُلٌ مِنَ الْقَوْمِ، فَقُلْتُ: يَرْحَمُكَ اللَّهُ، فَرَامَنِي الْقَوْمُ بِأَبْصَارِهِمْ، فَقُلْتُ: وَاثُكْلَ أُمِّيَاه، مَا شَأْنُكُمْ تَنظُرُونَ إِلَيَّ؟ فَجَعَلُوا يَضْرِبُونَ بِأَيْدِيهِمْ عَلَى أَفْخَاذِهِمْ، فَلَمَّا رَأَيْتُهُمْ يُصَمِّتُونَنِي لَكِنِّي سَكَتُّ، فَلَمَّا صَلَّى رَسُولُ اللَّهِ ﷺ، فَبِأَبِي هُوَ وَأُمِّي، مَا رَأَيْتُ مُعَلِّمًا قَبْلَهُ وَلَا بَعْدَهُ أَحْسَنَ تَعْلِيمًا مِّنْهُ، فَوَاللَّهِ مَا كَهَرَنِي -أَيْ: مَا قَهَرَنِي وَلَا نَهَرَنِي- وَلَا ضَرَبَنِي وَلَا شَتَمَنِي، قَالَ: «إِنَّ هَذِهِ الصَّلَاةَ لَا يَصْلُحُ فِيهَا شَيْءٌ مِنْ كَلَامِ النَّاسِ، إِنَّمَا هِيَ التَّسْبِيحُ وَالتَّكْبِيرُ وَقِرَاءَةُ الْقُرْآنِ»

Allah rəsulu, sallallahu aleyhi va səlləm, ilə birlikdə namaz qılarkən, camaatdan bir kişi asqırdı. Mən də: “Allah sənə rəhm etsin” dedim. Camaatın baxışları üzərimə dikildi. Mən də: “Vay anam, vay! Nə olub ki, mənə baxırsınız?” dedim. Onlar əlləri ilə budlarına vurmağa başladılar. Onların məni susdurmaq istədiklərini gördükdə, mən də susdum. Allah rəsulu, sallallahu aleyhi va səlləm, namazı bitirdikdə, anam-atam ona fəda olsun, nə ondan əvvəl, nə də ondan sonra ondan daha gözəl öyrədən bir müəllim görmədim. Allaha and olsun ki, o, məni nə danladı, nə vurdu, nə də söydü. O, buyurdu: “Həqiqətən, bu namazda insan kəlamından bir şey danışmaq olmaz. O, ancaq təsbih, təkbir və Quran oxumaqdan ibarətdir”.[1].

5- İnsanların ətrafına toplanaraq onun şəfqətindən, yardımından və elmindən faydalanmaları üçün mülayim və ürəyiyumşaq olmalı, onların çətinliklərində və ehtiyaclarında

[1] Hədisi Müslim: (537) rəvayət etmişdir.

yanlarında durmalı, məscidlə bağlı məsələlərdə isə onlarla məşvərət etməlidir.

Allahın elçisi, Allahın salavatı və salamı onun üzərinə olsun, bütün bunların ən uca məqamında idi, necə ki, Uca Allah onun haqqında belə buyurmuşdur:

﴿فَبِمَا رَحۡمَةٖ مِّنَ ٱللَّهِ لِنتَ لَهُمۡۖ وَلَوۡ كُنتَ فَظًّا غَلِيظَ ٱلۡقَلۡبِ لَٱنفَضُّواْ مِنۡ حَوۡلِكَۖ فَٱعۡفُ عَنۡهُمۡ وَٱسۡتَغۡفِرۡ لَهُمۡ وَشَاوِرۡهُمۡ فِي ٱلۡأَمۡرِۖ فَإِذَا عَزَمۡتَ فَتَوَكَّلۡ عَلَى ٱللَّهِۚ إِنَّ ٱللَّهَ يُحِبُّ ٱلۡمُتَوَكِّلِينَ159﴾

"Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər kobud və daş qəlbli olsaydın, heç şübhəsiz, onlar sənin ətrafından dağılıb gedərdilər. Elə isə onları əfv et, onlar üçün (Allahdan) bağışlanma dilə və (görəcəyin) işlər barədə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevər". (Əli İmran 3 surəsi, ayə 159).

6- Məscidində və camaatı arasında imamlıq şərəfinə layiq olmaq üçün səbir və yəqinliklə səciyyələnməlidir. Həqiqətən də, səbir və yəqinlik qulu dində imamlıq mərtəbəsinə yüksəldir. Uca Allah buyurur:

﴿وَجَعَلۡنَا مِنۡهُمۡ أَئِمَّةٗ يَهۡدُونَ بِأَمۡرِنَا لَمَّا صَبَرُواْۖ وَكَانُواْ بِـَٔايَٰتِنَا يُوقِنُونَ24﴾

"Səbir etdiklərinə və ayələrimizə yəqinliklə inandıqlarına görə Biz əmrimizlə onlardan doğru yolu göstərən rəhbərlər təyin etmişdik". (Səcdə 32 surəsi, ayə 24).

7- O, doğru danışan, hidayət tapan və nicat tapanlardan olması üçün, həm cümə xütbəsində, həm təlim və moizə dərsində, həm də insanlarla danışığında söylədiklərində doğru olmalıdır. Belə ki, hədisdə peyğəmbərdən, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurduğu rəvayət olunur:

«عَلَيْكُم بِالصِّدْقِ؛ فَإِنَّ الصِّدْقَ يَهْدِي إِلَى البِرِّ، وَإِنَّ البِرَّ يَهْدِي إِلَى الجَنَّةِ، وَمَا يَزَالُ الرَّجُلُ يَصْدُقُ وَيَتَحَرَّى الصِّدْقَ حَتَّى يُكْتَبَ عِندَ اللَّهِ صِدِّيقًا، وَإِيَّاكُمْ وَالكَذِبَ، فَإِنَّ الكَذِبَ يَهْدِي إِلَى الفُجُورِ، وَإِنَّ الفُجُورَ يَهْدِي إِلَى النَّارِ، وَمَا يَزَالُ الرَّجُلُ يَكْذِبُ وَيَتَحَرَّى الكَذِبَ حَتَّى يُكْتَبَ عِندَ اللَّهِ كَذَّابًا»

«Doğru olun. Çünki doğruluq yaxşı işlərə yönəldir, yaxşı işlər isə Cənnətə aparır. İnsan o qədər doğru danışar və doğruluğa can atar ki, nəhayət, Allah yanında doğru danışan olaraq yazılar. Yalandan çəkinin. Çünki yalan günah işlərə yönəldir, günah işlər isə Cəhənnəmə aparır. İnsan o qədər yalan danışar və ona bağlı qalar ki, nəhayət, Allah yanında yalançı olaraq yazılar».[1].

Yalan şər və bəladır. Yalanların ən böyüyü isə Uca Allah adından yalan danışmaq və Onun haqqında elmsiz danışmaqdır. Uca Allah buyurur:

﴿قُلۡ إِنَّمَا حَرَّمَ رَبِّيَ ٱلۡفَوَٰحِشَ مَا ظَهَرَ مِنۡهَا وَمَا بَطَنَ وَٱلۡإِثۡمَ وَٱلۡبَغۡيَ بِغَيۡرِ ٱلۡحَقِّ وَأَن تُشۡرِكُواْ بِٱللَّهِ مَا لَمۡ يُنَزِّلۡ بِهِۦ سُلۡطَٰنٗا وَأَن تَقُولُواْ عَلَى ٱللَّهِ مَا لَا تَعۡلَمُونَ33﴾

"De: “Rəbbim həm aşkar, həm də gizli (edilən) pis əməlləri, (hər cür) günahı, haqsı yerə zülm

[1] Hədisi Buxari: (6094) və Müslim: (2607) Abdullah bin Məsuddan, Allah ondan razı olsun, rəvayət etmişdir.

etməyi, Allahın, haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi Ona şərik qoşmağınızı və Allah qarşı bilmədiyiniz şeyləri söyləməyinizi haram buyurmuşdur". (Əraf 7 surəsi, ayə 33).

Bu şərəfli ayə ən böyük günahları kiçiyindən böyüyünə doğru cəm etmişdir. Bunların ən böyüyü isə Allahın isimləri, sifətləri və şəriəti barəsində elmsiz danışmaqdır.

Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, adından yalan danışmaq ən böyük yalanlardan və ən çirkin günahlardandır və bu, sahibinə cəhənnəm vəd edilən böyük günahlardandır. Muğirə bin Şubə, Allah ondan razı olsun, demişdir: Mən peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, belə dediyini eşitdim:

«إِنَّ كَذِبًا عَلَيَّ لَيْسَ كَكَذِبٍ عَلَى أَحَدٍ، مَنْ كَذَبَ عَلَيَّ مُتَعَمِّدًا، فَلْيَتَبَوَّأْ مَقْعَدَهُ مِنَ النَّارِ»

«Həqiqətən, mənim adımdan yalan danışmaq, başqasının adından yalan danışmaq kimi deyil. Kim mənim adımdan qəsdən yalan danışarsa, Cəhənnəmdə öz yerini hazırladığını bilsin».[1].

Hətta yaxşı niyyətlə, xeyirə təşviq etmək və şərdən çəkindirmək məqsədilə olsa belə, bəzi moizə verənlərin etdiyi kimi yalandan çəkinmək lazımdır. Çünki bu, çirkin bir əməldir, onda heç bir xeyir və hidayət yoxdur və onu deyən savab

[1] Hədisi Buxari: (1291) və Müslim: (4) rəvayət etmişdir.

qazanmaz, günahkar olar, qazanc əldə etməz, günaha batar.

8- Sözü nəql edərkən əmin olmalı, yayılan xəbərlərin doğruluğunu yoxlamalı, şayiələrə inanmağa tələsməməli və yalnız etibarlı sözə əsaslanmalıdır. Uca Allah bu barədə bizə belə buyurmuşdur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِن جَآءَكُمۡ فَاسِقُۢ بِنَبَإٖ فَتَبَيَّنُوٓاْ أَن تُصِيبُواْ قَوۡمَۢا بِجَهَٰلَةٖ فَتُصۡبِحُواْ عَلَىٰ مَا فَعَلۡتُمۡ نَٰدِمِينَ6﴾

"Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, (onu) araşdırın. Yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız". (Hucurat 49 surəsi, ayə 6).

9- İnsanların eyiblərini örtməyə xüsusi diqqət yetirmək və onların sirlərini gizlətmək. Kim bir müsəlmanın eyibini örtsə, Uca Allah da onu həm dünyada, həm də axirətdə örtər. Kim müsəlmanların eyiblərini axtararsa, Allah da onun eyibini axtarar və nəticədə onu, hətta öz evinin içində belə, rüsvay edər. Abdullah bin Ömərdən, radıyallahu anhumə, rəvayət olunur ki, peyğəmbər, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«مَنْ سَتَرَ مُسْلِمًا سَتَرَهُ اللَّهُ يَوْمَ القِيَامَةِ»

«Kim bir müsəlmanın eybini örtərsə, Allah da Qiyamət günü onun eyibini örtər».[1] Əbu Bərzə əl-Əsləmidən, Allah ondan razı olsun, Allah rəsulunun,

[1] Hədisi Buxari: (2442) və Müslim: (2580) rəvayət etmişdir.

Allahın salavatı və salamı onun üzərinə olsun, belə dediyi rəvayət edilir:

«يَا مَعْشَرَ مَنْ آمَنَ بِلِسَانِهِ، وَلَمْ يَدْخُلِ الإِيمَانُ قَلْبَهُ، لَا تَغْتَابُوا الْمُسْلِمِينَ، وَلَا تَتَّبِعُوا عَوْرَاتِهِمْ؛ فَإِنَّهُ مَنِ اتَّبَعَ عَوْرَاتِهِمْ يَتَّبِعُ اللَّهُ عَوْرَتَهُ، وَمَنِ اتَّبَعَ اللَّهُ عَوْرَتَهُ يَفْضَحْهُ فِي بَيْتِهِ»

«Ey dili ilə iman gətirib, qəlbinə iman daxil olmamış kimsələr! Müsəlmanların qeybətini qırmayın və onların eyiblərini araşdırmayın. Çünki kim onların eyiblərini araşdırarsa, Allah da onun eyibini araşdırar. Allah kimin eyibini araşdırarsa, onu öz evində rüsvay edər».[1].

## Səkkizinci məsələ: Xütbənin və xətibin ədəbləri:

1- Cümə xütbəsi hər hansı bir şəxs, partiya, təşkilat və ya digər bir şey üçün təbliğat vasitəsi kimi istifadə edilməməli, xalis Uca Allah və Onun dini üçün olmalı, Onun dəvətini təbliğ etməli və kəlməsini ucaltmalıdır. Uca Allah buyurur:

﴿وَأَنَّ ٱلۡمَسَٰجِدَ لِلَّهِ فَلَا تَدۡعُواْ مَعَ ٱللَّهِ أَحَدٗا18﴾

"Şübhəsiz ki, məscidlər Allaha məxsusdur. Elə isə Allahla yanaşı heç kəsə dua etməyin!". (Cin 72 surəsi, ayə 18).

2- Xətib xütbəni, dinləyiciləri yorub bezdirəcək qədər uzatmamalı, mövzuya xələl gətirib onu yarımçıq qoyacaq dərəcədə də qısaltmamalıdır.

[1] Hədisi Əbu Davud: (4880) rəvayət etmişdir.

3- Xətib xütbə verərkən dinləyicilərin səviyyəsini nəzərə almalıdır. O, sadə xalqla onların anlayış səviyyəsinə enməli, dərk edilməsi çətin olan ifadələrdən çəkinməlidir. Orta təbəqə ilə orta bir üslubda, ziyalı təbəqə ilə isə daha incə və dərin danışmalıdır. Beləliklə, o, bütün təbəqələrə qarşı hər şeyi öz yerinə qoyan bir müdrik olmalı və hər bir halda danışığında hər cür batil və bəzəkli sözlərdən uzaq durmalıdır.

4. Kin-küdurət və ədavətə səbəb olan ixtilaflı məsələlərdən çəkinməlidir. Çünki xətibin əsas vəzifəsi insanları maarifləndirmək, qəlbləri haqq üzərində birləşdirmək və aralarındakı ixtilaf səbəblərini aradan qaldırmaqdır.

5- Qafiyəçilik və sözləri möhtəşəm göstərməyə və dərinləşdirməyə çalışmamalıdır. Əksinə, əsas məqsədi faydalı mənaları ən aydın və ən qısa ibarələrlə çatdırmaqdır.

6- Pislənilən və süni təqliddən, məşhur xətiblərin obrazına girməkdən uzaq durmaq. Çünki bu, qəlblərdə narahatlıq və narazılıq yaradır[1].

## Doqquzuncu məsələ: Xütbənin məqsədi və hədəfləri:

Cümə xütbəsi aşağıdakı məqsədləri həyata keçirməyi hədəfləməlidir:

---

[1] Bax: Abdullah ibn Deyfu-Llah ər-Ruheylinin “Cümə xütbəsinin üslubu” (səh: 12, 20-22) və Əmir bin Muhəmməd əl-Mədarinin “Uğurlu xətib olmaq üçün əlli bir vəsiyyət” (səh: 33, 73-87).

1- Tövhidin əsaslarını, onun əhəmiyyətini və fəzilətini bəyan etmək, şirkin bütün növlərindən, formalarından və vasitələrindən (yollarından) çəkindirmək.

2- Uca Allahı, Onun Axirətdəki haqq-hesabını və cəzasını, habelə qəlbləri dirildən Rəbbani mənaları öyüd-nəsihət edib xatırlatmaq, xeyirə dəvət etmək, yaxşılığı əmr edib pislikdən çəkindirmək.

3- Müsəlmanlara Uca Allahın Kitabından və Onun rəsulunun, sallallahu aleyhi və səlləm, sünnəsindən dinlərinin həqiqətlərini öyrətmək və başa salmaq, bununla yanaşı əxlaq və ədəbi ifrat və təfritdən qorumağa xüsusi diqqət yetirmək.

4- İslam haqqında yanlış məfhumları düzəltmək. Onun müxaliflərinin zehinləri bulandırmaq üçün ortaya atdığı şübhələri və batil iddiaları mənasız mübahisələrdən və təhqirlərdən uzaq, inandırıcı və hikmətli bir üslubla rədd etmək.

5. Dağıdıcı və azdırıcı fikirlərə qarşı, Allahın ümmət üçün bəyəndiyi və ümmətin də özünə din olaraq qəbul etdiyi əsil metod olan səhih İslamı təqdim etmək, həmçinin onun şamillik, tarazlıq, dərinlik və müsbətlik kimi xüsusiyyətlərini də önə çəkmək.

6- Xütbəni həyatla və insanların yaşadığı reallıqla əlaqələndirmək. Bunun üçün də mənbəyini uca İslam şəriətindən alan həll yolları təqdim etməklə cəmiyyətin xəstəliklərini müalicə etməyə və problemlərini həll etməyə diqqət

yetirmək. Həmçinin əqidəyə və onun islahına, İslam və iman əsaslarına, müsəlman qadın və ailə məsələlərinə, eləcə də insanların ehtiyac duyduğu digər mövzulara xüsusi önəm vermək.

7. İl boyunca təkrarlanan, dinləyicilərin zehnini məşğul edən və onları bu mövzularda yollarını aydınladacaq biliyə şövqləndirən Ramazan, Həcc və bu kimi müxtəlif münasibətlərin nəzərə alınması.

8. Müsəlmanlar arasında İslam qardaşlığını bərqərar etmək, habelə müsəlmanlar arasında təfriqə salan irqi, məzhəbi, regional və digər bu kimi təəssübkeşlik və təmayüllərə müqavimət göstərmək.

## Onuncu məsələ: Xütbənin hazırlanması:

Xütbə verən kəsin xütbəsini mükəmməl şəkildə hazırlaması və aşağıdakıları nəzərə alması gərəkdir:

Xütbə adətən üç hissədən təşkil olunur: Müqəddimə, mövzu və xatimə. Bunlar yazılarkən və ya təqdim edilərkən açıq şəkildə bildirilməyən, eyni zamanda bir-biri ilə sıx bağlı və ahəngdar olan ünsürlərdir. Xətibin bacarığına, elminin zənginliyinə və təcrübəsinə görə bu hissələr arasındakı əlaqə mükəmməlləşir, beləliklə də xütbənin hissələri nizamlanır və quruluşu möhkəmlənir.

Bu nizam və möhkəmlik mənaları aydınlaşdırır və məqsədləri aşkar edir, bununla da danışanın

dinləyiciləri tərəfindən diqqətlə dinlənilməsini və həmsöhbətlərinin tam diqqətini təmin edir.

Müqəddimə: Xətib öz müqəddiməsinə və giriş hissəsinə diqqət yetirməlidir. O, dinləyiciyə xütbənin məqsədini anladan, diqqəti cəlb edən və qəlbləri hazırlayan başlanğıc ifadələri işlətməlidir. Bu, çəkindirici və ya həvəsləndirici Quran ayələri, yaxud bəzi bəlağətli peyğəmbər hikmətləri ola bilər. Giriş hissəsi xətibin dinləyicilərinə söylədiyi ilk sözlərdir. Əgər o, gözəl təqdimatı ilə onları cəlb edə bilsə, onlar da xütbənin qalan hissəsini şövq və həvəslə izləyə bilərlər.

Sözün əvvəli danışanın məqsədini bildirməlidir. Məlumdur ki, cümə xütbəsi Allaha həmd, Ona tərif, iki şəhadət kəlimələri və Allahın rəsuluna, sallallahu aleyhi və səlləm, salavat və salamla başlayır. Buna görə də bu kəlmələr xütbənin mövzusuna və məqsədinə işarə edəcək şəkildə gözəl seçilməlidir.

Mövzu: Bu, xütbənin əsas məqsədidir və onu, cəmiyyətin müzakirə etdiyi və haqqında qaneedici bir söz gözlədiyi gündəm məsələlərindən olduğu təqdirdə, xütbənin əvvəlində, məsələn: "Sizə filan mövzu haqqında danışmaq istəyirəm..." deyərək açıqlamaq münasibdir.

Bəzən bir mövzunu açıq şəkildə danışmaq yaxşı olmur, çünki o, ya həssasdır ya da insanlar arasında ixtilafa səbəb olur. Belə olan halda xətib mövzuya tədricən və dolayı yolla yanaşmalıdır ki,

dinləyiciləri məntiqi ardıcıllıqla apararaq, təhrik və ixtilafdan çəkinməklə, mötədillik və müvazinətlə öz məqsədinə çatsın. Bununla da xətib, mövzudan üz çevirən və ya qəlblərinin alışmadığı bir söhbətə qarşı nəfsləri hazırlamaq məqsədinə nail olur.

Xütbənin mövzusu adətən iki əsas rükuna əsaslanır: aydınlıq və dəlilləndirmə.

Aydınlıq bölümündə, bəhs edilən mövzunun tərifi, sifətləri, xüsusiyyətləri və keyfiyyətləri zikr edilir.

Dəlil gətirməyə gəlincə, əksər hallarda mövzunu dəlillər, höccətlər, sübutlar və şahidlərlə dəstəkləməyə ehtiyac duyulur. Bunlar da adətən Kitabdan, Sünnədən və sələflərin sözlərindən, eləcə də qiyas və ibrət götürmək məqsədilə bəzi hadisə və əhvalatların qeyd edilməsindən ibarət olur. Bu məsələdə, məqamın tələb etdiyi və mövzuya münasib şəkildə, salehlik, imamlıq, mürüvvət, zahidlik, şücaət və təqvaları ilə tanınan məşhur imamların və hikmət sahiblərinin sözlərindən nəql gətirmək də faydalıdır.

Xütbənin son sözü: Xütbə verən kəs mövzusunu təqdim edib bitirdikdən sonra, xütbəsini fikirlərini cəmləşdirən, mövzusunu fərqli ifadələrlə və qısa bir üsulla xülasə edən müvafiq bir son sözlə bitirməsi daha yaxşıdır. Çünki bu halda sözü uzatmaq bezginlik gətirir və fikri yayındırır.

O, yeni fikirlər və yeni dəlillər ehtiva etməməlidir. Çünki belə olan halda o, son söz yox, xütbənin bir hissəsi və onun davamı sayılar.

Son söz ifadə və təsir baxımından güclü olmalıdır. Çünki o, dinləyicinin qulağına çatan və zehnində qalan son şeydir. Əgər o, quruluşca zəif, təqdimatında sönük olarsa, xütbənin faydası itər.

Son söz, bəzən xətibin daha öncə zikr etmədiyi, mövzunu tərğib, tərhib, dəlilləndirmə və isbat baxımından cəmləşdirən Quran ayələri, bəzən Quran ayələrinin ifadə etdiyi mənanı daşıyan bir peyğəmbər hədisi, bəzən də xütbənin əsas məqamlarının fərqli bir üslubda, ümumiləşdirici, aydın və güclü təsir bağışlayan bir şəkildə təkrarı ola bilər.

Xütbə verən kəsin diqqət yetirməsi gərəkən iki məsələ vardır: mövzu vəhdəti, yenilik və dəyişiklik.

Mövzu vəhdəti: Yalnız bir mövzu ilə kifayətlənmək lazımdır ki, onun bütün ünsürləri əhatə olunsun, kəlmələri səliqəyə salınsın və izahı dərinləşdirilsin. Çünki bir məqamda mövzuların şaxələnməsi və məsələlərin çoxluğu zehinləri yayındırır, bir-birini unutdurur, yorucu uzunçuluğa, sönük təəssürata və mövzunun səthi izahına gətirib çıxarır.

Yenilik və dəyişiklik: Yəni: Xütbələr daima eyni təkrarlanan mövzularla məhdudlaşdırılmamalı, əksinə, şəriətin tövhid, ibadətlər, müamilələr, əxlaq

və digər bütün məsələlərini əhatə etməsi üçün mövzular çeşidləndirilməlidir.

O, öz üslubunda və təqdimat tərzində vahid bir metoda bağlı qalmamalı, əksinə, bəzən sual, bəzən də izah formasından istifadə etməli, misallar çəkməli, hikmət və sirləri araşdırmalıdır. Eyni zamanda, cəmiyyətin reallıqlarını nəzərə almalı, insanların ehtiyaclarını öyrənməli, bu dəyişikliklərin onlara olan təsirinə uyğun olaraq onlara doğru yolu göstərməli və onları maarifləndirməlidir[1].

# Dördüncü fəsil: Məscid əhkamları

## Birinci bölmə: Məscidin tərifi

Məscidin şəriət mənası: İçində beş vaxt fərz namazları, cümə və digər namazlar qılınan və azan verilən yerdir. Uca Allaha səcdə edilən bir məkan olduğu üçün "məscid" adlandırılmışdır.

### Məscid və Musəlla (namazgah) arasındakı fərq

Məscid, fərz namazların daimi olaraq qılınması üçün ayrılmış və bu məqsədlə vəqf edilmiş bir yerdir. Namazgah isə məktəblər, müəssisələr, şirkətlər, səfər yolları və digər yerlərdə olduğu kimi namazlar üçün müvəqqəti nəzərdə tutulan və beş vaxt namaz üçün vəqf edilməmiş bir yerdir. Namazgaha daxil olarkən təhiyyətül-məscid

[1] Bax: Doktor Salih bin Abdullah bin Humeydin, "Cümə xütbəsinin hazırlanması metodu" adlı kitabı, (səh: 22) və sonrası.

namazı qılmaq sünnə deyil. Bu, yalnız məscidə daxil olarkən sünnədir.

## İkinci bölmə: Məscidin inşası və fəziləti

Məscidlər ən fəzilətli ibadət olan namazın qılındığı, yer üzünün ən xeyirli və ən şərəfli məkanlarıdır. Uca Allah buyurur:

﴿فِي بُيُوتٍ أَذِنَ ٱللَّهُ أَن تُرۡفَعَ وَيُذۡكَرَ فِيهَا ٱسۡمُهُۥ يُسَبِّحُ لَهُۥ فِيهَا بِٱلۡغُدُوِّ وَٱلۡأٓصَالِ 36
رِجَالٞ لَّا تُلۡهِيهِمۡ تِجَٰرَةٞ وَلَا بَيۡعٌ عَن ذِكۡرِ ٱللَّهِ وَإِقَامِ ٱلصَّلَوٰةِ وَإِيتَآءِ ٱلزَّكَوٰةِ يَخَافُونَ
يَوۡمٗا تَتَقَلَّبُ فِيهِ ٱلۡقُلُوبُ وَٱلۡأَبۡصَٰرُ 37﴾

"(Bu nur) Allahın, tikilib ucaldılmasına və içində Öz adının zikr edilməsinə izin verdiyi evlərdədir. (Mömin kişilər) orada səhər-axşam Ona təriflər deyirlər.

O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar". (Nur 24 surəsi, ayə 36-37).

Uca Allah şərəf və ehtiram əlaməti olaraq məscidləri Özünə nisbət etmiş və belə buyurmuşdur:

﴿وَمَنۡ أَظۡلَمُ مِمَّن مَّنَعَ مَسَٰجِدَ ٱللَّهِ أَن يُذۡكَرَ فِيهَا ٱسۡمُهُۥ ...﴾

"Allahın məscidlərində Onun adının zikr edilməsinə maneçilik törədənlərdən daha zalım kim ola bilər?!". (Bəqərə 2 surəsi, ayə 114). Pak və Uca olan Allah buyurur:

﴿وَأَنَّ ٱلۡمَسَٰجِدَ لِلَّهِ فَلَا تَدۡعُواْ مَعَ ٱللَّهِ أَحَدٗا 18﴾

"Şübhəsiz ki, məscidlər Allaha məxsusdur. Elə isə Allahla yanaşı heç kəsə dua etməyin!" (Cin 72 surəsi, ayə 18).

Odur ki, şəriət məscidlərin maddi və mənəvi cəhətdən inşasına və abadlaşdırılmasına təşviq etmişdir və Uca Allah da bu barədə belə buyurur:

﴿إِنَّمَا يَعۡمُرُ مَسَٰجِدَ ٱللَّهِ مَنۡ ءَامَنَ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ وَأَقَامَ ٱلصَّلَوٰةَ وَءَاتَى ٱلزَّكَوٰةَ وَلَمۡ يَخۡشَ إِلَّا ٱللَّهَۖ فَعَسَىٰٓ أُوْلَٰٓئِكَ أَن يَكُونُواْ مِنَ ٱلۡمُهۡتَدِينَ18﴾

"Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar. Ola bilsin ki, onlar doğru yolu tapanlardan olsunlar". (Tövbə 9 surəsi, ayə 18).

Osman bin Affandan, Allah ondan razı olsun, Allah rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, belə söylədiyi rəvayət edilir:

«مَنْ بَنَى مَسْجِدًا يَبْتَغِي بِهِ وَجْهَ اللَّهِ بَنَى اللَّهُ لَهُ مِثْلَهُ فِي الجَنَّةِ»

«Kim Allahın razılığını qazanmaq üçün bir məscid bina edərsə, Allah onun üçün Cənnətdə onun bənzərini bina edər».[1].

Cabir bin Abdullahdan, Allah onların hər ikisindən razı olsun, rəvayət edilir ki, Allah rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«مَنْ بَنَى مَسْجِدًا لِلَّهِ كَمَفْحَصِ قَطَاةٍ، أَوْ أَصْغَرَ، بَنَى اللَّهُ لَهُ بَيْتًا فِي الجَنَّةِ»

[1] Hədisi Buxari: (450) və Müslim: (533) rəvayət etmişdir.

«Kim Allah üçün bir bağrıqara quşunun yuvası boyda yaxud ondan daha kiçik bir məscid bina edərsə, Allah onun üçün Cənnətdə bir ev tikər».[1].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, buyurur:

«وَلَوْ كَمَفْحَصِ قَطَاةٍ»

«Bir bağrıqara yuvası qədər də olsa» Yəni: Dişi quşun yumurtaları üçün yerdə hazırladığı yer. Bununla da onun kiçikliyində mübaliğə edilməsi qəsd olunmuşdur ki, heç kəs inşa etdiyi məscidə, həddindən artıq kiçik olsa belə, xor baxmasın.

Bu mükafata, bunun qarşılığında verilən əcri umaraq məscidin inşasında bir kərpic və ya palçıqla olsa belə payı olan, orada öz əli ilə işləyən, işçilərin zəhmət haqqını ödəyən və ya canı və malı ilə məscidin tikintisinə kömək etdiyini göstərən bu kimi digər əməlləri edən kəslər də daxildir. Bu mükafat isə Allahın onun üçün Cənnətdə bənzərini və ya ondan daha genişini inşa etməsidir. Belə ki, Cənnətdəki ev dünyadakı ilə müqayisə edilə bilməz və onların arasında heç bir nisbət yoxdur. Bu, Allahın nemət verdiyi kəsi xeyir işlərə tələsməyə və bu həyatdakı fürsəti dəyərləndirməyə təşviq edir ki, axirəti üçün Rəbbinin yanında savabını dəfələrlə qat-qat artırılmış tapacağı əməlləri etsin[2].

---

[1] Hədisi İbn Macə: (738) rəvayət etmiş və Əl-Busiri "Əz-Zəvaid" (1/94) əsərində bu isnadın "səhih" olduğunu demişdir.

[2] Bax: Şeyx İbn Cibrin - rahiməhullah, «Fusul va məsail tətə'alləqu bil-məsacid», (səh: 14).

## Üçüncü bölmə: Məscidlərin abadlaşdırılması və fəziləti

Məscidlərin ümumi mənada imarı (abadlaşdırılması) onların həm maddi (hissi), həm də mənəvi cəhətdən abadlaşdırılmasını əhatə edir. Bura məscidlərin inşa edilməsi və təmir olunması, işıqlandırılması və döşənməsi, onlara xidmət göstərilməsi və təmizlənməsi, orada Allaha ibadət edilməsi, onlar üçün imam və müəzzinlərin təyin edilməsi, orada Quran, fiqh, təfsir, hədis və digər faydalı elmlərin təlim edildiyi zikr halqalarının təşkil edilməsi, orada çalışanların ruzi ilə təmin edilməsi, onların mənafeyinə uyğun olan şeylərin – məsələn: imam, müəzzin, müəllim və oradakı elm tələbələri üçün yaşayış yerlərinin – vəqf edilməsi, dəstəmazxanaların tikilməsi və digər ehtiyaclarının qarşılanması daxildir.

Uca Allah buyurmuşdur:

﴿إِنَّمَا يَعۡمُرُ مَسَٰجِدَ ٱللَّهِ مَنۡ ءَامَنَ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ وَأَقَامَ ٱلصَّلَوٰةَ وَءَاتَى ٱلزَّكَوٰةَ وَلَمۡ يَخۡشَ إِلَّا ٱللَّهَۖ فَعَسَىٰٓ أُوْلَٰٓئِكَ أَن يَكُونُواْ مِنَ ٱلۡمُهۡتَدِينَ18﴾

"Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar. Ola bilsin ki, onlar doğru yolu tapanlardan olsunlar". (Tövbə 9 surəsi, ayə 18).

Bu mübarək ayə, məscidlərdə namaz qılmaqla, onları təmiz saxlamaqla və zədələnmiş hissələrini

bərpa etməklə onları abad edənlərə iman sifətini nisbət vermişdir[1].

## Dördüncü bölmə: Məscidlərin murdarlıqlardan qorunması və təmiz saxlanılması

Məscidlər ibadət və itaət ilə Uca Allaha yaxınlaşmaq üçün olan yerlər olduğuna görə, onların təmiz, səliqəli və gözəl olması üçün hər cür pislik, nəcasət və çirkabdan qorunması əmr edilmişdir.

Şeyx İbn Səadi, Allah ona rəhmət etsin, Uca Allahın bu ayəsinin təfsirində belə demişdir:

﴿فِي بُيُوتٍ أَذِنَ ٱللَّهُ أَن تُرۡفَعَ وَيُذۡكَرَ فِيهَا ٱسۡمُهُۥ يُسَبِّحُ لَهُۥ فِيهَا بِٱلۡغُدُوِّ وَٱلۡأٓصَالِ36﴾

"(Bu nur) Allahın, tikilib ucaldılmasına və içində Öz adının zikr edilməsinə izin verdiyi evlərdədir. (Mömin kişilər) orada səhər-axşam Ona tariflər deyirlər". (Nur 24 surəsi, ayə 36). Demişdir:

﴿...أَن تُرۡفَعَ وَيُذۡكَرَ فِيهَا ٱسۡمُهُۥ...﴾

"...tikilib ucaldılmasına və içində Öz adının zikr edilməsinə..." - "Bu iki ifadə (məc-muan) məscidlərə aid hökmləri əhatə edir. “Onların ucaldılması” ifadəsinə — məscidlərin tikilməsi, süpürülməsi, murdarlıqlardan və hər cür əziyyətdən təmizlənməsi daxildir. Həmçinin, məscidlərin murdarlıqlardan qorunmayan dəli və

[1] Bax: Muhəmməd əl-Ərfəcin "əl-Məşru vəl-məmnu fil-məscid" kitabı (səh: 9).

uşaqlardan, eləcə də kafirlərdən qorunması, orada boş və mənasız sözlər danışılmaması və Allahı zikr etməkdən başqa səslərin yüksəldilməməsi də bu mənaya daxildir"[1].

Əbu Hureyrədən, Allah ondan razı olsun, rəvayət olunur ki, məscidi təmizləyən qara bir qadın var idi. Peyğəmbər, sallallahu aleyhi va salləm, onu görmədikdə haqqında soruşdu. Onlar: "O, vəfat etdi" – dedilər. Peyğəmbər, sallallahu aleyhi va salləm, buyurdu:

«أَفَلَا كُنْتُمْ آذَنْتُمُونِي» قَالَ: فَكَأَنَّهُمْ صَغَّرُوا أَمْرَهَا، فَقَالَ:«دُلُّونِي عَلَى قَبْرِهَا» فَدَلُّوهُ، فَصَلَّى عَلَيْهَا، ثُمَّ قَالَ: «إِنَّ هَذِهِ الْقُبُورَ مَمْلُوءَةٌ ظُلْمَةً عَلَى أَهْلِهَا، وَإِنَّ اللَّهَ عَزَّ وَجَلَّ يُنَوِّرُهَا لَهُمْ بِصَلَاتِي عَلَيْهِمْ»

«Niyə mənə xəbər vermədiniz?» (Ravi) dedi: Sanki onlar bu işi əhəmiyyətsiz saymışdılar. (Peyğəmbər) buyurdu: «Onun qəbrini mənə göstərin». Onlar da göstərdilər və o, qadın üçün namaz qıldı. Sonra buyurdu: «Həqiqətən, bu qəbirlər öz sakinləri üçün zülmətlə doludur və Allah, Azzə va Cəllə, mənim onlar üçün qıldığım namazla onları nurlandırır». (176).[2]

Ənəsdən, Allah ondan razı olsun, rəvayət edilir ki, o belə demişdir: "Bir dəfə biz peyğəmbərlə, sallallahu əleyhi va salləm, birlikdə məsciddə olarkən, bir bədəvi gəldi və məscidin içində kiçik subaşına çıxdı. Peyğəmbərin, sallallahu əleyhi va

[1] «Təfsir əs-Səadi» (səh: 569).
[2] Hədisi Buxari: (460) və Müslim: (956) rəvayət etmişdir.

səlləm, səhabələri: “Dayan, dayan!” – dedilər. Allah rəsulu, sallallahu əleyhi va səlləm, isə buyurdu:”

«لَا تُزْرِمُوهُ - أَيِ: لَا تَقْطَعُوا عَلَيْهِ بَوْلَهُ - دَعُوهُ»

«Onu dayandırmayın (yəni: kiçik subaşına çıxmasına mane olmayın), onu buraxın». Onlar onu kiçik subaşına çıxıb qurtarana qədər (rahat) buraxdılar, sonra peyğəmbər, sallallahu əleyhi va səlləm, onu yanına çağırdı və ona belə dedi:

«إِنَّ هَذِهِ الْمَسَاجِدَ لَا تَصْلُحُ لِشَيْءٍ مِنْ هَذَا البَوْلِ وَلَا القَذَرِ، إِنَّمَا هِيَ لِذِكْرِ اللَّهِ عَزَّ وَجَلَّ وَالصَّلَاةِ وَقِرَاءَةِ الْقُرْآنِ»

«Həqiqətən, bu məscidlər kiçik subaşına çıxmaq və ya murdarlıq üçün deyildir. Məscidlər yalnız Uca Allahı zikr etmək, namaz qılmaq və Quran oxumaq üçündür». Qövmdən bir kişiyə əmr etdi, o da bir qab su gətirib onun üzərinə səpələdi. Yəni: tökdü[1].

Sidiyin və bu kimi şeylərin nəcasət olması və təmizliyi şərt olan məscidlərin onlardan qorunması barədə ixtilaf yoxdur. Buna görə də məscidlər, onların döşənəkləri, həyətləri, damları və bu kimi yerləri bütün nəcasətlərdən qorunmalı və ora bu cür şeylərdən hər hansı biri düşdükdə təmizlənməlidir.

Həmçinin, onun bəlğəm, selik, ağız suyu, qan, irin və bu kimi çirklərdən təmizlənməsi də varid olmuşdur. Belə ki, Ənəs bin Malikdən, Allah ondan razı olsun, rəvayət olunur ki, peyğəmbər, sallallahu

---

1 Hədisi Buxari: (219) müxtəsər olaraq və Müslim: (285) rəvayət etmişdir.

əleyhi va səlləm, qiblə tərəfdə bir bəlğəm gördü. Bu ona o qədər ağır gəldi ki, narahatlığı üzündə göründü. O, ayağa qalxıb onu əli ilə ovuşdurdu və belə dedi:

«إِنَّ أَحَدَكُمْ إِذَا قَامَ فِي صَلَاتِهِ فَإِنَّهُ يُنَاجِي رَبَّهُ - أَوْ إِنَّ رَبَّهُ بَيْنَهُ وَبَيْنَ الْقِبْلَةِ - فَلَا يَبْزُقَنَّ أَحَدُكُمْ قِبَلَ قِبْلَتِهِ، وَلَكِنْ عَنْ يَسَارِهِ أَوْ تَحْتَ قَدَمَيْهِ» ثُمَّ أَخَذَ طَرَفَ رِدَائِهِ، فَبَصَقَ فِيهِ ثُمَّ رَدَّ بَعْضَهُ عَلَى بَعْضٍ، فَقَالَ: «أَوْ يَفْعَلُ هَكَذَا»

«Sizdən biriniz namaza durduğu zaman Rəbbi ilə danışır - yaxud Rəbbi onunla qiblə arasında olur - buna görə də heç biriniz qiblə tərəfə tüpürməsin, lakin sol tərəfinə və ya ayaqlarının altına tüpürsün». Sonra əbasının ucundan tutub ona tüpürdü, sonra da onu qatladı və buyurdu: «Yaxud belə etsin».[1].

Məsciddə tüpürməyin və bəlğəm ifraz etməyin qadağan olduğuna dəlalət edən çoxsaylı hədislər vardır. Onların bəzilərində qibləyə və ya sağ tərəfə tüpürmək qadağan edilir, sol tərəfə, yaxud sol ayağın altına tüpürməyə, sonra da ayaqla onu itirməyə isə icazə verilir. Şübhəsiz ki, tüpürcək və bəlğəm insan təbiətinin iyrənc saydığı şeylərdəndir. Buna görə də peyğəmbər, sallallahu aleyhi və səlləm, məscidin qiblə tərəfində tüpürcək gördükdə üzü qızarana qədər qəzəblənmiş, dərhal onu qaşıyıb təmizləmiş, sonra da yerinə xaluq (ətirli maddə) və ya zəfəran sürtmüşdür.

---

[1] Hədisi Buxari: (405) və Müslim: (551) rəvayət etmişdir.

Məlumdur ki, məscid gildən tikildikdə onu qaşımaq asandır və yeri torpaq olduqda ora düşən şeyi basdırmaq yaxud çirklənmiş torpağını çıxarmaq mümkündür.

Belə ki, dövrümüzdə məscidlərin döşəməsi əksər hallarda örtülmüş və təmiz xalçalarla döşənmişdir. Bu xalçalar çirkab və natəmizlikdən təsirlənir, onlarda bəlğəm, qan, irin və bu kimi şeylərin izi görünür. Buna görə də orada yerə tüpürmək qəti şəkildə qadağan edilməlidir - istər xalçaların üzərinə, istərsə də divarlara - yaxud da döşəməyə. Tüpürmək və ya bəlğəm gətirmək məcburiyyətində qalan kəs bunun üçün kənara çıxmalı yaxud dəsmalına tüpürüb onu çıxarmalı ya da hədisdə zikr olunduğu kimi, paltarının bir ucuna tüpürüb həmin hissəni qatlamalıdır. Beləliklə, məscid təmiz və pak qalar.

Aişə, Allah ondan razı olsun, demişdir:

«أَمَرَ رَسُولُ اللَّهِ ﷺ بِبِنَاءِ المَسَاجِدِ فِي الدُّورِ، وَأَنْ تُنَظَّفَ وَتُطَيَّبَ».

Allah rəsulu, sallallahu aleyhi və səlləm, məhəllələrdə məscidlərin inşa edilməsini, onların təmiz saxlanılmasını və ətirlənməsini əmr etmişdir. Süfyan demişdir: "Məhəllələrdə məscidlərin bina edilməsi", Yəni: qəbilələrdə[1].

---

1 Hədisi Tirmizi: (594) rəvayət etmişdir. Bax: “Məscidlərlə bağlı fəsillər və məsələlər” (səh: 27).

## Beşinci bölmə: Qəbir üzərində məscid bina edilməsinin və ya qəbrin məscidə daxil edilməsinin hökmü.

Kimliyindən asılı olmayaraq heç bir kəsin qəbri üzərində məscid tikmək icazəli deyildir. Çünki bu, qadağan edilmişdir. Şeyxul-İslam İbn Teymiyyə, Allah ona rəhmət etsin, demişdir: "İmamlar ittifaq etmişlər ki, qəbir üzərində məscid tikmək olmaz. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir":

«إِنَّ مَنْ كَانَ قَبْلَكُمْ كَانُوا يَتَّخِذُونَ الْقُبُورَ مَسَاجِدَ، أَلَا فَلَا تَتَّخِذُوا الْقُبُورَ مَسَاجِدَ؛ فَإِنِّي نَهَيْتُكُمْ عَنْ ذَلِكَ».

«Sizdən əvvəlkilər qəbirləri məscidlərə çevirirdilər. Agah olun ki, qəbirləri məscidlərə çevirməyin. Çünki mən bunu sizə qadağan etmişəm».

Məsciddə meyit dəfn etmək icazəli deyil. Əgər məscid dəfndən əvvəl tikilmişdirsə, bu hal ya qəbri yerlə bir etməklə ya da əgər təzədirsə, qəbir açılıb meyit oradan çıxarmaqla aradan qaldırılmalıdır.

Əgər məscid qəbirdən sonra tikilmişdirsə: ya məscid sökülməli ya da qəbir sökülməlidir. Qəbir üzərində inşa edilən məsciddə nə fərz, nə də nafilə namazı qılınmaz. Çünki bu, qadağan edilmişdir"[1].

Şeyxul-İslamın, Allah ona rəhmət etsin, zikr etdiklərindən başqa, buna dəlil olaraq Aişə və

[1] "Məcmuə əl-Fətavə": (22/194).

Abdullah bin Abbasdan, Allah onlardan razı olsun, rəvayət edilir ki, onlar demişlər: "Allah elçisinin, sallallahu aleyhi və səlləm, vəfatı yaxınlaşdıqda (yəni: ona ölüm nazil olduqda), o, paltarını üzünə salar, nəfəsi daraldıqda isə onu üzündən çəkərdi. O, bu halda ikən belə buyurdu:

«لَعْنَةُ اللَّهِ عَلَى اليَهُودِ وَالنَّصَارَى، اتَّخَذُوا قُبُورَ أَنْبِيَائِهِمْ مَسَاجِدَ»

«Allah yəhudilərə və nəsranilərə lənət etsin! Onlar peyğəmbərlərinin qəbirlərini məscidlərə çevirmişlər». Onların etdiklərinin bənzərindən çəkindirir[1].

Həqiqətən, peyğəmbər, salləllahu aleyhi va səlləm, can verərkən bəyan etmişdir ki, Uca Allah yəhudilərə və nəsranilərə peyğəmbərlərinin qəbirlərini ibadətgahlara çevirdikləri üçün lənət etmişdir. O, həmçinin bunun əvvəlki kafirlərin adəti olduğunu da bəyan etmişdir. Bu, ümmətini onlara bənzəməkdən çəkindirmək və Allaha şərik qoşmaq və Ondan başqasına ibadət etmək qapısını onların üzünə bağlamaq üçün idi.

Möminlərin anası Aişədən, Allah ondan razı olsun, rəvayət edilir ki, Ümmü Həbibə və Ümmü Sələmə Həbəşistanda gördükləri, içində şəkillər olan bir kilsəni peyğəmbərə, sallallahu aleyhi və səlləm, zikr etdikdə, o, belə buyurdu:

[1] Hədisi Buxari: (435) və Müslim: (531) rəvayət etmişdir.

«إِنَّ أُولَئِكَ إِذَا كَانَ فِيهِمُ الرَّجُلُ الصَّالِحُ فَمَاتَ، بَنَوْا عَلَى قَبْرِهِ مَسْجِدًا، وَصَوَّرُوا فِيهِ تِلْكَ الصُّوَرَ، فَأُولَئِكَ شِرَارُ الْخَلْقِ عِنْدَ اللهِ يَوْمَ الْقِيَامَةِ»

«Həqiqətən o kimsələr, aralarından saleh bir insan dünyasını dəyişdikdə, onun qəbri üzərində məscid tikərlər və içərisində həmin şəkilləri çəkərlər. Məhz onlar Qiyamət günü Allah qatında məxluqların ən şərliləridir».[1].

Aişə, Allah ondan razı olsun, rəvayət edir ki, Allah rəsulu, salləllahu aleyhi va səlləm, ayağa qalxmadığı, sonuncu xəstəliyində belə buyurmuşdur:

«لَعَنَ اللَّهُ اليَهُودَ وَالنَّصَارَى اتَّخَذُوا قُبُورَ أَنْبِيَائِهِمْ مَسَاجِدَ»

«Allah yəhudilərə və nəsranilərə lənət etsin! Onlar peyğəmbərlərinin qəbirlərini məscidlərə çevirmişlər». Əgər belə olmasaydı, onun qəbri aşkarda olardı. Lakin qəbrinin məscid edilməsi qorxusu var idi[2].

## Altıncı bölmə: Məscidlərin bəzədilməsinin hökmü

Məscidləri bəzəmək və onlarla öyünmək olmaz. Belə ki, Buxari, Abdullah bin Abbasdan - Allah onlardan razı olsun - rəvayət edir ki, o, belə demişdir: "Yəhudilər və nəsranilər bəzədiyi kimi, siz də onu bəzəyəcəksiniz".

---

[1] Hədisi Buxari: (427) və Müslim: (528) rəvayət etmişdir.
[2] Hədisi Buxari: (1390) və Müslim: (529) rəvayət etmişdir.

Ənəs bin Məlik, Allah ondan razı olsun, rəvayət edir ki, «Onunla öyünərlər, sonra isə orada çox az qalarlar (orada Allahı az zikr edərlər)».

Rəvayət edilir ki, Ömər - Allah ondan razı olsun - məscidlərin tikilməsini əmr etmiş və demişdir: "İnsanları yağışdan sığınacaqla təmin et. Lakin qırmızı və ya sarı rəngə boyamaqdan çəkin ki, insanları fitnəyə düçar etməyəsən" (184).[1]

Bu zamanlarda məscidlərlə öyünmək halları çoxalmış, insanlar onların bəzədilməsində və onlara pul xərcləməkdə israfa yol vermişlər. Şeyxlər, evlərə və mənzillərə nisbətən məscidlərin sönük və dəyərsiz görünməməsi üçün, yaşayış yerləri inşa edildiyi təqdirdə, məscidlərin də tikilməsinin icazəli olması barədə fətva vermişlər. Lakin bu, bəzədilmədə, rənglərdə və boyalarda israfa və mübaliğəyə yol vermədən, eləcə də ehtiyac olmayan keramika, kafel və xalça kimi şeylərə vəsait sərf etməklə çeşidliliyi artırmadan edilməlidir. Halbuki, ən sadə təmirə ehtiyacı olan başqa məscidlər də vardır və həmin vəsaitlər məhz o məscidlərin təmirinə sərf edilməlidir.

Abdullah bin Ömər, Allah onların hər ikisindən razı olsun, demişdir:

«أَنَّ المَسْجِدَ كَانَ عَلَى عَهْدِ رَسُولِ اللَّهِ ﷺ مَبْنِيًّا بِاللَّبِنِ، وَسَقْفُهُ الجَرِيدُ، وَعُمُدُهُ خَشَبُ النَّخْلِ، فَلَمْ يَزِدْ فِيهِ أَبُو بَكْرٍ شَيْئًا، وَزَادَ فِيهِ عُمَرُ وَبَنَاهُ عَلَى بُنْيَانِهِ فِي عَهْدِ

[1] Buxari bu əsərləri öz "Səhih" əsərində "cəzm" siğəsi ilə "mu'alləq" olaraq zikr etmişdir: (1/96-97).

رَسُولِ اللَّهِ ﷺ بِاللَّبِنِ وَالجَرِيدِ وَأَعَادَ عُمُدَهُ خَشَبًا، ثُمَّ غَيَّرَهُ عُثْمَانُ فَزَادَ فِيهِ زِيَادَةً كَثِيرَةً، وَبَنَى جِدَارَهُ بِالْحِجَارَةِ الْمَنْقُوشَةِ وَالقَصَّةِ، وَجَعَلَ عُمُدَهُ مِنْ حِجَارَةٍ مَنْقُوشَةٍ وَسَقْفَهُ بِالسَّاجِ».

«Allah rəsulunun, sallallahu aleyhi va səlləm, dövründə Məscid kərpicdən tikilmiş, tavanı xurma liflərindən (quru, nazik yarpaqlar dəstəsi), sütunları isə xurma ağacından idi. Əbu Bəkr, Allah ondan razı olsun, ona heç bir əlavə etmədi. Ömə, Allah ondan razı olsun, isə Məscidi genişləndirərək, onu Allah rəsulunun, sallallahu aleyhi va səlləm, dövründə olduğu kimi kərpic və xurma lifləri ilə yenidən inşa etdi və sütunlarını da ağacdan etdi. Sonra Osman, Allah ondan razı olsun, Məscidi dəyişdirərək ona bir çox əlavələr etdi. Divarlarını oymalı daşlar və kirəclə inşa etdi, sütunlarını oymalı daşlardan, tavanını isə "sac" ağacından etdi»[1].

Əllamə Abdüləziz bin Baz, Allah ona rəhmət etsin, demişdir: "Osmanın, Allah ondan razı olsun, bu əməli, məscidin naxışlı daşlarla, keyfiyyətli ağac materialları ilə və gəclə (yəni: divarın rənglənməsi ilə) gözəlləşdirilməsində bir qəbahət olmadığına dəlalət edir. Sələflərin həyat tərzi daha üstün və fəzilətli olsa da, lakin insanlar yaşadıqları evləri gözəlləşdirdikdə və köhnə binalardan uzaqlaşdıqda, məscidin köhnə halında qalması onları məscidlərdə namaz qılmaqdan və bir araya

[1] Hədisi Buxari: (446) rəvayət etmişdir.

gəlməkdən uzaqlaşdıra bilərsə, insanları məscidlərə təşviq etmək üçün Osmanın, Allah ondan razı olsun, etdiyi kimi edilməsində bir qəbahət yoxdur. Ancaq öyünmək üçün edilməsi isə qadağandır. Məscidin içində yazı yazmaq məkruhdur, ən yaxşısı onun sadə olmasıdır"[1].

## Yeddinci bölmə: Kafirin məscidə daxil olmasının hökmü

Müsəlmanların hər hansı bir kafirin Məscidul-Harama və onun ətrafındakı bütün Haram ərazisinə daxil olmasına izin verməsi haramdır. Çünki Uca Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِنَّمَا ٱلۡمُشۡرِكُونَ نَجَسٞ فَلَا يَقۡرَبُواْ ٱلۡمَسۡجِدَ ٱلۡحَرَامَ بَعۡدَ عَامِهِمۡ هَٰذَا...﴾

"Ey iman gətirənlər! Həqiqətən də, müşriklər murdardırlar. Odur ki, özlərinin bu ilindən (hicrətin doqquzuncu ilindən) sonra "Məscidul-Harama" yaxınlaşmasınlar..." [Tövbə 9 surəsi, ayə 28]. Amma digər məscidlərə gəldikdə, əgər İslam haqqında soruşmaq, məscidlə və ya müsəlmanların məsləhəti ilə bağlı bir iş görmək, moizə dinləmək yaxud məsciddəki sudan içmək kimi mübah bir iş üçün, yəni: şəri bir məqsədlə daxil olurlarsa, bunda bir qəbahət yoxdur. Bu kimi hallarda bu, caizdir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, Sumamə bin Usəli məscidin sütununa bağlamışdı. Əbu

---

[1] əl-Qəhtaninin "əl-Məsacid" (səh: 71) kitabından nəql edilmişdir.

Hureyrədən, Allah ondan razı olsun, rəvayət olunur ki, o demişdir:

«بعَثَ النَّبِيُّ ﷺ خَيْلًا قِبَلَ نَجْدٍ، فَجَاءَتْ بِرَجُلٍ مِنْ بَنِي حَنِيفَةَ يُقَالُ لَهُ ثُمَامَةُ بْنُ أُثَالٍ، فَرَبَطُوهُ بِسَارِيَةٍ مِنْ سَوَارِي المَسْجِدِ فَخَرَجَ إِلَيْهِ النَّبِيُّ ﷺ فَقَالَ: «مَا عِنْدَكَ يَا ثُمَامَةُ؟» فَقَالَ: عِنْدِي خَيْرٌ يَا مُحَمَّدُ، إِنْ تَقْتُلْنِي تَقْتُلْ ذَا دَمٍ، وَإِنْ تُنْعِمْ تُنْعِمْ عَلَى شَاكِرٍ، وَإِنْ كُنْتَ تُرِيدُ المَالَ فَسَلْ مِنْهُ مَا شِئْتَ، فَتَرَكَهُ حَتَّى كَانَ الغَدَ...» الحديث.

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, Nəcd tərəfə bir süvari dəstəsi göndərdi. Onlar Bəni Hənifə qəbiləsindən Sumamə bin Usəl adlı bir kişini tutub gətirdilər və onu məscidin dirəklərindən birinə bağladılar. Peyğəmbər, sallallahu aleyhi və səlləm, onun yanına gəlib dedi: «Ey Sumamə, nə deyirsən?» O da dedi: «Yaxşılıqdır, ey Muhəmməd. Əgər məni öldürsən, qisası alınacaq birini öldürmüş olarsan. Yox, əgər mənə lütf göstərsən, qədirbilən bir kimsəyə lütf göstərmiş olarsan. Əgər mal-dövlət istəyirsənsə, istədiyin qədər tələb et, veriləcəkdir». Peyğəmbər, sallallahu aleyhi və səlləm, səhərə qədər onu o vəziyyətdə saxladı...» Hədisin ardı var[1].

Nəcranın nəsranilərdən ibarət olan heyəti məscidə daxil oldu[2]. Dımam bin Sələbə də peyğəmbər, sallallahu aleyhi va səlləm, məsciddə olarkən onun yanına daxil oldu. Ənəs bin Məlik, Allah ondan razı olsun, rəvayət edir ki:

«بيْنَمَا نَحْنُ جُلُوسٌ مَعَ النَّبِيِّ ﷺ فِي المَسْجِدِ دَخَلَ رَجُلٌ عَلَى جَمَلٍ فَأَنَاخَهُ فِي المَسْجِدِ ثُمَّ عَقَلَهُ، ثُمَّ قَالَ لَهُمْ: أَيُّكُمْ مُحَمَّدٌ، وَالنَّبِيُّ ﷺ مُتَّكِئٌ بَيْنَ ظُهُورِهِمْ، فَقُلْنَا:

---

1 Buxari və Müslim rəvayət etmişdir.
2 Hədisi əl-Buxari və Müslim rəvayət etmişdir.

هَذَا الرَّجُلُ الأَبْيَضُ المُتَّكِئُ، فَقَالَ لَهُ الرَّجُلُ: ابْنُ عَبْدِ المُطَّلِبِ، فَقَالَ لَهُ النَّبِيُّ ﷺ: «قَدْ أَجَبْتُكَ»، فَقَالَ الرَّجُلُ لِلنَّبِيِّ ﷺ: إِنِّي سَائِلُكَ فَمُشَدِّدٌ عَلَيْكَ فِي السُّؤَالِ فَلَا تَجِدُ عَلَيَّ فِي نَفْسِكَ، فَقَالَ: «سَلْ عَمَّا بَدَا لَكَ»... إلى أن قال: فَقَالَ الرَّجُلُ: آمَنْتُ بِمَا جِئْتَ بِهِ وَأَنَا رَسُولُ مَنْ وَرَائِي مِنْ قَوْمِي، وَأَنَا ضِمَامُ بْنُ ثَعْلَبَةَ أَخُو بَنِي سَعْدِ بْنِ بَكْرٍ»

Biz peyğəmbərlə, Allahın salavatı və salamı onun üzərinə olsun, məsciddə oturduğumuz əsnada, dəvə üstündə bir kişi gəlib dəvəsini çökdürdükdən sonra bağladı, sonra dedi: "Hansınız Muhəmməddir?". Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, səhabələrinin arasında söykənərək əyləşmişdi. Biz də: "Bu söykənmiş ağ kişi odur" - dedik. Kişi ona dedi: "Abdulmuttalibin oğlu". Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, ona: «Səni dinləyirəm» - deyə cavab verdi. Kişi peyğəmbərə, Allahın salavatı və salamı onun üzərinə olsun, dedi: "Səndən, sənə qarşı sərt səslənən sual soruşacam, amma qəlbində məndən incimə". O da: «Nə istəsən soruş» - dedi... nəhayət kişi dedi: "Sənin gətirdiyinə iman etdim. Mən arxada qoyduğum qövmümün elçisiyəm və mən Sad bin Bəkr qəbiləsindən olan Dimam bin Sələbəyəm".[1].

Bu, müəzzinin, imamın və xətibin ehtiyac duyduğu məsələlər və məscid hökmləri barəsində qeyd edə bildiklərimizdir. Biz müəzzinə, imama və

[1] Hədisi Buxari rəvayət etmişdir. Bax: İbn Bazın "Məcmu Fətava və Məqalət", səkkizinci cild, "Kafirlərin məscidlərə daxil olmasının hökmü" və "Daimi Komitənin Fətvaları", (6/276).

xətibə Uca Allaha qarşı təqvalı olmağı, elm tələb etməkdə və onu yaymaqda səy göstərməyi və bu işə diqqət yetirməyi tövsiyə edirik.

Müvəffəqiyyət Allahdandır. Allahın salavat və salamı peyğəmbərimiz Məhəmmədin, onun ailəsinin və bütün səhabələrinin üzərinə olsun! Son duamız isə budur ki, həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur.

## Müəzzin, imam və xətib üçün bəzi faydalı mənbələr

Azan və iqamə. Dr. Səid bin Əli bin Vəhf əl-Qəhtani, Naşir: Səfir mətbəəsi, ər-Riyad.

Namazda imamlıq və imama tabe olmağın əhkamları. Dr. Əbdülmühsin əl-Münif.

Kitab və Sünnə işığında namazda imam durmaq. Səid bin Əli bin Vəhf əl-Qəhtani.

Cümə xütbəsinin üslubu. Abdullah bin Deyfullah ər-Ruheyli. Nəşriyyat: İslam İşləri Dəvət və İrşad Nazirliyi. Səudiyyə Ərəbistan Krallığı.

Namazda imamlıq – Kitab və Sünnə işığında anlayışı, fəzilətləri, növləri, ədəbləri və əhkamları. Müəllif: Dr. Səid bin Əli bin Vəhf əl-Qəhtani. Nəşriyyat: Səfir mətbəəsi. ər-Riyad.

Cümə xütbələri və xətiblərin məsuliyyətləri. Tərtib edən: Dəvət və İrşad Şurası İslam İşləri Dəvət və İrşad Nazirliyi. Səudiyyə Ərəbistan Krallığı.

Kitab və Sünnədə Cümə xütbəsi. Əbdürrəhman bin Muhəmməd əl-Həmd. Nəşr edən: İslam İşləri Dəvət və İrşad Nazirliyi. Səudiyyə Ərəbistan Krallığı.

Cümə xütbəsi və onun fiqhi əhkamları. Əbdüləziz bin Muhəmməd bin Abdullah əl-Huceylan. Nəşriyyat: İslam İşləri Dəvət və İrşad Nazirliyi. İslami Tədqiqatlar və Araşdırmalar Mərkəzi.

Cümə xütbəsinin ümmətin tərbiyəsindəki rolu. Əbdülğəni Əhməd Cəbr Muzhir. Naşir: İslam İşləri Dəvət və İrşad Nazirliyi. Səudiyyə Ərəbistan Krallığı.

Əmir bin Muhəmməd əl-Mədarinin “Uğurlu bir xətib olmaq üçün əlli bir tövsiyə” adlı yazısı Səudiyyə Ərəbistan Krallığının İslam İşləri Dəvət və İrşad Nazirliyinin saytında dərc edilmişdir.

"Cümə namazı - Kitab və Sünnə işığında məfhumu, şərtləri, fəzilətləri, xüsusiyyətləri, ədəbləri və əhkamları". Dr. Səid bin Əli bin Vəhf əl-Qəhtani. Nəşriyyat: Səfir mətbəəsi. ər-Riyad.

"Cümə minbəri əmanət və məsuliyyətdir" - Abdullah bin Muhəmməd ibn Humeyyid. Naşir: İslam Dəvət və İrşad İşləri üzrə Nazirlik. Səudiyyə Ərəbistan Krallığı.

"Cümə xütbəsinin hazırlanması metodikası" - Dr. Saleh bin Abdullah bin Humeyd. Nəşr edən: İslam İşləri Dəvət və İrşad Nazirliyi. Səudiyyə Ərəbistan Krallığı.

Şeyx Abdullah ibn Saleh əl-Fovzanın "İmamlar və Müəzzinlər üçün risalələri". İbn əl-Cövzi nəşriyyatı.

Şeyx Abdullah bin Carullah əl-Carullahın "Məscid imamlarına, müəzzinlərə və məmunlara" risaləsi.

Küveyt Fiqh Ensiklopediyası. "Xütbə, imamət, azan və məscidlər" fəsilləri.

# Mündəricat


Müəzzin, imam, xətib və Məscid əhkamları üçün faydalı qısa məlumat ........ 2
Müəzzin, imam, xətib və məscid əhkamları üçün faydalı bir xülasə ........ 2
Birinci fəsil: Azan və iqamə əhkamları ........ 3
Birinci bölmə: Azan və iqamənin tərifi ........ 3
İkinci bölmə: Azan və iqamənin hökmü ........ 3
Üçüncü bölmə: Azan və iqamənin fəziləti ........ 5
Dördüncü bölmə: Azan və iqamənin səhihlik şərtləri ........ 9
Beşinci bölmə: Müəzzində tələb olunan sifətlər ........ 12
Altıncı bölmə: Azan və iqamənin verilmə qaydası ........ 17
Yeddinci bölmə: Azan səsini eşidənin deyəcəyi söz və azandan sonra deyilən dua. ........ 21
Səkkizinci bölmə: Azandan sonra məsciddən çıxmağın hökmü ........ 26
Doqquzuncu bölmə: Azan və iqamə arasında nə qədər vaxt var? ........ 27
Onuncu bölmə: Müəzzinin məsuliyyəti və ədəbləri ........ 28
İkinci fəsil: İmamlığın əhkamları ........ 30
Birinci bölmə: İmamlığın tərifi ........ 30
İkinci bölmə: İmamlığın məşruiyyəti və fəziləti ........ 31
İmamlığın fəzilətlərindən: ........ 31
Üçüncü bölmə: İmam durmağa daha çox kimin haqqı çatır. ........ 32
Dördüncü bölmə: Kimin imam durması haramdır: ........ 37
Beşinci bölmə: Kimlərin imam durması məkruhdur ........ 40
Altıncı bölmə: Namazda imamın məmumlara (camaata) nisbətdə durduğu yer ........ 42
Yeddinci bölmə: Namazda imamı qabaqlamaq ........ 44

Səkkizinci bölmə: İmam və camaat namazı barədə müxtəlif hökmlər ... 46
Doqquzuncu bölmə: İmamın etməsi sünnə olan əməllər ... 48
Onuncu bölmə: İmamın əsas xüsusiyyətləri ... 52
İmamda mövcud olmalı əsas elmi keyfiyyətləri bunlardır: ... 54
Ən vacib əxlaqi xüsusiyyətlər isə bunlardır: ... 56
Üçüncü fəsil: Cümə namazı və xütbəsi ... 63
Birinci bölmə: Cümə namazı ... 63
Birinci məsələ: Cümə namazının məfhumu və vaxtı: ... 63
İkinci məsələ: Cümə namazının hökmü və kimlərə vacibdir? ... 65
Üçüncü məsələ: Cümə namazının qılınma qaydası: ... 68
Dördüncü məsələ: Cümə namazından nəyə çatdıqda ona yetişmiş hesab olunur? ... 69
Beşinci məsələ: Cümədə edilməsi haram və ya məkruh olan əməllər: ... 70
Altıncı məsələ: Cümə gününün sünnələri: ... 74
Yeddinci məsələ: Cümənin nafilə namazları: ... 80
İkinci bölmə: Cümə xütbəsi ... 81
Birinci məsələ: Cümə xütbəsi: ... 81
İkinci məsələ: Xütbənin hökmü: ... 81
Üçüncü məsələ: Xütbənin şərtləri: ... 82
Dördüncü məsələ: Xütbənin ərkanları: ... 84
Beşinci məsələ: Xütbənin sünnələri: ... 85
Altıncı məsələ: Cümə xütbəsinin tərcümə edilməsi: ... 90
Yeddinci məsələ: Xətibin şərtləri: ... 91
Xətibdə olması vacib olan ən mühüm elmi keyfiyyətlər: ... 94
Ən mühüm əxlaqi keyfiyyətlər: ... 96
Səkkizinci məsələ: Xütbənin və xətibin ədəbləri: ... 103
Doqquzuncu məsələ: Xütbənin məqsədi və hədəfləri: ... 104

Onuncu məsələ: Xütbənin hazırlanması: .................................. 106
Dördüncü fəsil: Məscid əhkamları .............................................. 110
Birinci bölmə: Məscidin tərifi ..................................................... 110
Məscid və Musəlla (namazgah) arasındakı fərq ..................... 110
İkinci bölmə: Məscidin inşası və fəziləti ................................... 111
Üçüncü bölmə: Məscidlərin abadlaşdırılması və fəziləti .... 114
Dördüncü bölmə: Məscidlərin murdarlıqlardan qorunması və təmiz saxlanılması .................................................................. 115
Beşinci bölmə: Qəbir üzərində məscid bina edilməsinin və ya qəbrin məscidə daxil edilməsinin hökmü. ................................ 120
Altıncı bölmə: Məscidlərin bəzədilməsinin hökmü ............. 122
Yeddinci bölmə: Kafirin məscidə daxil olmasının hökmü.. 125
Müəzzin, imam və xətib üçün bəzi faydalı mənbələr ........... 128

az349v2.1 - 04/09/2026